Xalqın qəzeti!
# Xalq qəzeti
№ 206 (30322) 23 sentyabr 2023-cü il, şənbə
Gündəlik ictimai-siyasi nəşr
1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

## Günün sözü

**Prezident İlham Əliyev:**

**Bölgəmizdə yeni vəziyyətin yaranması labüddür. Çünki kriminal xunta rejimi təslim olandan sonra bu gərginlik mənbəyi, bu zəhər yuvası artıq tarixdə qalır və Qarabağda yaşayan erməni əhalisi də nəhayət rahat nəfəs ala bilər. Qarabağın erməni əhalisi bizim vətəndaşlarımızdır.**

# Azərbaycan önəmli inkişafa, yüksək nəticələrə nail olub

## Prezident İlham Əliyev Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktorunu qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 22-də Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Roland Praysı qəbul edib.**

Dövlətimizin başçısı Dünya Bankının Azərbaycan iqtisadiyyatının modernləşdirilməsinə və şaxələndirilməsinə verdiyi dəstəyə görə minnətdarlığını bildirdi. Ötən illər ərzində əməkdaşlığın yüksək səviyyədə olduğunu deyən Prezident İlham Əliyev gələcək konkret istiqamətlərin və layihələrin müəyyənləşdirilməsinin önəmini vurğuladı. Dövlətimizin başçısı ölkəmizin uzun illər xarici borcun azaldılması istiqamətində səylər göstərdiyini və artıq bu məqsədə nail olunduğunu qeyd etdi.

Azərbaycanla artıq 30 ildir əməkdaşlığın həyata keçirilməsindən məmnunluğunu bildirən Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru dedi ki, bu gün Azərbaycan əhəmiyyətli inkişafa nail olub və yüksək nəticələr əldə edib. Qonaq bu inkişaf yolunda ölkəmizlə tərəfdaş olmaqdan məmnunluğunu ifadə etdi.

Görüşdə Dünya Bankının Azərbaycanda mövcud fəaliyyət istiqamətləri, ölkəmizin qarşısında duran və "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərə" uyğun olan yeni istiqamətlər və layihələr barədə müzakirələr aparıldı.

Qeyd edildi ki, Azərbaycan ilə Dünya Bankı arasında əsas əməkdaşlıq sahələri bərpaolunan enerji, yaşıl iqtisadiyyat və şəhərlər, nəqliyyat əlaqələndirməsi, kənd təsərrüfatı və irriqasiya sahələrində həyata keçirilən layihələrlə bağlıdır.

*AZƏRTAC*

**"İt hürər, karvan keçər". Bu atalar sözünü xatırlatmağımızın səbəbi var. Dəyərli oxucularımız yazının sonunda, bəlkə gedişində də el misalına müraciətimizin nədən qaynaqlandığını duyacaqlar. Hələlik isə BMT Təhlükəsizlik Şurasının sentyabrın 21-də keçirilmiş və Azərbaycanın Qarabağda təşkil etdiyi lokal antiterror tədbirlərinə həsr olunmuş iclasından danışaq. Sözügedən iclas Bakı vaxtı ilə gecə saatlarında başladı və bəri başdan deyək ki, toplantı onun təşkilinə təşəbbüs göstərənlərin tam uğursuzluğu ilə başa çatdı. Əslində, bunu gözləmək olardı. Ancaq...**

# BMT-də "diplomatik antiterror" tədbiri və Azərbaycanın zəfəri



Məlum olduğu kimi, iclasın təşəbbüskarı Fransa idi. Yəni, Ermənistan kimi, Fransa da Azərbaycana qarşı BMT-dəki son gülləsini də atdı. Özünə hörmət qoyan ölkə, obrazlı desək, silahı yerə qoymalıdır. Rəsmi Paris bunu edəcəkmi? İnandırıcı deyil. Elə İrəvanın da düşüncəli davranacağını söyləmək çətindir. Çünki onun baş diplomatı Ararat Mirzoyan iclasda, necə deyərlər, gözünü yumub, ağzını açdı. Azərbaycan əleyhinə hədyanları sıraladı. Onun bildirdiklərinin təfərrüatlarına varmaq istəməzdik. Həm mövzumuz bu deyil, həm də erməni XİN rəhbərinin nə söylədiyinin heç bir önəmi yoxdur.

*(ardı 3-cü səhifədə)*

# Bakı Limanı Xəzərdə ən böyük beynəlxalq qapıdır

**Bakı Beynəlxalq Dəniz Ticarət Limanının son illərdə xarici əlaqələrinin genişlənməsi nəticəsində bu infrastrukturun nəqliyyat kanallarının sabitliyi, səmərəliliyi təmin edilib. Çinin "Guangdong" Şirkətlər Qrupunun rəhbəri Fang Qichaonun başçılığı ilə nümayəndə heyətinin liman rəhbərliyi ilə keçirilən görüşündə də bu barədə ətraflı danışılıb, Avropanı Asiya ilə birləşdirən strateji marşrut sayılan Orta Dəhliz vasitəsilə Bakı limanından keçməklə göndəriləcək yük həcminin artırılması məsələsi ətrafında geniş müzakirə aparılıb.**




Söhbət zamanı adıçəkilən infrastrukturun genişləndirilməsi strategiyasına da toxunulub. Xəzər dənizinin ən müasir limanlarından sayılan və Orta Dəhlizdə mühüm strateji paya sahib olan Bakı limanı bu dəhlizi gücləndirməyə və sürətləndirməyə kömək edə biləcək Avropa limanları ilə əməkdaşlıq etməklə öz fəaliyyətini genişləndirməyə çalışdığı bildirilib.

*(ardı 7-ci səhifədə)*

# Sülh Cənubi Qafqazın "qapısını döyür"




**Əvvəla, dövlət başçımızın həmin müraciətinə qulaq asarkən gözümün önündən böyük bir tarix keçdi. Allaha şükür ki, əksər yaşıdlarım kimi, mən də milli tariximiz, adət-ənənələrimiz, mənəvi dəyərlərimiz haqqında az-çox məlumatlıyam. Bilirəm ki, xalqımızın müdrik liderləri, uzaqgörən ağsaqqalları həmişə insanları sülhə, dinc birgəyaşayışa, mehriban qonşuluğa çağırıblar.**

Amma, olub keçənləri unutmamaq şərti ilə. Yəni biz ermənilərlə münasibətlərdə Xocalı soyqırımı başda olmaqla, üzləşdiyimiz bütün vəhşilikləri heç birini unutmasaq da, birgəyaşayış prinsiplərinə yüksək səviyyədə əməl edəcəyik. Çünki, cənab Prezidentin dediyi kimi, bizim erməni xalqı ilə heç bir problemimiz yoxdur, ədavətimiz də yoxdur.

*(ardı 3-cü səhifədə)*

# Borrel aranı qarışdırmaqdan əl çəkmir

**Azərbaycanın Qarabağ iqtisadi rayonunda baş verən prosesləri, o cümlədən, ordumuzun keçirdiyi lokal xarakterli antiterror tədbirlərini məqsədli şəkildə yanlış təsvir edənlərdən biri də Avropa İttifaqının (Aİ) Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, eyni zamanda, Avropa Komissiyasının vitse-prezidenti Cozef Borreldir.**



Qarabağla bağlı bəyanat verməyə vərdiş etmiş cənab Borrelə mövqeyinin yanlış olduğu, reallıqdan kənar danışdığı, faktları təhrif etdiyi Azərbaycan Xarici İşlər Nazirliyi tərəfindən dəfələrlə bildirilsə də, kor tutduğunu buraxmadığı kimi, o da öz fikirlərinə düzəliş etmir.

*(ardı 4-cü səhifədə)*

Səhifə ⇨ 9



# Azıx və Tağlar düşərgələri Azərbaycana məxsusdur



# Qarabağ ölkəmizin ən inkişaf etmiş regionlarından birinə çevriləcək

**Azərbaycanın əhalisi 2023-cü ilin əvvəlinə 10 milyon 127 min nəfərdir. Dövlət Statistika Komitəsi bildirir ki, bu rəqəmə Qarabağ ermənilərı daxil deyil. Ölkəmizin ərazisi rəsmi məlumatlara görə 86,6 min kvadratkilometrdir və bura Qarabağ ərazisi də daxildir.**

Ötən il Azərbaycanda 133,8 milyard manatlıq və ya əvvəlki illə müqayisədə 4,6 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 2,7 faiz azalıb, qeyri neft-qaz sektorunda isə 9,1 faiz artıb. Əhalinin hər nəfərinə düşən ÜDM 13 min 292,2 manata bərabər olub.

*(ardı 8-ci səhifədə)*

# Azərbaycan – regionda sülh və sabitliyin qarantı

**Planetimizin siyasi ab-havası çox gərgindir. Siyasətin aramsız və nizamsız nəbzi dünyanı silkələyir. Bu gün qlobal xəritədə çox az yer, məkan tapmaq olar ki, orada münaqişə və müharibələr, zorakılıqlar baş verməsin.**

Cənubi Qafqazı da ağır münaqişə bölgəsinə çevirmək istəyən güclər mövcuddur. Lakin onların məkrli planlarının qarşısı Azərbaycan dövlətinin, xalqımızın müdrik liderinin gərgin səyləri sayəsində qətiyyətlə alınır. Xalqımız taleyinə yazılan sülhsevərlik missiyasını şərəflə yerinə yetirir.



*(ardı 11-ci səhifədə)*

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Qarabağda həyata keçirilən tədbirlər nəticəsində terrorçu silahlı birləşmələrin təslim olması və tərk-silah edilməsi ilə əlaqədar Sizə təbriklərimi çatdırmaqdan məmnunluq duyuram. Bu yeni qələbə regionda sülh və sabitliyin bərqərar olunması baxımından mühüm addımdır.

Uca Allaha Sizi və Azərbaycan xalqını qoruması üçün dua edirəm.

Zati-aliləri, Sizə olan dərin hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

**Əbdüləziz bin Osman əl-Tuveycri,**
**ISESCO-nun sabiq Baş direktoru,**
**Nizami Gəncəvi Beynəlxalq**
**Mərkəzinin üzvü**

# Ceyhun Bayramov BMT sessiyasında

**Dünən Nyu-Yorkda BMT Baş Assambleyasının 78-ci sessiyasının yüksəksəviyyəli həftəsində iştirakı çərçivəsində Xarici İşlər naziri Ceyhun Bayramov Türk Dövlətləri Təşkilatının Xarici İşlər Nazirləri Şurasının qeyri-rəsmi iclasında çıxış edib.**



Nazir Nyu-Yorkdakı "Türk evi"ndə iclasın yüksək səviyyədə təşkilinə və göstərilən qonaqpərvərliyə görə qardaş Türkiyənin xarici işlər naziri Hakan Fidana minnətdarlığını bildirib.

Ceyhun Bayramov Türk Dövlətləri Təşkilatının hazırda inkişaf dövrünü yaşadığını, tam gücü ilə fəaliyyətini davam etdirdiyini, üzv dövlətlər arasında əməkdaşlığın daha da genişləndiyini, təşkilatın beynəlxalq səviyyədə rolunun yüksəldiyini məmnunluqla vurğulayıb.

Üzv dövlətlər tərəfindən TÜRKPA, TÜRKSOY, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, həmçinin Türk İnvestisiya Fondu kimi Türk Dövlətləri Təşkilatının tabeliyində olan və əlaqəli qurumların fəaliyyətinə xüsusi önəm verildiyi diqqətə çatdırılıb.

Özbəkistan və Qazaxıstan tərəfindən Azərbaycanın işğaldan azad edilmiş Füzuli rayonunda reallaşdırılan və reallaşdırılmaqda olan layihələrin dövlətlərimiz arasında dostluq rəmzinə çevrildiyi diqqətə çatdırılıb.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yeni nəqliyyat infrastrukturunun yaradılması, o cümlədən, Zəngəzur dəhlizinin fəaliyyətə başlaması ilə Orta Dəhliz boyu yeni nəqliyyat qovşağının açılması baxımından həlledici rol oynayacağını bildirib.

Nazir Azərbaycanın Qarabağ bölgəsində qanunsuz erməni silahlı qüvvələrinə qarşı həyata keçirilmiş antiterror tədbirləri barədə məlumat verib. Azərbaycan tərəfindən suveren torpaqlarında həyata keçirilmiş tədbirlərlə bağlı ölkəmizə göstərilmiş dəstəyə görə türk dövlətlərinə xüsusi minnətdarlıq bildirilib.

Qeyd edilənlər nəzərə alınaraq, üzv ölkələri və türk birliyini hədəf alan bütün məkrli təhdidlərə qarşı mübarizə aparmaq üçün birlikdə və güclü olmağın vacibliyi vurğulanıb.

### Ceyhun Bayramovun BMT-də görüşləri

Ceyhun Bayramov BMT Baş Assambleyasının 78-ci sessiyasının yüksək səviyyəli həftəsi çərçivəsində BMT-nin Sivilizasiyalar Alyansının (UNAOC) ali nümayəndəsi Migel Angel Moratinos ilə də görüşüb.

Söhbət zamanı Azərbaycan və UNAOC arasında əməkdaşlıq məsələləri, habelə bölgədə mövcud vəziyyət müzakirə olunub. Nazir Ceyhun Bayramov ölkəmizlə UNAOC arasında əlaqələrin, ən Bakı prosesi çərçivəsində təşkil olunan Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyətini qeyd edib. Post-münaqişə dövründə bölgədə mövcud vəziyyətdən, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması prosesindən, o cümlədən Qarabağ bölgəsində yaşayan erməni əsilli sakinlərin cəmiyyətimizə reinteqrasiyası istiqamətində atılan addımlardan geniş bəhs olunub.

Ali nümayəndə Migel Angel Moratinos, UNAOC-un öz multikulturalizm modeli ilə mədəniyyətlərarası dialoq üzrə nümunəvi ölkələrdən hesab olunan Azərbaycanla əməkdaşlığın daha da genişləndirilməsində maraqlı olduğunu diqqətə çatdırıb. Qarabağ bölgəsində yaşayan erməni əsilli sakinlər ilə reinteqrasiya prosesinin irəlilədilməsinin məmnunluq doğurduğu qeyd olunub.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*

Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 78-ci sessiyasının yüksək səviyyəli həftəsi çərçivəsində dünən Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrovla görüşüb.

Söhbət zamanı Azərbaycan və Rusiya arasında əməkdaşlıq məsələləri, habelə bölgədə son vəziyyət müzakirə olunub. Nazir Ceyhun Bayramov Azərbaycanın Qarabağ bölgəsində həyata keçirilən antiterror tədbirləri zamanı Rusiya sülhməramlı kontingentinin üzvlərinin həlak olması ilə bağlı Rusiya Federasiyası və həlak olan şəxslərin ailələrinə dərin hüznlə başsağlığı verib. Məsələ ilə bağlı araşdırma aparıldığı və istintaq tədbirləri barədə məlumat verilib.

24 saatdan az bir zaman çərçivəsində həyata keçirilən antiterror tədbirlərinin 30 ilə yaxın işğal dövründən qalma, sonrakı mərhələlərdə, hətta post-münaqişə dövründə belə Ermənistan tərəfindən maliyyələşdirilən və dəstəklənən qanunsuz hərbi mövcudluğun varlığına son qoyulması ilə uğurla yekunlaşdığı qeyd olunub. Hazırda isə bölgədə müvəqqəti yerləşmiş Rusiya sülhməramlı kontingenti ilə koordinasiya edilərək, ciddi şəkildə hərbiləşmiş erməni silahlı qüvvələrinin silah-sursatının müsadirəsi istiqamətində əməli addımların atıldığı diqqətə çatdırılıb.

Ceyhun Bayramov, antiterror tədbirlərinin həm bölgədə sülh və təhlükəsizliyin bərqərar edilməsi, həm də erməni sakinlərin reinteqrasiyası baxımından görülən işlərin intensivliyini artıracağına inandığımızı, bundan sonra da qeyd olunan istiqamətlərdə səylərimizi davam etdirəcəyimizi bildirib.

Görüşdə iki ölkə arasında mövcud əməkdaşlıq gündəliyində duran digər məsələlər ətrafında fikir mübadiləsi də aparılıb.

*

Ceyhun Bayramov Pakistan İslam Respublikasının Xarici İşlər naziri Cəlil Abbas Cilani ilə görüşüb.

Nazir Ceyhun Bayramov Ermənistan və onun yaratdığı qondarma rejim tərəfindən həyata keçirilən hərbi-siyasi təxribatlar barədə qarşı tərəfə ətraflı məlumat verib. Bölgədə həyata keçirilmiş antiterror tədbirinin əsas məqsədinin qanunsuz erməni silahlı qüvvələrinin tərk-silah edilməsi və qanunsuz rejimin buraxılması olduğu diqqətə çatdırılıb. Silahlı qüvvələr tərəfindən həyata keçirilən lokal antiterror tədbirinin müstəsna olaraq legitim hərbi hədəflərə qarşı aparıldığı, Ermənistanın qanunsuz hərbi infrastrukturunu zərərsizləşdirmək məqsədi güddüyü qeyd edilib.

Görüş zamanı tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələləri müzakirə ediblər.

*

Daha sonra Ceyhun Bayramovun Albaniyanın Avropa və xarici işlər naziri İgli Hasani və Uqanda Respublikasının vitse-prezidenti Cessika Alupo ilə görüşüb.

*

Sentyabrın 22-də Xarici İşlər naziri Ceyhun Bayramov Nyu-Yorkda BMT Baş Assambleyasının 78-ci sessiyasının yüksək səviyyəli həftəsində iştirakı çərçivəsində Qoşulmama Hərəkatı (QH) – "77-lər Qrupu" və Çin Birgə Koordinasiya Komitəsinin (JCC) xarici işlər nazirləri səviyyəsində iclasına həmsədrlik edib və tədbirdə çıxış edib.

Nazir cari ilin iyul ayında QH-nin Əlaqələndirmə Bürosunun Bakı şəhərində keçirilmiş Nazirlər İclasında üzv ölkələrin beynəlxalq iqtisadiyyat, ticarət və maliyyə məsələlərində inkişaf etməkdə olan ölkələrin rolunun artırılması üçün QH və "77-lər Qrupu" və Çin arasında əlaqələndirmənin gücləndirilməsinə ehtiyacın olduğunu bir daha təsdiq etdiklərini qeyd edib.

Ceyhun Bayramov Bakı şəhərində keçirilən "2023 Nazirlər görüşü"ndə QH üzv ölkələrinin baş qərargahı inkişaf etməkdə olan ölkədə yerləşəcək Cənub-Cənub əməkdaşlığı üçün BMT-nin İxtisaslaşmış Agentliyinin yaradılması ilə bağlı "77-lər Qrupu" və Çin ilə işləyəcəkləri barədə razılığa gəldiklərini bildirib. Cənub-Cənub əməkdaşlığının inkişaf etməkdə olan ölkələrin həmrəylik prinsipi əsasında BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün birgə fəaliyyətlərini əks etdirdiyi diqqətə çatdırılıb.

**XQ**

# Türkiyə–Azərbaycan dostluq və qardaşlığı dünya örnəyidir

**Milli Məclisin Sədri Sahibə Qafarova Asiya Parlament Assambleyasının (APA) Bakıda keçirilən Sosial və mədəni məsələlər üzrə daimi komitəsinin iclasında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Türkiyənin APA-dakı nümayəndə heyətinin rəhbəri, qurum sədrinin təmsilçisi Abdulkadir Emin Önenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Görüşdə Azərbaycan–Türkiyə münasibətlərinin inkişafından danışılıb və qeyd edilib ki, iki ölkə arasında qardaşlıq, dostluq əbədidir və bu münasibətlər bir çox ölkələr üçün nümunədir. İki ölkə arasında münasibətlər ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" müdrik kəlamına uyğun olaraq hər gün daha da inkişaf edir və genişlənir. Eyni zamanda, dost və qardaş ölkələrin bütün platformalarda bir-birini dəstəklədikləri vurğulanıb. Rəcəb Tayyib Ərdoğan bugünlərdə BMT Baş Assambleyasındakı çıxışında qardaş Türkiyənin Azərbaycanın yanında olduğunu, bizim haqq işimizə davamlı dəstəyini bir daha bütün dünyaya nümayiş etdirdi.

Görüşdə 44 günlük Vətən müharibəsi dövründə də Türkiyədən olan nümayəndə heyətlərinin Azərbaycana səfəri və ölkəmizə siyasi-mənəvi dəstək verməsi xatırlanıb. Bildirib ki, Azərbaycan da hər zaman Türkiyənin yanında olduğunu söyləyərək, dəfələrlə sübut edib.

Azərbaycan və Türkiyənin qanunverici orqanları arasında da münasibətlərin yüksək səviyyədə olduğu qeyd edilib. Digər sahələrdə olduğu kimi, parlamentlərarası əlaqələrimiz də həm ikitərəfli əsasda, həm də beynəlxalq parlament təşkilatları çərçivəsində uğurla inkişaf edir.

Regionda baş verən son hadisələr barədə qonaqlara məlumat verən Milli Məclisin Sədri bildirib ki, Azərbaycanın sülh və sabitlik istiqamətində atdığı ardıcıl addımlara baxmayaraq, Ermənistan hərbi-siyasi təxribatlar törədərək sülhün əldə olunmasına maneələr yaradırdı. O, Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin törətdiyi bir sıra irimiqyaslı hərbi təxribatlar və terror aktlarına əl atdığını qeyd edərək, bu təxribatlara cavab olaraq, ölkəmizin regionda lokal antiterror tədbirləri həyata keçirdiyini vurğulayıb.

Sahibə xanım, həmçinin işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı quruculuq və bərpa işləri, məcburi köçkünlərin öz yurdlarına qayıtması üçün görülən tədbirlər barədə də məlumat verib.

Abdulkadir Emin Önen qəbula və göstərilən qonaqpərvərliyə görə, minnətdarlığını bildirərək, Asiya Parlament Assambleyasının Bakıda keçirilən Sosial və mədəni məsələlər üzrə daimi komitəsinin iclasının yüksək səviyyədə təşkil olunduğunu, tədbirdə müzakirə olunan mövzuların aktuallığını diqqətə çatdırıb.

O, dost və qardaş ölkələrimiz arasında münasibətlərin daim zamanın sınaqlarından uğurla çıxaraq, daha da möhkəmləndiyini və bu gün bütün sahələri əhatə etdiyini diqqətə çatdırıb.

*

**Həmin gün Milli Məclisin Sədri Sahibə Qafarova Asiya Parlament Assambleyasının (APA) Bakıda keçirilən Sosial və mədəni məsələlər üzrə daimi komitəsinin iclasında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan İndoneziya Respublikası Nümayəndələr Palatasının Parlamentlərarası əməkdaşlıq komitəsinin sədri Fadli Zon ilə görüşüb.**

Görüşdə APA-nın daimi komitəsinin Azərbaycanın evsahibliyi ilə keçirilən iclasında müzakirə olunan məsələlərin aktuallığı vurğulanıb. Görüşdə APA-nın Asiya dövlətlərinin parlamentləri arasında əməkdaşlığın genişləndirilməsində vacib rolu qeyd edilib. Diqqətə çatdırılıb ki, ötən il diplomatik əlaqələrinin qurulmasının 30-cu ildönümü qeyd olunan Azərbaycan və İndoneziya bir sıra beynəlxalq təşkilatlarda, o cümlədən, BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq qurumlarda yaxından əməkdaşlıq edirlər. İki ölkə arasında dostluq və əməkdaşlıq əlaqələri bir sıra sahələrdə olduğu kimi, qanunvericilik orqanları arasında da uğurla davam edir. S.Qafarova, eyni zamanda, Milli Məclisin ASEAN Parlamentlərarası Assambleyasına müşahidəçi üzv qəbul olunmasını xatırladaraq, bu təşkilat çərçivəsində də əlaqələrin əhəmiyyətini vurğulayıb.

Parlamentin Sədri, həmçinin Azərbaycanın Vətən müharibəsində əldə etdiyi Qələbədən sonra regionda vəziyyət, işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı quruculuq və bərpa işləri, məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması üçün həyata keçirilən tədbirlər barədə də məlumat verib.

İndoneziya Nümayəndələr Palatasının komitə sədri Fadli Zon göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib və APA-nın tədbirinin yüksək səviyyədə təşkilinə görə təbriklərini çatdırıb. O, ölkəsinin Azərbaycanla bir çox sahələrdə münasibətlərin daha da inkişafına böyük əhəmiyyət verdiyini qeyd edib. F.Zon, həmçinin bu əlaqələrin parlamentlərimiz arasında da uğurla davam etdirildiyini, Milli Məclisin Sədrinin İndoneziyaya işgüzar səfəri çərçivəsində keçirdiyi görüşlərin əhəmiyyətini diqqətə çatdırıb.

**Əliqismət BƏDƏLOV**
**XQ**

# Bakıdan göndərilən humanitar yüklər Xankəndiyə çatdırıldı

**Sentyabrın 22-də Fövqəladə Hallar Nazirliyi tərəfindən ölkəmizin Qarabağ bölgəsində yaşayan erməni sakinlərin ehtiyaclarının təmin olunması üçün humanitar məqsədlə ərzaq məhsulları və gigiyenik vasitələr göndərilib.**




İçərisində müxtəlif ərzaq məhsulları və gigiyenik vasitələr olan 20 tonluq 2 yük avtomobili və çörək dolu 2 avtomobil Ağdam–Xankəndi yolu ilə yükü ünvanına çatdırıb və geri qayıdıb. Bundan sonra da bu kimi humanitar məqsədli yüklərin çatdırılması təmin olunacaq.

Nazirlikdən XQ-yə verilən məlumatda bildirilib ki, içərisində müxtəlif ərzaq məhsulları və gigiyenik vasitələr olan 20 tonluq 2 yük avtomobili və 2 çörək dolu avtomobil Ağdam rayonundan Əsgərana doğru yola salınıb.

"Yüklər artıq fəaliyyətdə olan Ağdam–Xankəndi yolu ilə ünvana çatdırılacaq və əhaliyə paylanılacaq. Bundan sonra da bu kimi humanitar məqsədli yüklərin çatdırılması təmin olunacaq", – deyə məlumatda bildirilir.

Fövqəladə Hallar Nazirliyinin Qarabağ Regional Mərkəzinin rəisi Mirəli Feyziyev deyib ki, yük avtomobillərinin hər birinin tutumu 20 tondur.

O, Qarabağda yaşayan erməni sakinlərə bundan sonra da humanitar dəstəyin göndəriləcəyini bildirib. Ərzaq qutularında çörəklə yanaşı un, peçenye, makaron, duru yağ, duz, düyü, mərcimək, diş məcunu, diş fırçası, uşaq bezi, sabun və konfet də yer alıb.

Bundan öncə – avqustun 29-da Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən erməni əhaliyə 40 ton un göndərilsə də, separatçılar yükün Xankəndiyə keçidinə imkan verməmişdilər. Rusiya Qızıl Xaç Komitəsinin göndərdiyi yük isə bir neçə gün Azərbaycan ərazisində gözlədikdən sonra sentyabrın 12-də Xankəndiyə keçmişdi.

Onu da qeyd edək ki, Qarabağın erməni sakinlərinin nümayəndələri sentyabrın 21-də Yevlaxda keçirilən görüş zamanı xüsusilə yanacağa ehtiyac duyulduğunu bildirmişdilər. Eyni zamanda, onlara qida məhsulları olmaqla, humanitar yardımın göstərilməsini xahiş etmişdilər.

Görüşün nəticəsi olaraq onların xahişi müsbət qarşılanıb. Xüsusilə bağça və məktəblərin istilik sistemləri, təcili tibbi yardım və yanğınsöndürmə xidmətlərinin ehtiyacları təmin olunmaqla yanacağın tezliklə təchiz edilməsi və humanitar dəstəyin həyata keçirilməsi planlaşdırılıb.

Beləliklə, Qarabağın erməni sakinlərinin nümayəndələri artıq özləri Azərbaycanın mərkəzi hakimiyyətindən humanitar yardımın göndərilməsini istəyirlər. Çünki lokal antiterror tədbirlərindən sonra bütün maneələr aradan qaldırılıb. Bu isə gələcək birgəyaşayış üçün zəmin yaradır. Zatən, Azərbaycanın hər zaman istədiyi də Qarabağ regionunun inkişafı, əhalinin sülh və əmin-amanlıq içində yaşaması olub.

**Səxavət HƏMİD**
**XQ**

# Şuşa rayonu ərazisində mina partlayışı

**Sentyabrın 22-də Şuşa rayonunun Xəlfəli kəndi ərazisində minalardan təmizlənməmiş ərazidə mina partlayışı baş verib.**

Bu barədə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin və Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin mətbuat xidmətlərinin məlumatında deyilir.

Məlumata əsasən, Azərbaycan Ordusunun nəzarəti altına keçmiş ərazidə yolun salınması fəaliyyəti ilə məşğul olan 1965-ci il təvəllüdlü mülki şəxs idarə etdiyi traktorla minaya düşüb. Hadisə nəticəsində traktorçu yüngül xəsarət alıb. Həyati təhlükəsi yoxdur.

Mülki təyinatlı sahələrin minalanması bir daha Ermənistanın dinc əhaliyə qarşı məkrli niyyətinin göstəricisi, insanlığa qarşı törədilmiş terrorun təzahürüdür.

**XQ**

# BMT-də "diplomatik antiterror" tədbiri və Azərbaycanın zəfəri

## Erməni avantürizmi üçün növbəti aqoniya anı

(əvvəli 1-ci səhifədə)

Özünə hörmət qoymaqdan danışırdıq axı. Əslində, BMT-nin özü də bu barədə düşünməlidir. Belə təəssürat yaranır ki, qurumun son illərdəki işi-gücü ancaq erməni yalanlarını müzakirəyə çıxarmaqdır. Bir dəfə İrəvan, artıq ikinci dəfədir ki, Paris onu alətə çevirir. Əslində, bunu ikilikdə, müştərək şəkildə edirlər. Halbuki, dünyanın ən mötəbər təşkilatı olaraq tanınan BMT vəziyyətin belə şəkil almasına yol verməməli idi. Yol verməmək isə çox asandır. Qurum sadəcə diqqət yetirməlidir ki, Azərbaycanı hansı ərazi çərçivəsində özünə üzv qəbul edib.



Ancaq atalarımız onu da yaxşı deyiblər ki, hər ziyanda bir xeyir var. Yeri gəlmişkən, Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov da BMT TŞ-nin iclasındakı çıxışında, təxminən, bunu dedi. Nazir nitqinə başlayar-başlamaz vurğuladı: "Ermənistanın BMT Təhlükəsizlik Şurasını beynəlxalq ictimaiyyəti yanıltma kampaniyası üçün istismar etməsi məyusedici olsa da, Ermənistanın regional sülh və təhlükəsizliyə törətdiyi çağırışlar barədə şura və daha geniş beynəlxalq ictimaiyyətə məlumat vermək üçün bu imkandan istifadə edə bilərik".

Həqiqətən, Ermənistanın, demək olar ki, beynəlxalq platformalarda Azərbaycana qarşı apardığı kampaniya, sanki bumeranq effekti verir. İrəvan və Paris onsuz da elə bir durumdadırlar ki, heç nəyi hesablaya bilmirlər. Onlar üçün nüfuz düşüncəsi, mənasız şeyə girişməklə özünü gözdən salmaq kimi məsələlər aktual deyil. Yaxşı, Ermənistan və Fransa qısırdır, beyin qanaması keçirir, bəs BMT? O, damı iflic durumdadır? Axı, C.Bayramov, faktiki olaraq, qurumu biyabır etdi. Fransanın TŞ-yə müraciətinin Azərbaycanın beynəlxalq hüquq, o cümlədən, beynəlxalq humanitar hüquqa tam uyğun şəkildə özünün suveren ərazisində icra etdiyi lokal antiterror tədbirləri ilə əlaqədar olduğunu xatırladan nazir bildirdi ki, müzakirəyə çıxarılmış məsələ BMT Nizamnaməsinin dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət və onların daxili işlərinə qarışmamaqla bağlı tələblərinin açıq formada pozulmasıdır: "Şuranın növbəti dəfə belə məsuliyyətsiz şəkildə sui-istifadə edilməsi tamamilə qəbuledilməzdir, bu mötəbər orqanın nüfuzu və etibarına ciddi zərbədir və tamamilə rədd edilməlidir".

Ancaq müzakirə varsa, deməli, rədd etməyi düşünən yoxdur. Elə isə bir qədər keçmişə ekskurs edək. Artıq bildirdik ki, son bir ildə üçüncü dəfədir BMT erməni yalanları ilə bağlı diskussiya meydanına çevrilməkdədir. Məsələnin üzərində bir qədər ətraflı dayanaq. Beləliklə, 2022-ci il dekabrın 21-də qurum Fransanın təşəbbüsü ilə Laçın yolundakı vəziyyətə həsr olunmuş toplantı düzənləmişdisə, bu il avqustun 16-da Ermənistanın Qarabağda humanitar böhran və etnik təmizləmə iddiasına baxış keçirmişdi. Birinci müzakirə zamanı Fransa və digər iki-üç ölkə Laçın yolunun açılması çağırışlarını səsləndirsələr də, ümumən, TŞ-nin iclası Azərbaycanın ərazi bütövlüyünə hörmət kontekstində keçmişdi. Avqustun 16-da da ölkəmizin ortaya qoyduğu sübut və arqumentlər nəticəsində toplantı heç bir qərar çıxarmamışdı. Ora toplaşanlar danışıb dağılışmışdılar.

Senytabrın 21-də də eyni ssenari yaşandı. Nəinki yaşandı, Ermənistanın və havadarı Fransanın uğradığı diplomatik iflas bir qədər də dərinləşdi. Əsl tragikomik səhnə yaşandı. Bu səhnəni şərtləndirən müxtəlif məqamlar var. Bunlardan birini C.Bayramov bildirdi. O dedi ki, artıq Qarabağda antiterror tədbirləri başa çatıb, eyni zamanda, Qarabağın erməni icmasının təmsilçiləri ilə ölkəmizin mərkəzi hakimiyyət orqanlarının nümayəndələri arasında dialoq baş tutub. Yəni, gecikmiş reinteqrasiya prosesi başlayıb. Digər tərəfdən, bir məsələyə də diqqət yetirərək, həm Parisin, həm də İrəvanın ötən müddətdəki uğursuz trayektoriyasından söz açaq. Nəzərə alaq ki, hazırda həmin trayektoriyada kulminasiya anı yaşanır. Fransanın xarici işlər naziri Ketrin Kolonnanın söylədikləri ortaya acınacaqlı mənzərə çıxarır.

Əlbəttə, xanım Kolonna bir çox cəfəng şeylərdən danışdı. Onun qəbuledilməz ritorikasının ayrı-ayrı hissələrini yada salmaq niyyətindən uzağıq.

XİN rəhbəri çıxışında başlıca vurğunu Azərbaycanın Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi ilə bağlı inandırıcı təminat verməli olduğuna qoydu. Onun inandırıcı təminat məntiqinin necə bir şey olduğunu təxmin etmək asan deyil. Heç şübhəsiz, Bakının irəli sürdüyü nələrisə inandırıcı saymaya bilər və çox güman indiki mərhələdə heç saymayacaq da. Ancaq, dünənin bu günü olduğu kimi, bu günün də sabahı var. Fransa dünən nə deyirdi, indi nə deyir? Ölkə, faktiki olaraq, Ermənistanın Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi ilə bağlı beynəlxalq təminatların verilməsi iddiasını gündəmə gətirməkdən geri durur. Halbuki, bu iddia Qarabağdakı separatçı rejimi, az qala, ayrıca dövlət qurumu səviyyəsinə gətirirdi. Artıq Laçın yolundan da danışan yoxdur...

Bəli, əslində, K.Kolonnanın timsalında Fransa diplomatiyası şüuraltı şəkildə qəbul edir ki, qatar gedib. Ancaq onun kor iddiası var və həmin iddia naminə gərək nələrsə səsləndirsin, dilə gətirilsin. Kolonnanın "inandırıcı təminat" məntiqi də bundan qaynaqlanır. Deməli, qalır Fransanın XİN rəhbərinin inanması. Heç şübhəsiz ki, bunun gec-tezi var.

Əlbəttə, Azərbaycan kimisə nəyəsə inandırmaq istiqamətində heç bir səy göstərməyəcək. C.Bayramov çıxışında da bunu rəhbər tutmamışdı. O, sadəcə həqiqətləri və dövlətimizin məramını dilə gətirmişdi. İnanan inansın, inanmayan isə onsuz da məcburiyyət qarşısında qalıb inanacaq. Axı, dünyada çox şeyi həll edən gücdür. Azərbaycan peşəkar səviyyədə apardığı antiterror tədbirləri ilə gücünü ortaya qoydu və aşkar göründü ki, bu amil BMT müstəvisinə də təsirsiz ötüşməyib. Ermənistanın XİN rəhbəri mövcud məqamı görməyib, daha doğrusu, görmək istəməyib iclas zalını tərk etməkdə sərbəstdir.

***

Sonda bir daha əvvəldə haqqında söz açdığımız el məsəlinə qayıdaq. Söhbət "İt hürər, karvan keçər" deyimindən gedir. Karvan 44 günlük müharibə ilə keçəndə "itlər" çox hürüşdü. Sonrakı müddətdə də həmçinin. Cəmi 23 saat 43 dəqiqə davam etmiş antiterror tədbirləri isə karvanın yenidən keçdiyini göstərdi. Dünən Azərbaycanın Qarabağ ermənilərinə yardım karvanı gedib. Özü də Ağdam–Xankəndi yolundan. İndi artıq Laçın–Xankəndi yolu müstəvisindəki avantüra sıradan çıxmış kimidir. Deməli, Ermənistanın və Fransa başda olmaqla onun havadarlarının qurduqları bütün oyunlar əbəsdir. Bələlərinin isə avantürizminin davamı baxımından hansı beynəlxalq platformanı seçmələrinin də heç bir mənası yoxdur. Belə də BMT TŞ-dən böyük hansı platforma var? Heç hansı!

Bəli, Azərbaycan dövləti Qarabağa tam sahiblənib. Ölkəmizin suverenliyi bərpa olunub. Bu reallıqla hər kəs barışmalıdır. Hər kəs barışmalı və anlamalıdır ki, Azərbaycan adlı karvan əbədi olaraq hərəkətdədir. Bu karvana qoşulmaq şansları saxlanılır. Bu şansdan yararlanmaq lazımdır. Sakitcə, hay-küy salmadan...

**Ə.RÜSTƏMOV**
**XQ**

***Qarabağın erməni əhalisi bizim vətəndaşlarımızdır. Sadəcə olaraq, erməni millətçiləri, müharibə cinayətkarları, Ermənistanın və Qarabağın "rəhbərləri" o insanları girov götürmüşdülər, onların beyinlərini zəhərləmişdilər... Mən əminəm ki, Qarabağda yaşayan erməni əhalisi tezliklə yaxşılığa doğru dönüşü görəcək. Çünki bizim niyyətimiz sülh, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət əsasında birgə həyat qurmaqdır.***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciətindən 20 sentyabr 2023-cü il***

# Sülh Cənubi Qafqazın "qapısını döyür"

## Nə xoşdur ki, həmin istiqamətdə ilk addımlar Yevlaxda atıldı

(əvvəli 1-ci səhifədə)

**İkinci,** Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının dəvəti əsasında 2023-cü il sentyabrın 21-də Yevlax şəhərində keçirilmiş məlum görüşdə Qarabağın erməni sakinləri adından iştirak edən Sergey Martirosyan və David Melkumyan, sözün həqiqi mənasında, erməni xalqının milli tarixinə düşdülər. Çünki yaxın vaxtlarda əldə olunacaq sülh və əməkdaşlıq münasibətlərinə çatmaq üçün (bu prosesi artıq heç kəs əngəlləyə bilməyəcək– İ.M.) ilk addımları məhz onlar atdılar. İndiyədək ermənilərin nəinki siyasətçi, diplomat və ya deputatları, hətta, idmançı, musiqiçi və tələbələri də türk dünyasına düşmən kimi baxırdılar. Sergey Martirosyan və David Melkumyan isə məhz erməni xalqının sabahı naminə öz qüdrətli qonşuları ilə əməkdaşlığa doğru addım atdılar.



**Üçüncü,** 28 May Müstəqillik Günü münasibətilə hazırladığım yazılardan birində Vaqif Səmədoğlunun "Günün baxtı" şeirinin bu misralarını yada salmışdım: "Günün baxtına bir bax, düz iyirmi əsr ilin, ayın adi günlərindən biri olasan, sonra gəlib tarixdə 9 May kimi qalasan". Sən demə, şəhərin də bəxti olurmuş. İndi sən şəhərin bəxtinə bax, yüz illər boyu Kür qırağında adi bir Yevlax olasan, sonra Cənubi Qafqaza sülh gətirəcək ilk addımların atıldığı şəhər kimi dünyanın diqqət mərkəzində qalasan. Qərəz...

Prezident İlham Əliyevin sentyabrın 20-də xalqa ünvanladığı müraciətin bəzi detallarının əlamətlərini Yevlax görüşünün nəticələrində də gördük. Məsələn, dövlət başçımız müraciətdə deyirdi ki, bütün haqsızlıqlara baxmayaraq, kriminal Ermənistan rejimi tərəfindən törədilmiş cinayətlərə baxmayaraq, biz erməni xalqını bu cinayətlərdə heç vaxt günahlandırmamışıq. Xocalı soyqırımında, şəhərlərimizin, kəndlərimizin dağıdılmasında, qəbirlərin qazılmasında biz erməni xalqını günahlandırmamışıq. Biz kriminal rejimin ünsürlərini, başda duranlarını ittiham etmişik və biz onları məsuliyyətə cəlb edirik və edəcəyik.

İndi isə Yevlax görüşünün nəticələri barədə verilən rəsmi məlumata diqqət yetirək: "Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinlərinin nümayəndələri sosial və humanitar xarakterli məsələlərin müzakirəsi kontekstində xüsusilə yanacağa ehtiyac duyulduğunu bildiriblər. Eyni zamanda, qida məhsulları olmaqla humanitar yardımın göstərilməsini xahiş ediblər. Görüşün nəticəsi olaraq onların xahişi müsbət qarşılanıb. Xüsusilə bağça və məktəblərin istilik sistemləri, təcili tibbi yardım və yanğınsöndürmə xidmətlərinin ehtiyacları təmin olunmaqla yanacağın tezliklə təchiz edilməsi və humanitar dəstəyin həyata keçirilməsi planlaşdırılır". Bu isə o deməkdir ki, sülh uzaqda deyil.

Görüşün ertəsi günü isə rəsmi mənbələr xəbər yaydılar ki, sentyabrın 22-də Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən ölkəmizin Qarabağ bölgəsində yaşayan erməni sakinlərin ehtiyaclarının təmin olunması üçün içərisində müxtəlif ərzaq məhsulları və gigiyenik vasitələr olan 20 tonluq 2 yük avtomobili və 2 çörək dolu avtomobil Xankəndiyə yola salınıb. Həm də bu nəqliyyat vasitələri artıq fəaliyyətdə olan Ağdam –Xankəndi yolu ilə ünvana çatdırılacaq və əhaliyə paylanılacaq. Yəni dünyanın müxtəlif ölkələrindəki anti-Azərbaycan qüvvələrin yaydığı cəfəngiyyatlara baxmayaraq, rəsmi Bakı öz sülhpərvərliyini növbəti dəfə sübut edir.

Yeri gəlmişkən, Azərbaycan Prezidenti İlham Əliyev ötən ilin oktyabrında Gürcüstanda olarkən, "Qafqaz evi" yaradılması təşəbbüsünü irəli sürmüşdü. Bu təklif Qafqaz xalqları arasında əməkdaşlığın inkişafı və keyfiyyətcə yeni mərhələyə yüksəlməsi, bərabər yaşayışın yeni modelinin tətbiqini nəzərdə tutur. Ekspertlər yazırlar ki, 44 günlük Vətən müharibəsindən qabaq Prezident Əliyevin Ermənistana çağırışı, işğaldakı torpaqların azad olunmasını tələb etməsi, tarixi Zəfərdən sonra sülhyaratma missiyasına sadiqliyi, erməni mənşəli vətəndaşlarımızın reinteqrasiyası istiqamətində fəal addımları fonunda ortaya çıxan mənzərə budur ki, regionda real barışığı təmin edəcək lider yetişib. O lider məhz İlham Əliyevdir.

Oktyabrın 24-də Mçxeta rayonundakı Muxrani sarayında "Qarabağ xanlığının irsi" sərgisi ilə tanışlıqdan sonra Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə birlikdə mətbuata bəyanatla çıxış edən Azərbaycan Prezidenti demişdir: "Qarabağ münaqişəsi başa çatandan sonra vaxt gəlib çatıb ki, Azərbaycan və Ermənistan sülh müqaviləsi imzalasınlar. Hər halda, bizim niyyətimiz bundan ibarətdir... Əgər belə olarsa, Cənubi Qafqaza sülh gələcək və eyni zamanda, əməkdaşlıq üçün imkanlar yaranacaqdır. Bu gün, eyni zamanda, söhbət əsnasında Gürcüstan–Azərbaycan–Ermənistan məsləhətləşmələrə başlaması haqqında fikir mübadiləsi apardıq. Əgər Ermənistan tərəfi buna hazırdırsa, biz buna hazırıq".

Fikrimizcə, dövlət başçımızın "Ermənistan tərəfi buna hazırdırsa?" sualının cavabı Yevlaxda verildi: Ermənistan danışıqlara gələcək. Baş nazir Nikol Paşinyanın son bəyanatları da bunun göstəricisidir. Yəni Cənubi Qafqaz sülhün astanasındadır.

***İttifaq MİRZƏBƏYLİ***
**XQ**

# Neo-müstəmləkəçilik problemi Bakı Təşəbbüs Qrupunun təqdimatında BMT-də

**Sentyabrın 22-də Nyu-Yorkda BMT-nin Baş qərargahında BMT Baş Assambleyasının davam edən ümumi müzakirələri çərçivəsində "Müstəmləkəçiliyə son qoyulması: Sakit inqilab" adlı konfrans keçirilib.**

Konfrans Qoşulmama Hərəkatının bu il iyulun 5-6-da Bakıda keçirilmiş nazirlər toplantısı çərçivəsində təşkil edilmiş tədbirin nəticəsi olaraq yaradılmış Bakı Təşəbbüs Qrupu tərəfindən təşkil edilib.

Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər toplantısı çərçivəsində 6 iyul 2023-cü ildə Bakıda "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılmasına doğru" adlı tədbir keçirilib. Bütün dünyada müstəmləkəçiliyə məruz qalan xalqlara, xüsusilə Karib adaları, Cənubi Amerika, Sakit okean və Hind okeanındakı son fransız müstəmləkələrinə həsr olunmuş bu tədbir bütün maraqlı tərəflərə Fransa dövlətinin müstəmləkəçilik siyasətinin müvafiq ölkələrdə fəsadlarına dair fikir mübadiləsi aparmağa imkan verib.

Tədbirdə XXI əsrdə hələ də müstəmləkəçilikdən əziyyət çəkən dünyanın müxtəlif bölgələrinin nümayəndələri ədalət və azadlıq uğrunda apardıqları mübarizədə öz həmrəylik şəbəkələrini strukturlaşdırmaq məqsədilə Bakı Təşəbbüs Qrupunun yaradılması barədə razılığa gəliblər.

Bakıda keçirilən tədbirin davamı, eləcə də Fransanın dənizaşırı ərazilərinin təmsilçiləri ilə əməkdaşlığın dərinləşdirilməsi məqsədilə 22 Sentyabr 2023-cü il tarixində Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində yerləşən Birləşmiş Millətlər Təşkilatının qərargahında "Bakı Təşəbbüs Qrupu" tərəfindən "Dekolonizasiya: Sakit İnqilab" adlı konfrans keçirilmişdir. "Bakı Təşəbbüs Qrupu" tərəfindən təşkil edilmiş konfransın əsas məqsədi BMT Baş Assambleyası tərəfindən 75/123 nömrəli "Müstəmləkəçiliyin ləğvi üzrə beynəlxalq dördüncü onillik" adlı qətnamənin qəbulunun yaratdığı imkanlardan yararlanmaq üçün müzakirələrin aparılması olub. Tədbirdə Fransanın dənizaşırı bölgələri – Yeni Kaledoniya, Fransız Polineziyası, Fransız Qvianası, Martinika və Qvadelupanın müstəqillik və millətçi hərəkatlarının nümayəndələri, Melaneziya Təşəbbüs Qrupunun təmsilçisi iştirak etmişdilər. Müstəqillik və milləçi hərəkatlarının nümayəndələri Fransa müstəmləkəçiliyindən tam azad olunmaq və müstəmləkəçiliyin kökünün kəsilməsindək mübarizələrini davam etdirəcəklərini bəyan ediblər.



Daha sonra, konfrans iştirakçılarına yeni yaradılmış "Bakı Təşəbbüs Qrupu" İctimai Birliyinin fəaliyyəti ilə əlaqədar geniş məlumat verilmiş, Qoşulmama Hərəkatının koordinasiya bürosu tərəfindən müstəmləkəçiliyə qarşı təşkilatın öhdəliyi haqqında danışılmış, iştirakçılar tərəfindən təmsil etdikləri bölgələrdəki vəziyyətə dair çıxışlar edilib və dekolonizasiya mövzusu ilə bağlı iştirakçılar arasında geniş müzakirələr aparılıb. Sonda yekun bəyanat oxunub və qəbul edilib.

**XQ**

# Borrel aranı qarışdırmaqdan əl çəkmir

(əvvəli 1-ci səhifədə)

Ali nümayəndə sentyabrın 21-də yeni bəyanatla çıxış edib. O, Aİ-nin "Azərbaycanın Qarabağın erməni əhalisinə qarşı hərbi əməliyyatını" (?) pislədiyini bildirib. Bəyanatda deyilir: "Biz atəşkəs razılaşması ilə bağlı verilən açıqlamaları nəzərə almışıq. Hərbi



əməliyyatların dərhal və tam dayandırılmasını və atəşkəs rejiminə əməl olunmasını gözləyirik. Aİ Azərbaycanı Beynəlxalq Ədalət Məhkəməsinin 2023-cü il fevral və iyul aylarında çıxardığı qərarlara uyğun olaraq, ehtiyacı olan insanlara təcili və maneəsiz humanitar yardımın, o cümlədən, Laçın yolunun tam açılması vasitəsilə təmin etməyə çağırır. Humanitar təşkilatlar sərbəst fəaliyyət göstərə bilməlidirlər. Aİ və ona üzv ölkələr təcili humanitar yardım göstərməyə hazırdır. Aİ Bakını və Qarabağ ermənilərini təcili olaraq hərtərəfli və şəffaf dialoqa çağırır. Azərbaycan Qarabağ ermənilərinin hüquqlarının və təhlükəsizliyinin, o cümlədən, qorxu və ayrı-seçkilik olmadan öz evlərində yaşamaq hüquqlarının təmin edilməsinə cavabdehdir. Mülki əhalinin hərbi və ya digər vasitələrlə zorla köçürülməsi Aİ-nin sərt cavabı ilə qarşılanacaq".

C.Borrel vəziyyətin pisləşəcəyi təqdirdə Aİ-nin müvafiq tədbirlər görməyə hazır olduğunu da vurğulayıb. Sonda isə təşkilatın Azərbaycan və Ermənistanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini bir daha təsdiqləyib. Amma burada da ayrı-seçkilik etməyi unutmayıb. Ölkəmizi 1991-ci ildə qəbul edilmiş Alma-Ata Bəyannaməsinə əsasən, Ermənistanın ərazi bütövlüyünü tanınmasını bir daha təsdiq etməyə çağırıb. Aİ Ermənistanın demokratik yolla (?) seçilmiş hakimiyyətini dəstəkləməyə davam etməyə hazır olduğunu vurğulayıb. Avropa İttifaqının Ermənistandakı missiyasının (EUMA) Azərbaycanla beynəlxalq sərhədin Ermənistan tərəfində təhlükəsizlik vəziyyətinin monitorinqini və hesabatını davam etdirəcəyini qeyd edib. Sonda Aİ-nin sülh müqaviləsi bağlamaq üçün Ermənistan və Azərbaycanı bütün məsələlər üzrə danışıqları bərpa etməyə çağırıb.

Göründüyü kimi, bəyanat tamamilə radikal-revanşist ermənilərin mövqeyindən çıxış edərək yazılıb. Orada əksini tapan fikirlər, hətta, bu gün Ermənistanın baş naziri tərəfində də səsləndirilmir. Bu mənada, Borrel ermənilərdən daha çox canfəşanlıq edir.

Bu, danılmaz bir faktdır ki, Azərbaycan 24 saatdan az davam edən hərbi əməliyyatları Ermənistanın və qondarma rejimin davamlı təxribatçı hərəkətlərinə cavab olaraq, həyata keçirməyə məcbur olub. Ümumiyyətlə, sülhpərvər ölkə olan, regionda əmin-amanlığı səmimi şəkildə istəyən Azərbaycan hərb yoluna hər zaman məcburiyyətdən əl atıb. Ölkəmiz torpaqlarının sülh yolu ilə azad olunacağına inamını itirənədək Ermənistanla danışıqlar apardı. İrəvanın mövqeyi üzündən danışıqlar prosesi tam iflasa uğradıqdan sonra 44 günlük Vətən müharibəsi başladı. Eləcə də Azərbaycan müharibədən sonrakı 3 ilə yaxın dövr ərzində erməni silahlı birləşmələrinin Qarabağdan çıxarılmasına dair Ermənistanın üçtərəfli Bəyanatla üzərində götürdüyü öhdəliyini yerinə yetirməsini gözlədi. Ancaq bu öhdəlik yerinə yetirilmədi. Əksinə, biz Ermənistanın və qondarma rejimin yeni-yeni təxribatlarının şahidi olduq. Belə olan təqdirdə ölkəmiz məcbur qalaraq lokal xarakterli antiterror tədbirləri keçirdi. J.Borrelin bunu bildiyi halda başqa cür təqdim etməsi riyakarlıqdır.

Digər tərəfdən, Ermənistan baş naziri özü də sentyabrın 21-də Qarabağın mülki əhalisinə birbaşa təhlükənin olmadığını bildirib.

***

Bəyanata Azərbaycan Xarici İşlər Nazirliyinin münasibəti də özünü çox gözlətməyib. Nazirlik qeyd edib ki, ali nümayəndə tərəfindən bölgədə baş verən son hadisələrlə bağlı verilən və regiondakı reallıqları qəsdən təhrif edən bəyanat tamamilə qeyri-adekvatdır: "Avropa İttifaqının Azərbaycanın suveren ərazilərinin 30 ilə yaxın davam edən işğalını, azərbaycanlılara qarşı aparılan etnik təmizləmə siyasətini və insanlıq əleyhinə cinayətləri qınamaqdan çəkinməsi ilə yanaşı, 2020-ci ildə baş vermiş müharibədən sonra ölkəmizə qarşı qərəzli yanaşmanı təhdidlərlə bəyanatlar səviyyəsinə qaldırması, ölkəmizin bölgədə sülh və əmin-amanlığın bərqərar olması istiqamətində addımlarına heç vaxt dəstək göstərməməsi regionumuzun sabitliyinə hədədir. Azərbaycanın öz suveren ərazilərində yerləşən qeyri-qanuni erməni silahlı qüvvələrinin çıxarılması istiqamətində legitim tədbirləri bu qanunsuz qüvvələrin növbəti təxribat və hücumlarının qarşısının alınmasına yönəlib. Ölkəmizin antiterror tədbirlərinin, guya, erməni sakinlərə qarşı aparıldığına dair iddialarla bağlı isə qeyd etmək lazımdır ki, bu iddialar hətta Ermənistan baş nazirinin sentyabrın 21-də xalqa müraciətində də təkzib olunub".

Bildirilib ki, sentyabrın 21-də Azərbaycanın mərkəzi hakimiyyətini təmsil edən şəxslərlə erməni əhalinin nümayəndələri arasında onların reinteqrasiyası, infrastrukturun bərpası, ölkə Konstitusiyası və qanunvericiliyi əsasında fəaliyyətin təşkili ilə bağlı Yevlaxda aparılan konstruktiv müzakirələrə Aİ-nin açıq şəkildə etinasızlığı bir daha İttifaq daxilindəki müəyyən dairələrin dar siyasi məqsədlərini nümayiş etdirir: "Humanitar vəziyyət və yerli erməni əhalinin hüquq və təhlükəsizliyinin təmin edilməsi ilə bağlı iddialara gəldikdə isə beynəlxalq tərəfdaşların da dəstəyi ilə Azərbaycanın 21 sentyabr görüşünün nəticələrinə uyğun olaraq, yerli erməni sakinlərin sosial və humanitar vəziyyətinin yaxşılaşdırılması üçün lazımi yardım göstərəcəyini, ölkəmizin bu istiqamətdə addımlarına müdaxilənin hər hansı fayda və səmərə verməyəcəyini bildiririk. Azərbaycan Ermənistanla sülh gündəliyinə sadiqdir və qondarma rejimin, habelə qanunsuz erməni silahlı qüvvələrinin qalıqlarının ərazilərimizdən çıxarılması tədbirlərinin Ermənistanla sülh sazişinin bağlanmasına müsbət təsir göstərəcəyinə inanır".

Onu da qeyd edək ki, C.Borrelin ölkəmizin Qarabağdakı lokal xarakterli antiterror tədbirlərinə dair qərəzli anti-Azərbaycan bəyanatı Aİ-nin bütün ölkələrinin (27 ölkə) birgə bəyanatı olacaqdı, lakin Macarıstan buna veto qoyub. Bunu "X" platformasında (keçmiş "Twitter") "Azad Avropa/Azadlıq Radiosu"nun Avropa bölməsinin redaktoru Rikard Jozviak yazıb. O, bu barədə məlumatı ayrı-ayrı üç avropalı diplomatik mənbədən aldığını qeyd edib. Müəllifin sözlərinə görə, nəticədə Aİ-nin Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi öz adından bəyanat yaymaq məcburiyyətində qalıb. Beləliklə, Macarıstanın ədalətli və prinsipial mövqeyi anti-Azərbaycan bəyannaməsinin Aİ-nin 27 ölkəsinin birgə sənədi kimi qəbul edilməsinə mane olub. Zənnimizcə, bu cür ədalətli mövqelər C.Borrel kimi qərəzli insanlara dərs olmalıdır. Başa düşməlidirlər ki, bütün platformalarda haqqı müdafiə edənlər var. Müdrik atalarımızın dediyi kimi, haqq nazilsə də, üzülməz.

***Səxavət HƏMİD***
***XQ***

## Ekspert rəyi



**Fərid ŞƏFİYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri**

– Cozef Borrelin verdiyi bu bəyanata görə təəssüf edirəm. Avropa İttifaqı faktiki olaraq vasitəçi rol oynamaqdansa, Ermənistanı birmənalı dəstəkləməyə başlayıb. Azərbaycan torpaqları otuz ilə yaxın işğal altında idi. Nə Azərbaycanla sərhədə monitoriq missiyası göndərilirdi, nə Ermənistana təzyiq göstərilirdi, nə də tutarlı bəyanat verilirdi. İndi Aİ Şurasının prezidenti Şarl Mişel müəyyən vasitəçi rol oynamağa çalışır, Jozef Borrel isə belə bir bəyanat verir. O, bununla, təbii ki, ilk növbədə, Aİ-nin maraqlarına zərbə vurur. Azərbaycan qarşıya qoyulan bütün hədəflərə nail oldu. Amma Aİ-nin nüfuzu və burada hansısa vasitəçilik rolu bundan sonra şübhə altına alınır. Bu mənada, mənim Borrelin bəyanatına münasibətim mənfidir.

Macarıstanın mövqeyinə gəldikdə isə bu, gözlənilən idi. Macarıstan Azərbaycanın müttəfiqidir, biz Budapeştlə sıx əməkdaşlıq edirik. Bəzi ölkələr Aİ-də Fransanın və Almaniyanın diktaturasını yaratmağa çalışırlar. Bu çərçivədə bir ölkə digər ölkəyə hansısa bəyanatın qəbul olunması üçün təzyiq göstərməyə çalışır. Macarıstan çoxdandır ki, Aİ daxilində həm Brüsselin, həm də fərdi şəkildə bəzi ölkələrin bu diktaturasına qarşı çıxır.

## Ekspert rəyi



**Yeganə HACIYEVA,**
**politoloq**

– Qeyd edim ki, Cozef Borrel, ümumilikdə, ötən ilin sentyabrından başlayaraq, birtərəfli şəkildə Ermənistanın mövqeyini müdafiə edir. Bunu da Borrelin aid olduğu fransız qrupunun fəaliyyəti, Fransanın təzyiqlərinin nəticəsi kimi qiymətləndirmək olar. Amma onun mövqeyi həm də beynəlxalq hüquqa ziddir. Aİ-nin ali nümayəndəsinin beynəlxalq hüquqa zidd çıxışlarını eşitmək Avropa nizamında daha ciddi narahatlıqların ola biləcəyinin anonsudur. BMT Baş katibi də bugünlərdə bildirdi ki, dünya təhlükəli mərhələyə qədəm qoyur. Bu mərhələdə mövcud üsul-idarələrin qanunların əleyhinə, maraqların lehinə fəaliyyəti dünyanın nizamının pozulması deməkdir. Bu mənada, Borrelin anti-Azərbaycan mövqeyini onun həm də beynəlxalq hüquqa zidd mövqeyi kimi dəyərləndirmək lazımdır.

Digər tərəfdən, Aİ-nin müəyyən rəsmi şəxsləri Macarıstanın hər zaman beynəlxalq hüquq nöqteyi-nəzərindən çıxış etməsinə görə, dəfələrlə Budapeştin veto hüququnun əlindən alınması təklifi ilə çıxış ediblər. Macarıstan bu cür mövqeyinə görə zaman-zaman təzyiqlərə məruz qalıb. Budapeşt bununla qeyd etdiyimiz kimi, ümumilikdə, beynəlxalq hüquqa uyğun mövqe nümayiş etdirmiş olub. Bu, həm də Budapeştin təhlükəsizliyə, Aİ-nin enerji təhlükəsizliyinə verdiyi töhfədir. Nəhayət, Macarıstan Azərbaycana dost və qardaş ölkədir. Hər iki ölkə Türk Dövlətləri Təşkilatında təmsil olunur. Bu baxımdan, Budapeştin mövqeyi tam təbii qarşılanmalıdır.

# "Menendezizm", yoxsa ABŞ-ın Azərbaycana mesajı?

## *Ermənipərəst senatorun "qanun layihəsi"nə sözardı*

**ABŞ Senatının Beynəlxalq əlaqələr komitəsinin sədri Robert Menendezin ermənipərəstlik sevdası bitib-tükənmək bilmir. Vaxtaşırı olaraq bu "sevdanın" müxtəlif təzahür formalarını ortaya qoyan Menendez mövcud istiqamətdə daha da "irəli getməsi" ilə gündəmə gəlib. Heç şübhəsiz, onun belə davranmasına səbəb Azərbaycanın Qarabağda reallaşdırdığı uğurlu lokal antiterror tədbirləridir...**

Görünür, ölkəmizin qətiyyətli mövqeyi, suverenliyini bərpa etməsi bir çox ermənipərəstlər kimi korrupsiyalaşmış senatorun da kürkünə birə salıb. O, qaşınmağa başlayıb və qərara alıb ki, "Ermənilərin Azərbaycanın təcavüzündən qorunması haqqında" qanun layihəsi hazırlamaq lazımdır. Başına senatorlardan – Bill Kessidini, Kris Van Holleni, Aleks Padilyanı, Şeldon Uaythausu və Heri Pitersi yığıb ki, ona bu "işdə" kömək göstərsinlər. Çox güman, Menendez Birləşmiş Ştatlardakı erməni lobbi və diaspor təşkilatlarından aldığı vəsaiti onlarla da böləcək. Hər halda, bu cəfəng məsələyə qol qoyanlar elə onun kimi korrupsiyalaşmış naturalardır. Yəni, normal düşüncə sahibləri iyrənc siyasi kampaniyada iştirak etməzlər.

Həqiqətən, ortada iyrənc mənzərə var və bu mənzərənin haradan qaynaqlandığı məlumdur. Bildirdik ki, erməni lobbi və diaspor təşkilatları Menendezi, belə demək mümkünsə, himayəyə götürüblər. Həm də ona görə ki, onlar pulu kimə verdiklərini yaxşı bilirlər. Axı, Robertin həyat yoldaşı erməni əsilli amerikalıdır. Adı da Nadine Arslaniandır. Deyilənə görə, Menendez bu xanım qarşısında əyilib təntənəli evlilik təklifi ilə bağlı ayin icra edəndən bəri, onun dizləri ABŞ-ın erməni lobbisi qarşısında bükülüb. Bükülüb ki, həmin lobbinin atdığı "yemi" rahat şəkildə qəbul edə bilsin...



Bəli, Qarabağdakı antiterror tədbirləri Menendezə necə pis təsir göstəribsə, nəinki ABŞ, ümumən dünya tarixində analoqu olmayan qanun layihəsi hazırlamağa girişib. Təsəvvür edin, bir dövlət başqa bir dövləti və onun xalqını digər dövlətdən qorumaq üçün qanuna sahibdir. Adam nə qədər əbləh olar ki, belə bir şey düşünsün? Dəhşətli, dəhşətli olduğu qədər də faciəli durumdur və Menendez ABŞ kimi ölkədə senatordur. İndiki durumda, o, şəxsi qəzəbini hüquqi müstəviyə gətirməklə, bütövlükdə, ölkənin hüquq sistemini təhqir edir. Bəs, nədir buna imkan yaradan amil? Nə üçün menendezlər istədikləri cəfəngiyyatı leqallaşdırmaq əzmini özlərində hiss edirlər? Suallara yazımızın sonunda cavab tapacağıq. Hər halda, düşünmürük ki, belələri sadəcə yağışdan sonra çıxmış göbələklərdir.

***

Beləliklə, B.Menendez özünün "erməni sevdası" naminə Birləşmiş Ştatların təkcə hüquq deyil, eyni zamanda, siyasi sistemini də alçaldır. Korrupsiyalaşmış bu senatorun siyasi müstəvidəki manevr ritorikasından söz açarkən, çox uzağa yox, təxminən, bir həftə əvvələ qayıtmağa ehtiyac duyuruq. Yada salaq ki, Menendez rəhbərlik etdiyi komitədə "Dağlıq Qarabağda böhranın qiymətləndirilməsi" mövzusunda dinləmələr keçirmişdi. Türk düşməni kimi tanınan senator bildirmişdi ki, Azərbaycan Laçın dəhlizinə girişi bağlayıb, "acından ölən Qarabağ ermənilərinə", hətta humanitar yardımın çatdırılmasına da imkan vermir. Eyni zamanda, söylədiklərindən belə təəssürat yaranmışdı ki, R.Menendez erməniperəst ritorikasının vacibliyini Rusiya amilinə kökləmək yolunu tutur. Təxminən belə: Ermənistan Cənubi Qafqazda Rusiyaya qarşı mübarizənin qalasıdır və onun müdafiəsinə ehtiyac var. Bu ehtiyacın qarşılanması üçün isə ölkənin Qarabağ avantürasına dəstək göstərilməlidir.

2020-ci ildə N.Aslanian ilə evlilikdən sonra Amerika Erməniləri Milli Komitəsinin sevimlisinə çevrilmiş Menendez, həmçinin onun digər pul ortaqları Ermənistanın müdafiəsinin ABŞ-ın Rusiyaya qarşı direnişi baxımından vacibliyini nə qədər vurğulasalar da, Ağ ev Admisintrasiyasında İrəvanla bağlı tərəddüdlər olub və var. Durum həm də ona görə tərəddüdlüdür ki, görünür, Ermənistana etimad yoxdur. Rusiyaya dönük çıxan, ABŞ-dan niyə üz döndərməsin ki? Onun üçün müqəddəs heç nəyin olmadığı aşkardır. Bir halda ki, Ermənistan adlı dövlətin özünün düşünülmüş siyasəti istisnadır, o, daim müxtəlif qütblər arasında çirkin gediş yollarını nəzərdən keçirəcək. Belə yanaşma tərzinə isə əsla bel bağlanılmaz.

***

Bəli, Menendezin sözügedən qanun layihəsi ilə ABŞ-ın hüquq sisteminə "yenilik" gətirmək cəhdi özlüyündə siyasi xarakterlidir. Bəs, onun "Ermənilərin Azərbaycanın təcavüzündən qorunması haqqında" qanun layihəsində nələr var? Layihə təkcə Qarabağ ermənilərinə köklənməyib. Ancaq belə anlaşılır ki, sənədi hazırlayanlar Azərbaycan hakimiyyətinin öz vətəndaşları olan ermənilərə humanitar yardım göstərməsinə qarşıdırlar. Bu yardımı təhlükə kimi görürlər. Mövcud səbəbdən, öz aləmlərində, bölgənin erməni sakinlərinin təhlükəsizliyinin təminatına çalışırlar. Hesab edirlər ki, bu çalışmalar ölkəmizin "qəddar davranışlarının" qarşısını almaq üçündür. Bir sözlə, tam cəfəngiyyat.

Heç şübhəsiz, layihədə başqa cəfəng cəhətlər də var. Məsələn, B.Menendezin "təşəbbüsü" "Azadlığa dəstək aktı"na 907-ci düzəlişin qüvvəsini dayandırmasına qarşı çıxır. Senatorun fikrincə, həmin maddəni yenidən işə salmaqla, Azərbaycana yardımı aradan qaldırmağa ehtiyac var. Ən əsası isə sənəd Ermənistanın hərbi məqsədlər naminə Vaşinqton tərəfindən maliyyələşdirilməsinin qanuniləşməsini nəzərdə tutur. Göründüyü kimi, Menendez öz komitəsinin bir həftə əvvəl ABŞ Dövlət Departamentinin sözçüsü Yuri Kimin də iştirak etdiyi iclasında gündəmə gətirdikləri məqamlar üçün "hüquqi baza" formalaşdırmaq yolunu tutur. Beləliklə, Rusiya ilə yanaşı, Azərbaycana qarşı "Ermənistan qalası" qurmaq niyyəti güdür. Heç şübhəsiz, bu "qaladan" Türkiyəyə qarşı da istifadə məramı var.

Göründüyü kimi, B.Menendezin "qanun layihəsi" son dərəcə təhlükəlidir. İlk baxışdan, düşünmək olar ki, bu layihə ABŞ-ın hazırkı iqtidarının Cənubi Qafqaz maraqlarına daban-dabana ziddir. İlk baxışdan, onu da fikirləşmək mümkündür ki, Menendez kimi şəxslər yalnız öz başlarına hərəkət edirlər. Ancaq, belələrinin xəmirləri erməniperəstliklə yoğrulsa da, onları hərəkətə gətirən qüvvələr var. Bu yerdə yuxarıda səsləndirdiyimiz sualların üzərinə gələk. Daha doğrusu, həmin suallara cavabların.

***

Azərbaycanla Ermənistan arasındakı sülh prosesində vasitəçilik missiyasını öz üzərinə götürmüş Birləşmiş Ştatlar son zamanlar bu missiyaya o qədər də adekvat davranış nümayiş etdirmir. Qarabağdakı antiterror tədbirlərinə qədər Vaşinqtondan səslənmiş bəyanatlar bölgə ermənilərinin hüquq və təhlükəsizliyi amili üzərinə köklənmişdi ki, bu isə rəsmi İrəvanın mövqeyinin qorunması demək idi. Mövcud anlamda Menendez və dostlarının qabartdıqları bəzi məqamlara həssas yanaşılmalıdır. Söhbət Ermənistanın Rusiyaya qarşı açılmış cəbhənin Cənubi Qafqazdakı mühüm aktoru kimi qiymətləndirilməsindən gedir. Yəni, haqqında artıq söz açdığımız "Ermənistan qalası" modelindən.

Xüsusən, son günlər hiss olundu ki, Birləşmiş Ştatlar Administrasiyası məsələyə önəm verir. Ona görə erməni avantürizmi üçün ümid yaradır. Əlbəttə, bu ümid illüziya doğurur. Menendezin məlum "qanun layihəsi" də həmçinin. Deməli, belə nəticəyə gəlmək mümkündür ki, menendezlər heç də təsadüfən ortaya çıxmırlar. Yəni, vurğuladığımız kimi, yağışdan sonrakı göbələklər deyillər. Deməli, ehtimal etmək olar ki, Birləşmiş Ştatlardakı bəzi dairələr ölkəmizə qarşı köhnə taktikadan yararlanmaq istəyirlər. Hesab edirlər ki, hərəkət və davranışları ilə Azərbaycanın mövqeyinə təsir göstərməyi, daha dəqiq desək, Bakının müstəqil siyasi xəttinə zərər vurmağı bacaracaqlar.

Ancaq onların Menendez kimi böyük oyunların kiçik "peşkalarını" ortaya atmazdan əvvəl düşünməli olduqları bəzi məsələlər var. Düşünməlidirlər ki, Azərbaycanı Ermənistana qurban vermək, yaxud hansısa formada ölkələr arasındakı quvvələr nisbətini balanslaşdırmaq məntiqi sülh və etibarlı investisiya mühiti istədikləri Cənubi Qafqazda siyasi akolapsis aqibəti deməkdir. İfadə formasından asılı olmayaraq, erməni avantürizminə dəstək bu aqibəti doğuran amildir. Belə bir durum formalaşdırmaq məqsədi yoxdursa, o zaman Menendezləri oturduqları senator kreslosuna möhkəm-möhkəm bağlasınlar. Ağızlarına da "skoç" vursunlar. Vursunlar ki, belələri üfunət qoxan ağızlarını aça bilməyib sussunlar.

**Əvəz CAHANGİROĞLU**
**XQ**



# Heydər Əliyev dərsləri

**(əvvəli XQ-nin ötən nömrələrində)**

### O, ətrafında olanların girovuna çevrildi

**Müsahibələrinin birində ulu öndər Əbülfəz Elçibəyə münasibətini belə açıqlamışdı:**

O, tamam başqa adamdır. Şərəfli, intizamlı və əgər bilmək istəsəniz, bədbəxt. O, hansısa məqamda ətrafında olanların girovuna çevrildi və bəlkə də, öz iradəsinin əleyhinə olaraq üzərinə ağır bir yük götürdü. Respublikanı idarə etməyə hazır olmadığından bunun nədən ibarət olduğunu aydın təsəvvür etmirdi. Onun bədbəxtliyini mən bunda görürəm. Səmimiyyətinə və abırlı-həyalı olmasına isə heç bir şübhə yoxdur. Əvvəllər taleyimiz yalnız bircə dəfə kəsişib. O, bəlkə də, bu barədə indiyə qədər bilmir. 1975-ci ildə mənə məlumat verdilər ki, Bakıda bir neçə nəfər, necə deyərlər, antisovet ünsür həbs edilib. Onların arasında Əbülfəz Elçibəy də var idi. Mən xahiş etdim ki, bu iş barədə ətraflı informasiya versinlər. Onların heç bir cinayət etmədiyinə əmin olduqdan sonra respublikanın o zamankı DTK rəhbərliyinə məsləhət gördüm ki, məsələni şişirtməsinlər. DTK başçısı məsləhətimə qulaq asdı və bütün bunlar Elçibəy və onun yoldaşları üçün yaxşı nəticələndi. Mən elə indi də Elçibəyə – keçmiş prezidentə hörmət bəsləyirəm. Onun yaşadığı Naxçıvandakı kəndi toxunulmaz zona hesab edirəm. Bir müddət bundan əvvəl Bakıda mənə qarşı sui-qəsd hazırlanmışdı. Təhqiqat zamanı aydınlaşmışdı ki, bu hadisəylə Elçibəyin əmisi oğlu da bağlıdır. Bu adam Elçibəyin Naxçıvanda yaşadığı kəndə qaçmışdı. Mən onu həmin kənddə zorla tutmamağı xahiş etmişdim. İstəmirdim ki, Əbülfəz Elçibəyə rahatsızlıq gətirim.

### "Torpaqlarımızın bir hissəsi ermənilərə necə verilib?"

Tarix boyu Azərbaycan torpaqlarını ələ keçirməyə can atan ermənilər müxtəlif dövrlərdə sovet rejiminin köməyi ilə məkrli məqsədlərinə nail olublar. Bu proseslərin bəzilərinin necə baş verdiyini Heydər Əliyev 1998-ci ilin yanvarında Konstitusiya komissyasının iclasındakı nitqində tarixi faktlarla belə əsaslandırıb:

1968–1969-cu illərdə Ermənistan Azərbaycana qarşı yenə də torpaq iddiaları ilə çıxış edibdir. Onlar Zaqafqaziya Kartoqrafiya İdarəsinin, gərək ki, 1932-ci ildə yaratdığı xəritələrdən o vaxt istifadə etmişdilər. Məlumdur, o vaxt o xəritələri yaradanların da hamısı ermənilər olmuşdular və şübhəsiz ki, həmin xəritələri saxtalaşdırmışdılar. Təəssüf ki, bizim tərəf bu barədə sayıq olmayıbdır. Elə bizim millətimizə zərər vuran xüsusiyyətimiz bir də bundan ibarətdir ki, belə hallarda biz nəinki sayıq olmuruq, çevik də olmuruq. Amma, təəssüf ki, müqabil tərəf bizdən sayıq da, çevik də olur, bəzən bizdən güclü də olur.

Onlar bu xəritələri götürərək, Azərbaycanın cürbəcür hissələrindən, Ermənistanla sərhəd olan hissələrindən torpaqların iddiasına başlamışdılar. Mənim xatirimdədir, o vaxt mən respublikanın rəhbəri deyildim, amma rəhbər vəzifə tuturdum. Respublikanın o vaxtkı rəhbərləri Ermənistanın rəhbərləri ilə bir neçə dəfə görüşlər keçirdilər. 1968-ci ildə bir protokol da imzalanmışdı. O protokol da indi arxivdə var, dünən onu mənə bir də göstərdilər. Ermənilər Naxçıvanın Ermənistanla sərhədində Sədərək rayonunun ərazisindən bir qisim torpaqları, sonra Ordubad tərəfdən Mehri ilə sərhəddə olan torpaqları, Gədəbəy rayonundakı – mənim xatirimdədir, orada bir Tağlar kəndi var idi – Tağlar kəndinə, sonra Qazax, Qubadlı və Laçın rayonlarından bir neçə hissə torpaqlara iddia edirdilər. Təəssüflər olsun ki, Azərbaycanın o vaxtkı rəhbərləri də bununla razılaşmışdılar, protokol da imzalanmışdı. 1969-cu ilin may ayında Azərbaycan Respublikası Ali Sovetinin Rəyasət Heyəti, onun sədri mərhum İsgəndərov fərman imzalamışdı ki, o torpaqlar verilsin. Bunun icrası bir balaca ləngidi. Yaxşı ki, ləngidi. Bilirsiniz ki, 1969-cu ilin iyul ayında mən Azərbaycanın o vaxtkı Mərkəzi Komitəsinin birinci katibi seçildim. İndi mən o günləri xatırlayıram. Bir neçə gün idi ki, işləyirdim, bu məsələni gətirib mənim qarşıma çıxartdılar. Moskvadan da çox böyük təzyiq edirdilər ki, qərar qəbul olunub, tez edin, icrasına sərəncam verin. Dedim, bilirsiniz, bu qərar mayda qəbul olunub, əgər iyul ayına qədər icra edilməyibsə, imkan verin, mən onu bir araşdırım. Şübhəsiz ki, mən araşdırandan sonra gördüm ki, buna razılıq verə bilmərəm. Mən razılıq vermədim. Nə qədər ki, mən Azərbaycanda işlədim, o qərar həyata keçmədi. 1985-ci ildə Ermənistan tərəfi o qərarın həyata keçirilməsinə nail olmuşdur: Yenidən komissiyalar təyin edilmişdi, yenidən protokollar yazılmışdı, həmin o torpaqları, o cümlədən Naxçıvandan bir qisim torpaqları Ermənistana vermişdilər.

### "Mən əməlisaleh adamam"

**Prezident Heydər Əliyev 1994-cü il oktyabr, 1995-ci il mart hadisələri və Azərbaycanda ictimai-siyasi vəziyyətə həsr olunmuş ümumxalq nümayəndələri toplantısında geniş nitq söyləmişdi. Ulu öndər demişdi:**

– Mən dəfələrlə demişəm, bu gün də deyirəm: həyatımın mənasını ancaq xalqa sədaqətlə xidmət etməkdə görürəm. Bu, mənim bu gün də, gələcəkdə də həyatımın mənası olacaqdır. İndiyədək xalq qarşısında etdiyim xidmətlərə görə heç bir mükafat ehtiyacında olmamışam. Mənə heç bir şan-şöhrət də lazım deyildir. Burada bir təklif oldu ki, mənim anadan olan günüm bayram elan edilsin... Keçən il də bir çox təkliflər olmuşdu ki, xidmətlərinə görə Heydər Əliyevə böyük mükafatlar verilsin, adlar verilsin. İndi də belə bir təklif meydana çıxdı. Mən hesab edirəm ki, bunlar ürəkdən gələn sözlərdir. Mən hesab edirəm ki, bu, xalqın dərin hisslərindən doğan sözlər və təkliflərdir. Mən bunlara görə öz minnətdarlıq və təşəkkürümü bildirirəm. Ancaq, eyni zamanda, bir daha bəyan edirəm ki, mənim üçün ən yüksək mükafat bundan sonra da xalqın etimadını doğrultmaqdan ibarətdir.

Dünən də, bu gün də çıxışlarda deyildi, mənim həyatıma terror etmək üçün nə qədər cəhdlər olubdur. Bunun sayı-hesabı itibdir. Bunlar məni heç vaxt qorxutmayıbdır, heç vaxt öz əqidəmdən çəkindirməyibdir, heç vaxt mənim fəaliyyətimə hansısa bir mənfi təsir edə bilməyibdir. Çünki mən çox böyük sınaqlardan keçmiş bir adamam və həyatımı da özümə yox, xalqa həsr etmişəm. Əgər məni öldürmək üçün dəfələrlə cəhd göstərən adamlar öldürə bilməyiblərsə, hətta təyyarəni belə vurub məndən savayı təxminən 80 nəfəri də öldürməyə cəhd göstərərək öz çirkin niyyətlərinə nail olmağa çalışan adamlar buna nail ola bilməyiblərsə, körpünü partladıb tək məni yox, Ukrayna Prezidentini də həlak etmək üçün cəhd göstərərək buna nail ola bilməyiblərsə, güman edirəm ki, bundan sonra da heç bir şeyə nail ola bilməzlər. Lakin bir daha deyirəm, bunlar heç vaxt məni nə qorxudub, nə də narahat edir. Çünki mən neçə dəfə demişəm, bir daha deyirəm: mən əməlisaleh adamam. Məni o böyük Allah indiyə qədər saxlayıbsa, bundan sonra da saxlayacaqdır və inanıram ki, onun izni olmadan heç kəs mənə heç bir şey edə bilməz.

### "Heç yerə qaçmadım?"

**Ümummilli lider 1997-ci il avqustun 27-də Polşaya səfəri çərçivəsində Varşavada fəaliyyət göstərən Azərbaycan icmasının nümayəndələri ilə görüşdü. Həmin görüşdən bir hissəni təqdim edirik:**

**Heydər Əliyev:** Əgər hansısa bir ölkədə kimsə hakimiyyəti ələ alırsa, yaxud onu seçirlərsə, demək, o, xalqın qarşısında məsuliyyət daşıyır. Məsuliyyətini axıra qədər daşımalıdır. 1993-cü ildə mən elə bir ağır vəziyyətdə gəldim. Məni Prezident seçdilər. Həmin Surət Hüseynov, sadəcə olaraq, qaçıb Moskvaya getməmişdi. 1994-cü ilin oktyabrında o, Azərbaycanda yeni bir çevriliş başladı, bunu unutmusunuz?

**Elman Mustafazadə:** Biz onun əleyhinə çıxmışdıq.

**Heydər Əliyev:** Siz əleyhinə çıxdınız-çıxmadınız, bunun əhəmiyyəti yoxdur. İş ondadır ki, mən Surət Hüseynovun o çevrilişinin qarşısını aldım. Surət Hüseynov da ona görə qaçdı və Moskvada olan havadarları onu gizlətdilər. Biz Rəhim Qazıyevi həbs etdik, amma havadarları Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasından onu oğurlayıb Moskvaya apardılar. 1995-ci ilin martında bunlar hamısı–Moskvada Mütəllibov, Azərbaycanda müxalifətdə olan qüvvələr, o cümlədən, Əbülfəz Elçibəyin adamları və müxalifətdə olan başqa adamlar birləşdilər. Bizdə XTPD var idi, ona Rövşən Cavadov başçılıq edirdi, onu qızışdırıb ortaya saldılar ki, hakimiyyəti silahla ələ keçirsin, Prezidentə sui-qəsb etsin və hamısı birləşib yeni bir hakimiyyət yaratsın. Bunlardan sizin xəbəriniz var? Deyəsən yoxdur?

**Elman Mustafazadə:** Az-çox var.

**Heydər Əliyev:** Hə, görürsən, az-çox. Bəs əgər Azərbaycan səni maraqlandırırsa, nə üçün bunu bilmirsən?

**Elman Mustafazadə:** Bunların hamısı bizi sarsıdır.

**Heydər Əliyev:** Təkcə sarsıtmamalıdır, bunları bilməlisiniz. Bəli, 1994-cü ilin oktyabrında Surət Hüseynov və onun dəstəsi Rəhim Qazıyevlə birlikdə böyük bir çevriliş cəhdi etdi. 1995-ci ilin martında isə hamısı birləşdi. Orada Surət Hüseynov da, Rəhim Qazıyev də, Moskvada oturan Mütəllibov da, Xalq Cəhbəsi də, Kələkidə dağda oturan Əbülfəz Elçibəy də və Türkiyənin, Rusiyanın xüsusi xidmət orqanları da var idi. Hamısı birləşdi ki, Azərbaycanı yenidən dağıtsınlar. Ancaq nə o vaxt, nə də 1994-cü ilin oktyabrında mən hakimiyyəti qoyub heç yerə qaçmadım və televiziya ilə bəyan etdim ki, Azərbaycan xalqı qarşısında məsuliyyət daşıyıram. Ya xalqımı qoruyub saxlayacağam, ya da burada həlak olmağa hazıram. Canını qurtarıb qaçmaq böyük bir qəhrəmanlıq deyil, qorxaqlıqdır. Hakimiyyətdə olan adam gərək heç vaxt canı haqqında düşünməsin, xalq haqqında düşünsün və əgər lazım olsa, özünü xalqın yolunda şəhid etsin, qurban versin. Ona görə də Polşada Azərbaycanın həqiqətlərini yaymaq istəyirsinizsə, bax, bunları yayın! Bunları bilmirsinizsə, Azərbaycana gəlin, öyrənin, bunların hamısı Azərbaycanın mətbuatında, televiziyasında var. Bunları edin…

### "Onu dəfələrlə düz yola dəvət etdim"

**1993-cü ildə Surət Hüseynovu baş nazir təyin etdiyinə görə Heydər Əliyevə daxildə və xaricdə irad tutanlar olmuşdu. Ulu öndər bu addımı nə məqsədlə atdığını belə izah etmişdi:**

– O, mənim təqdimatımla baş nazir təsdiq olunmuşdu. Amma siz bunun hansı şəraitdə olduğunu da bilirsiniz. Bu gün mən tam səmimiyyətlə deyə bilərəm ki, o vaxtlar, o şəraitdə – Azərbaycanda artıq vətəndaş müharibəsi baş verdiyi bir zamanda, Azərbaycanı hərə bir tərəfdən parçalamağa cəhd göstərdiyi bir dövrdə mən bu addımı atmışdım və hesab edirəm ki, tamamilə düz iş görmüşdüm. Hərçənd ki, Surət Hüseynov həm biliyinə görə, həm savadına, həm iş təcrübəsinə, həm də başqa keyfiyyətlərinə görə bu vəzifəyə hazır deyildi, bəlkə də yaramırdı. Lakin bütün bunlarla yanaşı, mən həmişə insanlara çox inamla baxıram. Mən onu baş nazir təyin edərkən ona tam səmimiyyətlə yanaşırdım və çox istəyirdim ki, o, burada bir iş görsün, öyrənsin və bu vəzifəni apara bilsin.

Artıq olan olub, keçən keçib. Mən bunun üçün çox böyük cəhdlər, özü də səmimi cəhdlər göstərmişəm. Hərçənd mənə həddindən artıq irad tuturdular ki, necə ola bilər, belə bir adam baş nazir vəzifəsində olsun. Bəzən xaricdən gələn adamlar da deyirdilər ki, biz anlaya bilmirik, – nə cür olur ki, Heydər Əliyev kimi adamın yanında baş nazir vəzifəsində belə bir adam olsun. Amma bu işə mənim münasibətim məhz ondan ibarət idi ki, əgər hər bir adam müəyyən qədər potensiala malikdirsə və eyni zamanda, onun işləmək, öyrənmək qabiliyyəti, bacarığı varsa, bu halda, hər bir işin öhdəsindən gələ bilər. Buna görə də mən çox çalışdım ki, Surət Hüseynov işləsin, məsuliyyət hissi ilə işi öyrənsin və baş nazir kimi öz vəzifəsini yerinə yetirə bilsin.

Ancaq təəssüflər olsun ki, Surət Hüseynov bu yolla getmədi. Elə mən də görürdüm ki, bu yolla getmir. Mən onu dəfələrlə düz yola dəvət etdim. O isə öz xasiyyətini dəyişdirmir, keçmişdə gördüyü işlərdən əl çəkə bilmirdi. Ona görə də Nazirlər Kabinetini bazara döndərmişdi və böyük cinayətkarları gətirib buraya doldurmuşdu. Nəticədə də cinayətlər törədildi və bunlar da, nəhayət, Oktyabr hadisələrinə gətirib çıxartdı, dövlət çevrilişinə cəhd göstərildi. Bu çevriliş cəhdini isə onlar birgə hazırlamışdılar. Bildiyiniz kimi, o vaxtlar mən bu cəhd iştirakçılarının bir hissəsini əfv etdim, bağışladım, amma sonralar onlar da özlərini göstərdilər və cavablarını da aldılar.

### "Burada da böyük bir səhv buraxılıbdır"

**Hələ Sovetlər dövründə Heydər Əliyev Azərbaycan dilinin dövlət dili səviyyəsində tanınması üçün tarixi xidmətlər göstərmişdir. Müstəqilliyin ilk illərində dilimizin necə adlandırılması geniş diskussiyaya, mübahisələrə səbəb olmuşdu. Əvvəlki iqtidarın dövründə bəzən səthi, bəzən subyektiv münasibət bildirilən bu məsələyə ulu öndər millilik baxımından həssas yanaşmağın çox vacib olduğunu vurğulamışdı:**

– 1977–1978-ci illərdə biz yeni konstitusiyanı qəbul edərkən bu məsələ, şübhəsiz ki, əsas məsələlərdən biri idi. Biz yeni konstitusiyada Azərbaycanın dövlət dilinin Azərbaycan dili olması barədə maddə hazırladıq. Qeyd etdiyim kimi, mən həmin konstitusiyanı hazırlayan komissiyanın sədri idim və bu işlərə rəhbərlik edirdim. Ancaq bu maddə Moskvada çox böyük etiraza səbəb oldu. Belə izah edirdilər ki, başqa respublikalarda bu yoxdur, buna ehtiyac yoxdur.

Mən indi sizin vaxtınızı alıb bunların hamısını geniş danışmağa ehtiyac duymuram. Ancaq o vaxt mən Sovetlər İttifaqının rəhbərliyi ilə, Kommunist Partiyasının rəhbərliyi ilə çox gərgin danışıqlar apardım. Sübut etməyə çalışdım ki, biz dövlət dilinin Azərbaycan dili olduğunu öz konstitusiyamıza yazmalıyıq və yazacağıq. Moskvada bir neçə dəfə müzakirələr oldu. Cürbəcür fikirlər səsləndi və həmin fikirlərin əksəriyyəti ondan ibarət idi ki, belə olmamalıdır. Ancaq biz buna nail olduq və 1978-ci ildə, səhv etmirəmsə, aprel ayında biz konstitusiyanı qəbul etdik. Həmin konstitusiyada yazıldı ki, Azərbaycanın dövlət dili Azərbaycan dilidir.

Xatirimdədir, o vaxt başqa respublikanın rəhbərləri ilə kəskin danışıqlarımız oldu. Ukraynanın rəhbəri Şerbitski ilə mənim kəskin danışıqlarım xatirimdədir. O, buna çox etiraz edirdi, belə əsaslandırırdı ki, siz belə yazdığınız halda gərək onda biz də yazaq ki, Ukraynanın dövlət dili Ukrayna dilidir. Mən ona dedim ki, sizə heç kəs mane olmur. Siz bizdən də böyük respublikasınız və Sovetlər İttifaqında sizin xüsusi çəkiniz bizimkindən qat-qat artıqdır. Siz istəsəniz bunu yaza bilərsiniz. Ancaq siz nə üçün bizə mane olursunuz? Mübahisəmiz çox gərgin oldu. Hər halda biz bunu etdik.

***

Milli Məclisdə Azərbaycanın dövlət dili məsələsi müzakirə olunarkən parlament üzvlərindən biri deyib ki, gəlin yazaq "Azərbaycanın dövlət dili Azərbaycan türk dilidir", başqa birisi deyib ki, niyə belə yazırıq. Yazaq ki, "türk dilidir". Mübahisə gedibdir – mən bütün stenoqrama baxmışam. Kim necə çıxış edibsə, hamısı məlumdur. Mən, sadəcə olaraq, demək istəyirəm, indi buna heç ehtiyac da yoxdur, bunun indi əhəmiyyəti yoxdur. Bəlkə kimsə bununla maraqlanır, amma mən hesab edirəm ki, o qədər də maraqlı deyil. Bəli, mübahisə gedibdir. Bir qismi buna etiraz edibdir, bir qismi isə əvvəlki təklifdən də qabağa gedərək deyib ki, yazaq "bizim dilimiz türk dilidir".

Məsələ Milli Məclisdə səsə qoyularkən həmin iclasda Milli Məclisin 50 üzvündən 39-u iştirak edibdir. Onların 26-sı dilimizin türk dili kimi qəbul olunmasına səs verib, 7-si, ya 8-i əleyhinə səs verib, qalanları isə bitərəf olubdur. Beləliklə də dövlət dilimizin adı dəyişilibdir.

Hər bir şey etmək olar, əgər doğrudan da o, həqiqətə və bizim məqsədlərimizə uyğundursa. Ancaq belə məsuliyyətli işləri çox ağıllı, bacarıqlı, eyni zamanda xalqın iradəsinə əsaslanaraq görmək lazımdır...

İndi bu böyüklükdə tarixi bir qərar Azərbaycan xalqının iradəsi nəzərə alınmadan 26 nəfər tərəfindən qəbul olunubdur. Burada da böyük bir səhv buraxılıbdır. Həmin səhv ondan ibarətdir ki, əgər Milli Məclis, doğrudan da, belə bir qərar qəbul etməli olsaydı, həmin qərar qanuna, Konstitusiyaya görə, Məclis üzvlərinin üçdə ikisi tərəfindən səs verildiyi halda qəbul olunmalı idi. Yəni konstitusiya qanunu sadə səs çoxluğu ilə yox, üçdə iki səs çoxluğu ilə qəbul olunmalıdır. Milli Məclisdə bu təklif səslərin üçdə ikisini toplaya bilməyib. 50 deputatdan 26-sı, yəni sadə səs çoxluğu ilə, bir səs üstünlüyünə görə qəbul olunubdur. Burada da konstitusiya qanunu pozularaq, volyuntarizm, özbaşınalıq edilərək belə bir qanunun qəbul olunduğu hesab edilmişdir. Təəssüflər olsun ki, bu işi Milli Məclisin o vaxtkı sədri İsa Qəmbərov və o qrupa məxsus olan deputatlar ediblər. O dövrdə Azərbaycanın Prezidenti olan Elçibəy də bu qanunu imzalayıbdır. Mən yenə deyirəm, bu qanunun mənə və nəticəsini kənara qoyaraq, sadəcə qanunvericilik nöqteyi-nəzərindən, dövlət məsuliyyəti nöqteyi-nəzərindən bu mühüm məsələyə nə qədər məsuliyyətsiz yanaşdıqlarını qeyd etmək istəyirəm.

***

Son vaxtlar, deyəsən, bu layihə dərc olunandan sonra hansısa bir müxalifət qəzetində oxudum ki, "bizim dilimizi vaxtilə Stalin və Mikoyan dəyişiblər, dilimizi Azərbaycan dili onlar adlandırıblar, indi də onların yolu ilə getmək istəyirik". Mən dünən onlara dedim ki, bilirsiniz, bax bunu yazan adamlar – əgər siz bu müzakirədən qaçmısınızsa və hesab edirsinizsə ki, bu, ajiotaj yaradacaq, hesab edirsinizsə elə bu yazılan qəbul olunmalıdır – üç ildən sonra, beş ildən sonra, xüsusən də Heydər Əliyev dünyadan gedəndən sonra götürüb yazacaqlar ki, "Heydər Əliyev Stalin və Mikoyanla birlikdə bizi bu yola gətirdi, yoxsa biz başqa yolla gedəcəydik". Mən bu tarixi məsuliyyətdən qorxmuram. Ancaq mən də araşdırıram. İstəyirəm ki, həqiqəti aydınlaşdıraq. Ona görə də xahiş edirəm ki, mənim bu çıxışımı vəziyyəti aydınlaşdırmaq niyyəti ilə qəbul edəsiniz. Mən bu barədə heç bir fikir söyləmirəm və heç söyləməyəcəyəm də. Mən bu fikri sizin sərəncamınıza verəcəyəm.

**(ardı var)**

***Faiq SADIQOV,***
***Əməkdar jurnalist***

# Şeyxülislam: Azərbaycan-İraq əlaqələrində yeni dövr başlayır

**Sentyabrın 22-də Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə İraq parlamentinin deputatı, Nümayəndələr Palatasının Xarici əlaqələr komitəsinin sədr müavini doktor Cabbar Əl Kənaninin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Şeyxülislam A.Paşazadə Azərbaycanla İraq arasında tarixi köklərə söykənən qardaşlıq münasibətləri barədə danışıb, dini və mənəvi əlaqələrin yüksək səviyyədə olduğunu xüsusi vurğulayıb.

QMİ sədri hələ ötən əsrin 70-ci illərindən başlayaraq İraqa səfərləri, dövlət rəsmiləri, nüfuzlu din alimləri ilə keçirdiyi çoxsaylı görüşlər barədə qonaqlara məlumat verib.

QMİ sədri, həmçinin Azərbaycanın öz ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etmək məqsədilə həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri barədə danışıb, ölkəmizin haqlı mövqeyini dəstəklədiyinə görə İraq dövlətinə və xalqına minnətdarlığını bildirib.

İraq parlamentinin deputatı Cabbar Əli Kənani səfərinin məqsədi, başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizdə keçirdiyi görüşlər barədə məlumat verib.

**XQ**

# AZƏRTAC-ın Sinxua xəbər agentliyi ilə əməkdaşlığı genişlənir



**AZƏRTAC və Çinin Sinxua xəbər agentliyi əməkdaşlığın genişləndirilməsi barədə razılığa gəlib.**

AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyevin Sinxua agentliyinin baş katibi Jinq Ruyuenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşündə ikitərəfli əlaqələrin inkişaf etdirilməsi ilə bağlı məsələlər müzakirə olunub.

Vüqar Əliyev agentliyin fəaliyyəti barədə məlumat verib, Sinxua və Çinin digər KİV-ləri ilə sıx əlaqələrin olduğunu vurğulayıb. AZƏRTAC və Sinxua arasında əməkdaşlığın bu il 20 illiyinin tamam olduğunu diqqətə çatdıran İdarə Heyətinin sədri münasibətlərin yeni səviyyəyə yüksəldilməsinin önəmini qeyd edib.

Sinxua xəbər agentliyinin baş katibi Jing Ruyue iqtisadi mövzuda informasiyaların mübadiləsinin önəmindən danışaraq, AZƏRTAC ilə bu sahədə əməkdaşlığı şaxələndirmək niyyətini önə çəkib.

Görüşdə, həmçinin iki agentlik arasında foto və video mübadiləsi, beynəlxalq informasiya platformalarında, o cümlədən AZƏRTAC-ın da həmtəsisçisi və üzvü olduğu "Bir kəmər, bir yol" İqtisadi İnformasiya Tərəfdaşlığı Platformasında birgə fəaliyyət məsələləri diqqətdə saxlanılıb.

Qonaqlar AZƏRTAC-ın muzeyi, agentliyin binasında jurnalistlər üçün yaradılmış şərait ilə tanış olub, iş prosesini izləyiblər.

**XQ**

KÖŞƏ

# Qərb mediasının antiterror tədbirlərinə qərəzli yanaşması

**Azərbaycanın Qarabağ regionunda 19 sentyabrda başlatdığı lokal xarakterli antiterror tədbirləri dünya KİV-lərinin diqqət mərkəzindədir. Qlobal ictimai rəyə təsir imkanları ilə seçilən BBC, CNN, "France 24", "Reuters", "The Guardian", "The Washington Post", "The New York Times", "Bloomberg", "Al-Jazira", "The Wall Street Journal", "Euronews TV", "Deutsche Welle" , "TRT World" kimi nüfuzlu media qurumları son günlərdə xəbər başlıqlarını bu mövzuya həsr ediblər.**



**Müşfiq ƏLƏSGƏRLİ**
**mushfiq@juhiaz.org**

## Azərbaycan informasiya işini səmərəli qurub

Azərbaycanın rəsmi qurumları da informasiya işini modern tələblərə uyğun qurublar. Azərbaycan Müdafiə Nazirliyinin nəzdində yaradılmış İnformasiya Mərkəzi vasitəsilə yerli və xarici KİV-lərin informasiya təminatı çevik şəkildə ödənilir. Bu mərkəzin brifinqlərində müvafiq dövlət qurumlarının təmsilçiləri ilə jurnalistlərin canlı təmaslarının təşkil edilməsi ciddi nəticə verir. Azərbaycan Prezidenti İlham Əliyevin sosial media platformaları üzərindən paylaşdığı postlar, Prezidentin köməkçisi Hikmət Hacıyevin xarici KİV-lərə verdiyi müsahibələr, diplomatik korpusun nümayəndələri ilə keçirilən operativ görüşlər, Xarici İşlər Nazirliyinin intensiv şəkildə paylaşdığı bəyanatlar transmilli KİV-lərin istinad mənbəyinə çevrilir.

Transmilli KİV-lərin əksəriyyəti mövzu üzərinə bir neçə dəfə dönüş ediblər. Məsələn, "The Washington Post" bir gün ərzində 2 analitik material dərc edib. "Dağlıq Qarabağ münaqişəsi nədir və Azərbaycanla Ermənistan onun üzərində niyə savaşırlar?", həmçinin "Qafqazda daha bir müharibə başladı" başlığı ilə dərc edilmiş 2 məqalədə 19 sentyabr tədbirləri barədə informasiya verilir. O cümlədən, Qarabağ münaqişəsinin kökü təhlil edilir. Münaqişənin səbəblərinə aydınlıq gətirilməsinə cəhd olunur. BBC, CNN, "France 24" və digərləri də mövzuya gün ərzində bir neçə dəfə dönüş ediblər. Onların mövzuya yanaşmaları, baxış istiqamətləri də təəccüblü dərəcədə fərqlidir.

Nazirliyinin və Xarici İşlər Nazirliyinin məlumatlarına istinad edib. Amma elə həmin məqalənin başlığında "antiterror əməliyyatı" ifadəsini dırnaq arasına salmaqla, Azərbaycanın həyata keçirdiyi tədbirləri şübhə altına almağa çalışıb. Antiterror aktı məqalədə "müharibə elanı" kimi təqdim edilir.

"Bloomberg" isə daha da irəli gedib. Qarabağda gerçəkləşdirilən antiterror tədbirləri nəticəsində mülki əhalinin zərər çəkməsi barədə qeyri-real xəbərlər paylaşıb. "Azərbaycan mübahisəli ərazidə ermənilərə qarşı yeni hücuma başlayıb" başlığı ilə paylaşdığı xəbərdə mülki əhalinin zərər çəkməsi iddiasını irəli sürüb. Amma iddiasını əsaslandırmaq üçün heç bir faktı təqdim edə bilməyib. Yeri gəlmişkən, bu iddia bəzi digər transmilli KİV-lərin səhifələrində də görünüb. Bəzi



"Reuters" 19 sentyabrda başladılan antiterror tədbirlərinə yer ayıran KİV-lər sırasında öz operativliyi ilə seçilib. Paylaşdığı ilk informasiyada Azərbaycan Müdafiə Nazirliyinin və Xarici İşlər Nazirliyinin açıqlamalarına istinad edib. Antiterror tədbirlərinin səbəbləri, hədəfləri və gedişatı barədə detallar "Reuters"in paylaşdığı xəbərdə öz əksini tapıb.

Hiss olunur ki, "Reuters" də operativ görünmək üçün 19 sentyabrda mövzu üzrə əlinə düşən ilk xəbəri paylaşıb. Həmin xəbər isə AMN nəzdində yaradılmış İnformasiya Mərkəzinin yaydığı məlumatlardan ibarətdir. Təəssüf ki, "Reuter" öz bitərəfliyini sonadək qoruya bilməyib. Operativ görünmək tələbinə uyğun olaraq, ilk informasiyanı real arqumentlərə əsaslanaraq paylaşıb. Buna rəğmən, xislətindən də əl çəkməyib. Növbəti məqalədə "düzəlişlər" edib.

"Azərbaycan hərbi qüvvələrinin ermənilərin nəzarətində olan Qarabağa zərbələr endirməsi Qafqazda müharibə riskini artırır" başlığı ilə təqdim etdiyi məqalədə erməni şəbəkəsinin yalanlarına da yer ayırıb. Antiterror tədbirlərin Qarabağdakı separatçı rejimi və qeyri-qanuni silahlı qüvvələri hədəf aldığını bilsələr də, bu məqamın üzərindən keçməyə çalışıblar. Separatçı qüvvələrin Ermənistan tərəfindən dəstəklənməsi və antiterror tədbirlərinin də məhz bu səbəbdən başladılması faktını arxa plana keçiriblər. Əvəzində, guya, mülki əhaliyə xəsarətlər yetirilməsi barədə Ermənistan tərəfinin verdiyi informasiyaları qabardıblar.

## "France 24" "dinc sakinlərlə" "separatçı rejim"i qarışıq salır

Eyni tendensiyanı "Deutsche Welle", "France 24", "Bloomberg", "Euronews TV" də davam etdirib. Onlar da mövzu üzrə yaydıqları ilk informasiyalarını Azərbaycanın paylaşdığı məlumatlar əsasında qurublar. Amma sonrakı məqalələrində erməni şəbəkəsinin yalanlarına istinad edilib. Antiterror tədbirlərin mahiyyətini kontekstdən çıxarmağa çalışıblar.

"Deutsche Welle" mövzu üzrə ilk informasiyasını "Azərbaycan Qarabağda "antiterror əməliyyatı" elan edib" başlığı ilə paylaşıb. O da Azərbaycan Müdafiə

KİV-lər "7 nəfəri uşaq olmaqla, 32 nəfər mülki Qarabağ sakininin həlak olması" barədə xəbər yayıblar. Digərləri isə "2 uşaq olmaqla, 27 nəfər mülki şəxsin öldüyünü" yazır.

Belə nümunələrin sayını artırmaq da olar. Amma nəticə birdir. Görünən odur ki, Qərb ölkələrində yerləşən transmilli KİV-lərin mövzuya yanaşmaları əksər hallarda qərəzli və birtərəflidir. Bu baxımdan beynəlxalq KİV-lərin 19 sentyabrda başladılan antiterror əməliyyatlara yanaşmalarını 2 qrup üzrə təsnifatlaşdırmaq olar:

– hadisələrə informativ yanaşanlar, tədbirlər barədə obyektiv, qərəzsiz informasiya yayanlar;

– münaqişədə tərəf sərgiləyənlər, qeyri-obyektiv, qərəzli davrananlar.

## KİV-lər jurnalistika prinsiplərini pozublar

Müşahidələr göstərir ki, əksər transmilli KİV-lər öz fəaliyyətlərində jurnalistika prinsiplərinə deyil, ərazisində yerləşdikləri dövlətlərin siyasi maraqlarına söykənirlər. Fransa ərazisindəki transmilli KİV-lər bu baxımdan öndə gedir. "Euronews"un Fransa xidməti, "France 24" TV, "Le Fiqaro" qəzeti Makron hökumətinin ruporuna çevriliblər. Fransa prezidentinin Qarabağ mövzusuna yanaşmasında görünən qeyri-sabit, qərəzli münasibət eyni şəkildə qeyd edilən KİV-lərin fəaliyyətində də təzahür edir.

Həmin KİV-lər Azərbaycanla bağlı prosesləri birtərəfli qaydada və qərəzli şəkildə yayımlayırlar. Sentyabrın 19-da 7 nəfər Azərbaycan vətəndaşının mina qurbanına çevrilməsi faktının üzərindən onlar sükutla keçirlər. Son 3 il müddətində Qarabağ regionunda 304 nəfərdən çox insanın mina təxribatlarına qurban getməsi faktına toxunmurlar. Bu təxribatların Ermənistana bağlı olan silahlı birləşmələr tərəfindən törədilməsi faktını gizlədirlər. Azərbaycanın suveren ərazisində yenidən separatçı rejim qurulmasına cəhd göstərilməsi barədə faktlara laqeyd yanaşırlar.

Ümid edirik ki, Qərb mediası özü tərəfindən hazırlanmış prinsiplərə əməl etmək haqqında düşünəcək.

# ABŞ Prokurorluğunun Bob Menendezə qarşı korrupsiya ittihamı

**ABŞ-nin Nyu-York Cənub Dairəsi üzrə prokurorluğu ermənipərəst demokrat senator Bob Menendezə və onun həyat yoldaşı Nadin Arslanyana qarşı korrupsiya ittihamı ilə bağlı mətbuat konfransı keçirib.**

Həmçinin Menendez və həyat yoldaşı demokrat senatora təsir göstərmək müqabilində yüzminlərlə dollar dəyərində rüşvət almaqda ittiham olunur.

Prokurorluğun iddiasına görə, rüşvətlərə qızıl külçələr, nağd pul, ev ipotekası ödənişləri, Yarımçıq iş günü və ya işdən kənarda olmağa görə kompensasiya və dəbdəbəli avtomobil daxil olub.

Həmçinin onun həyat yoldaşı Nadin Arslanyan və Nyu-Cersidən olan üç iş adamı əvvəlcədən əlbir olaraq bu işlərdə iştirak etməkdə ittiham olunur. Bu şəxslər Menendezin ABŞ senatoru kimi səlahiyyətindən şəxsi maraqlar və Misirin xeyrinə, daha doğrusu, ABŞ-yə halal ət tədarükündə inhisarı əldə saxlamaq üçün istifadə etmək səylərini koordinasiya etməkdə ittiham olunur.

Prokurorluqdan Menendezin evində və onun bank qutusunda aparılan axtarışlar zamanı üzərində Menendezin adı yazılmış pencəklərin içərisindəki zərflər də daxil olmaqla, təxminən 500 min dollar pul tapılıb. Prokurorluq iddia edir ki, zərflərin bəzilərində senatorun rüşvət almaqda ittiham olunduğu iş adamlarından birinin barmaq izləri və ya DNT-si olub.

Qeyd edək ki, daha əvvəl Menendez korrupsiyada ittiham olunsa da, bəraət qazanmışdı.

**XQ**

# FHN Qarabağda çadırlar qurub

**Azərbaycanın Fövqəladə Hallar Nazirliyi Qarabağ bölgəsinin erməniəsilli əhalisi üçün 1000 yerlik çadırlar qurub.**



XQ xəbər verir ki, fotolarda erməniəsilli sakinlərin çadırlardan istifadə etdiyi əks olunub.

Məlumata görə, çadırlar Kəlbəcər, Füzuli və Ağdam rayonlarında yerləşdirilib. Sakinlərə xidməti polis əməkdaşları göstərib.

**XQ**

# Azərbaycan DİN: Xankəndi şəhərində qəsdən yanğınlar törədilir

**Qarabağ iqtisadi rayonunda keçirilən lokal xarakterli antiterror tədbirləri uğurla başa çatdıqdan sonra bütün ərazilər tam nəzarətə götürülməklə müşahidələr aparılır.**



Daxili İşlər və Müdafiə nazirliklərinin əməkdaşları tərəfindən bölgədə hüquq qaydasının təmini istiqamətində kompleks tədbirlər görülür, müvafiq postlar quraşdırılmaqla xidmət təşkil edilib.

Müşahidə olunur ki, əsasən Azərbaycanın Xankəndi şəhərində qarşı tərəf qəsdən yanğınlar törədir, müxtəlif inzibati binalarda sənədlərin, maddi sübutların, arxivlərin məhv edilməsi prosesini həyata keçirir.

Azərbaycan Respublikasının müvafiq dövlət qurumları bölgədə mövcud vəziyyətə tam nəzarət edir, erməniəsilli vətəndaşlarımıza humanitar köməkliklər göstərirlər, daxil olan müraciətlərə etinasız yanaşmırlar.

**XQ**

# Separatçılardan götürülmüş qənimətlər

**Azərbaycan Müdafiə Nazirliyi Qarabağ bölgəsində məğlub edilmiş qanunsuz silahlı dəstələrdən götürülmüş döyüş texnikası, silah və sursatla bağlı foto və video paylaşıb.**

**XQ**



# Bakı Limanı Xəzərdən dünyaya böyük qapıdır

## Yarım ildə buradan 4,1 milyon ton yük aşırılıb

**(əvvəli 1-ci səhifədə)**

Bakı Limanının fəaliyyət istiqamətindən danışarkən sözügedən infrastrukturun İtaliyanın da diqqət mərkəzində olduğunu deyə bilərik. Aralıq dənizinin ən böyük limanlarından biri olan İtaliyanın "Trieste" limanının baş direktoru Zeno D'Aqostino bir müddət bundan əvvəl respublikamıza səfər zamanı Azərbaycan və İtaliya limanları arasında yeni əməkdaşlıq imkanları araşdırılıb. Zeno D'Aqostino limanın əməliyyat qrupu ilə görüşüb, ərazinin əməliyyat imkanları ilə tanış olub.



Görüşdə, eyni zamanda, Orta Dəhliz vasitəsilə Bakı limanından keçməklə göndəriləcək yük həcminin artırılması məsələsi ətrafında geniş müzakirə aparılıb. Həmçinin Bakı və "Trieste" limanları arasında beynəlxalq yükdaşımalarda əhəmiyyətli paya malik logistika şirkətləri tərəfindən qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinin əsas məqsədlərdən biri olması da vurğulanıb.

Zeno D'Aqostino ilə söhbət zamanı Bakı limanının genişləndirilməsi strategiyasına da toxunulub. Xəzər dənizinin ən müasir limanlarından sayılan və Orta Dəhlizdə mühüm strateji paya sahib olan Bakı limanı bu dəhlizi gücləndirməyə və sürətləndirməyə kömək edə biləcək Avropa limanları ilə əməkdaşlıq etməklə öz fəaliyyətini genişləndirməyə çalışdığı bildirilib.

Beləliklə, İtaliya ilə potensial tərəfdaşlıq hər iki limanın mövqelərini gücləndirə, iqtisadiyyat və logistika sahəsində Azərbaycanla yanaşı, region ölkələrinə da fayda gətirə bilər. Çünki Mərkəzi və Şərqi Avropaya giriş qapısı kimi strateji məkana sahiblik edən "Trieste" limanı illik 60 milyon tondan çox mal dövriyyəsi ilə İtaliya və Aralıq dənizinin ən böyük limanlarından biridir.

Bu yaxınlarda Bakı Limanı ilə "Qazaxıstan Dəmir Yolu" Milli Şirkəti arasında da əməkdaşlıq barəsində memorandum imzalanıb. Bu sənədə əsasən, Asiya–Avropa transkontinental marşrutlar üzrə multimodal daşımaların daha da artırılması, nəqliyyat və logistika sahəsində innovativ həllərin tətbiq edilməsi ilə sürətli yükdaşımalarının artırılmasında qarşılıqlı işgüzar əməkdaşlığın inkişafı məsələləri barəsində bir sıra razılıqlar əldə olunub.

Bakı Limanı uğurlu ikitərəfli münasibətlər qurmaqla yanaşı, bir sıra beynəlxalq təşkilatların da fəal üzvüdür. Bakıda böyük müvəffəqiyyətlə təşkil olunan "IAPH– 2018" Dünya Limanlar Konfransında beynəlxalq arenada limanın tərəfdaşlıq və dayanıqlılığa sadiqliyinin qlobal iqtisadiyyatın gələcək inkişafına töhfə verəcəyi bir daha vurğulanıb.

Bakı limanı hazırda böyük yük axınlarına və Çin–Avropa arasında daşımalara hazırlaşır. Buna görə də tezliklə adıçəkilən infrastrukturda tikinti layihələrinin ikinci fazasının həyata keçirilməsi nəzərdə tutulur. Bu mərhələdə limanın konteyner aşırma gücünün 400 min TEU artırılaraq 500 min TEU-ya çatdırılacağı planlaşdırılır. Bundan əlavə, burada digər yük terminallarının da qurulacağı diqqət mərkəzində saxlanılır.

Hazırda Ələtdə liman kompleksinin tikintisinin birinci fazasına daxil edilən bərə terminalı, ümumi, "Ro-Ro", xidmət körpüləri, dəmiryolu xətləri, inzibati bina, gömrük məntəqəsi, açıq saxlama sahəsi, anbarlar, konteyner meydançası, körpülərə dəmir və avtomobil yolu yanaşmaları, ağır yüklərin yerləşmə sahəsi və yük maşınlarının dayanacağı yaradılır.

Xatırladaq ki, Bakı Limanı Ələtdə iki əsas nəqliyyat dəhlizinin– Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin kəsişməsində yerləşir. Limanın inkişafı 2 mərhələ üzrədir. 2019-cu ildə birinci mərhələnin inkişafı başa çatdırılıb və sonra burada ümumi yükaşırma imkanı artırılaraq 15 milyon ton ümumi yükə və 100 min konteynerə çatdırılıb.

*Vaqif BAYRAMOV*
*XQ*

### Ekspert rəyi

**Vəkil HÜSEYNOV,
iqtisadçı-ekspert**



Bu gün Bakı Limanı "yaşıl liman" və logistika mərkəzi kimi inkişaf etdirilir. Burada Avropa İttifaqının ekoloji, iqtisadi və sosial təminatlarla bağlı yeni strategiyasına uyğun olaraq ən son texnologiya və ekoloji standartlar tətbiq edilir. Bu məqsədlə limanda Xəzər hövzəsində neftlə və məişət tullantıları ilə çirklənmiş suları təmizləyən qurğular quraşdırılır.

İkinci mərhələdə isə liman kompleksinin tamamilə başa çatdırılması ilə ümumi yükaşırma imkanı artaraq 25 milyon tona və 500 min TEU konteynerə çatdırılacaq. Limanın konteyner aşırma qabiliyyətinin artırılması isə Orta Dəhlizə daha çox yüklərin cəlb edilməsinə imkan verəcək. Nəticədə qarşıdakı 10 ildə Orta Dəhliz Şərqlə Qərbi birləşdirən əsas infrastruktura çevriləcək. Ekspertlərin fikrincə, bu müddətdə sözügedən liman, həm də tam dayanıqlı "yaşıl dəhliz" kimi fəaliyyət göstərəcək. Mütəxəssislərin təxmini hesablamalarına görə, Bakı Limanının ikinci fazası çərçivəsində tikinti işləri təqribən 3 il çəkəcək.

Limanın hazırkı fəaliyyətindən danışarkən bu infrastrukturun iqtisadi göstəricilərinə də diqqət yetirək. Ötən il infrastrukturdan aşırılmış yüklərin 53 faizi Türkmənistan limanları hesabına gerçəkləşib və ümumi həcm 3 milyon 359 min tona çatıb. Qazaxıstan limanları ilə dövriyyə isə 2 milyon 382 min 956 ton olub. Bu göstərici ümumi dövriyyənin 38 faizini təşkil edib.

Beləliklə, Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat qovşaqlarının kəsişməsində yerləşən, yüksək texniki imkanlara malik, əməliyyatlar sahəsində nümunəvi rəqəmsal və "yaşıl həllər" tətbiq olunduğu Bakı Limanının yükaşırma həcmi hər il artır. 2023-cü ilin yanvar-iyul aylarında limanla yükdaşımalar 14 faiz və ya 500 min ton artaraq 3,6 milyon tondan 4,1 milyon tona yüksəlib. Eyni zamanda, dünyada formalaşan yeni reallıqlar fonunda tranzit ölkə kimi Azərbaycana böyük tələb formalaşıb və bu amil ölkəmizin ən böyük dəniz qapısı, logistika mərkəzi olan Bakı Limanına cəlb edilən yüklərin həcmini sürətlə artırıb.



# Bu il dövlət əmlakının özəlləşdirilməsi sürətlənib

## 8 ayda bu fəaliyyətdən büdcəyə 89 milyon manat daxil olub

**Bu ilin yanvar-avqust ayları ərzində ölkədə 40 özəlləşdirmə hərracı keçirilib. Həmin hərraclarda 9 səhmdar cəmiyyətinin səhm paketi, 13 kiçik dövlət müəssisəsi, 3 yarımçıq tikili sahəsi və 361 nəqliyyat vasitəsi özəlləşdirilib. İlin əvvəlindən hərraca çıxarılmış dövlət əmlakı üzrə 195 elektron sifariş qəbul edilib, hərraclarda iştirak etmək məqsədilə "Elektron hərrac" proqram təminatı vasitəsilə 40 onlayn qoşulma reallaşıb.**

Əmlak Məsələləri Dövlət Xidmətinin məlumatına görə, cari ilin 8 ayında özəlləşdirmədən dövlət büdcəsinə daxilolmalar 89,2 milyon manat təşkil edib ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,3 dəfə çoxdur. Cari ilin əvvəllərindən başlayaraq daşınmaz dövlət əmlakının icarəyə verilməsi sahəsində də mühüm tədbirlər həyata keçirilib. Əmlak Məsələləri Dövlət Xidmətinin məlumatında bildirilir ki, yanvar-avqust ayları ərzində 2161 yeni icarə müqaviləsi bağlanılıb. Həmin müqavilələrin 541-i qeyri-yaşayış, 1620-si isə torpaq sahələrinə dair olub. Hesabat dövründə daşınmaz dövlət əmlakının (qeyri-yaşayış və torpaq sahələrinin) icarəsindən dövlət büdcəsinə 21,8 milyon manat vəsaitin ödənilməsi təmin olunub. İcarədən daxilolmalar ötən ilin eyni dövrü ilə müqayisədə 1,3 dəfə artıb. Bütövlükdə isə, 2023-cü ilin yanvar-avqust ayları ərzində dövlət əmlakının özəlləşdirilməsindən və icarəyə verilməsindən büdcəyə 111 milyon manat vəsait daxil olub.

Qeyd edək ki, ötən əsrin 90-cı illərinin ortalarından başlayaraq Azərbaycanda bazar iqtisadiyyatına keçidin sürətləndirilməsi məqsədilə dövlət əmlakının özəlləşdirilməsinə başlanılıb. 1997-ci ildən bəri həyata keçirilən kütləvi özəlləşdirmə proqramının isə əsas istiqamətlərindən biri orta və iri müəssisələrin özəlləşdirilməsi olub.

Ötən müddətdə ölkəmizdə xidmət, iaşə, ticarət və s. sahələrə aid 50 minə yaxın kiçik dövlət müəssisə və obyekti özəlləşdirilib. Bu proses zamanı orta və iri dövlət müəssiələrinin bazasında 1570-dən artıq səhmdar cəmiyyəti yardılıb. Ötən dövr ərzində onların 1476-sı və ya 94 faizi tamamilə özəlləşdirilib. Artıq dövlət payı qalmayan həmin səhmdar cəmiyyətləri tamamilə özəl bölmənin idarəçiliyinə keçib. Əmlak Məsələləri Dövlət Xidmətinin məlumatına görə, Azərbaycanda müəssisə və obyektlərin özəlləşdirilməsindən dövlət büdcəsinə, təxminən, 1 milyard manat vəsait daxil olub. Həmin vəsait isə ölkənin sosial-iqtisadi problemlərinin həllinə yönəldilib.

Özəlləşdirmə prosesində obyektivliyin və şəffaflığın təmin olunması məqsədilə ölkədə investisiya müsabiqələri keçirilib. Ötən müddətdə ölkədə 100-ə yaxın dövlət müəssisə və obyekti investisiya müsabiqələri vasitəsilə özəlləşdirilib. Bu isə müəssisələrin və cəlb edilmiş investorların fəaliyyəti üçün əlverişli şərait yaradıb. İnvestisiya müsabiqələrinin qalibləri tərəfindən həmin müəssisələrdə istehsal fəaliyyətinin bərpası, iş yerlərinin açılması, yeni texnologiyaların və idarəetmə təcrübəsinin tətbiqinə indiyədək 1 milyard manatdan çox investisiya qoyulub.

Əmlak Məsələləri Dövlət Xidmətinin rəhbəri Mətin Eynullayevin sözlərinə görə, investisiya müsabiqəsi yolu ilə özəlləşdirilmiş dövlət müəssisələrinin fəaliyyətində özəlləşdirmədən sonra əsaslı dönüş yaranıb, müəssisələrin istehsal ahəngi bərpa edilib, zəruri investisiyalar cəlb olunub. Bunun da nəticəsində bazar iqtisadi münasibətləri və sərbəst istehsal fəaliyyəti əsasında çalışan həmin müəssisələrdə rəqabət qabiliyyətli istehsal-texniki və istehlak təyinatlı məhsulların buraxılmasına nail olunub.

Bir məqamı da qeyd edək ki, vaxtilə özəlləşdirilmiş müəssisələr iqtisadiyyatımızın bütün sahələrini əhatə edib. Bunlara sənaye, kənd təsərrüfatı, turizm, bankçılıq, rabitə, nəqliyyat və digər sahələrdə rast gəlmək olar. Hazırda özəl sektorun aparıcı istehsal və xidmət sahələrindən sayılan "Qaradağ Sement", "Bakıelektroqaynaq", "Siyəzən Broyler", "Dəvəçi Broyler", "Gəncə Şərab-2", "Hilton" otel, "Alov Qülləri", "Həyat Recensi", "Azərcell" və " Bakcell" birgə müəssisələri, ölkənin ikinci böyük bankı sayılan "Kapitalbank" və s. uğurlu fəaliyyəti ilə seçilir.

Bütövlükdə isə, son illər Azərbaycanda reallaşdırılan özəlləşdirmə siyasətinin nəticəsi olaraq bazar iqtisadi münasibətlərinə uyğun fəaliyyət göstərən tikinti, çörək istehsalı, şərabçılıq, quşçuluq müəssisələri, eləcə də çoxsaylı xidmət sahələri ölkənin daxili istehsalında mühüm yer tuturlar. İndi həmin müəssisələrdə 100 minlərlə insan çalışır. Bununla belə, hazırda bu sahədə bir sıra narahatedici hallara da rast gəlmək mümkündür. Belə ki, ölkədə indiyədək özəlləşdirilmiş səhmdar cəmiyyətlərindən yalnız 30 faizi, yəni hər 3 müəssisədən biri aktiv fəaliyyət göstərir. Hazırda 230 səhmdar cəmiyyətinin yalnız öz əmlakını və ərazisini icarəyə verməklə passiv fəaliyyəti müşahidə olunur. Özəlləşdirilmiş müəssisələrin 812-si və ya 55 faizi isə fəaliyyətini tamamilə dayandırıb. Bütün bunlar ölkədə əlavə dəyərin yaradılmasına və məşğulluğun təmin olunmasına əngəl törədir.

Əmlak Məsələləri Dövlət Xidmətindən aldığımız məlumata əsasən, hazırda ölkə üzrə 90 səhmdar cəmiyyətində dövlətin payı var. Bunların yalnız 23-də nəzarət zərfi (səhmlərin 51 faizindən çoxu) dövlətdədir. 67 səhmdar cəmiyyətində isə səhmlərin yalnız 30 faizi dövlətə məxsusdur. Həmin müəssisələrdə dövlətin payının özəlləşdirilməsi ilə bağlı müxtəlif çətinliklər, qeyri-müəyyənliklər var. Belə ki, səhmdar cəmiyyətinin yerləşdiyi ərazidən gələcəkdə böyük yol nəqliyyat infrastrukturu keçə bilər. Yaxud da Bakı şəhərinin Baş Planına əsasən həmin ərazidə hər hansı bir müəssisənin olması mümkünsüz hesab edilə bilər və s.

Mətin Eynullayev qeyd edib ki, belə vəziyyətdə müəssisəni özəlləşdirib, sonra isə onun yeni sahibi ilə köçürülmə sahəsində problem yaranmaması üçün, hələlik, hökumət bu müəssisələrin tam özəlləşdirilməsini dayandırıb. O, həmçinin bildirib ki, qismən özəlləşdirilmiş səhmdar cəmiyyətlərinin səhmləri isə hərraclar vasitəsilə mütəmadi satışa çıxarılır.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin iqtisadi potensialının hərəkətə gətirilməsi istiqamətində də mühüm tədbirlər həyata keçirilir. Artıq həmin ərazilərdə əmlakların inventarizasiyasına başlanılıb. Əmlak Məsələləri Dövlət Xidmətinin sədri bildirib ki, hazırda işğaldan azad edilən ərazilərdə torpaq tədqiqatları aparılır, əmlak inventarizasiya edilir və dəymiş ziyanın məbləği müəyyənləşdirilir. Onun sözlərinə görə, indiyədək Laçın şəhəri və ətraf kəndlərdə 1500-ə yaxın əmlak inventarizasiya edilib. Bütövlükdə isə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə indiyədək 14 mindən artıq əmlak inventarizasiya edilib.

*Mirbağır YAQUBZADƏ*
*XQ*



## Buğda, düyü və qarğıdalı idxalında artım

**Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, yanvar-sentyabr aylarında 668 min ton buğda idxal edilib. İdxal edilən buğdanın dəyəri 183,5 milyon dollar olub. 2022-ci ilin eyni dövründə məbləği 193 milyon dollar olmaqla 539 min ton buğda idxal edilib.**

Hesabat dövründə düyü idxalı da artıb. Belə ki, ötən 8 ayda dəyəri 37 milyon dollar olan 41 min ton düyü idxal edilib. 2022-ci ilin eyni dövründə isə 41 min ton düyü idxalı həyata keçirilib. İdxal edilən düyünün dəyəri 34,8 milyon dollar olub.

Qarğıdalı idxalında da artım nəzərə çarpıb. Bu müddətdə 19,2 milyon dollarlıq 65,3 min ton qarğıdalı idxal olunub. Ötən ilin eyni dövründə isə məbləği 18 milyon dollar olan 51,6 min ton qarğıdalı idxal edilib.

*XQ*

# Sinqapur şirkəti ölkəmizin "yaşıl enerji" şəbəkəsində

**Sinqapurun "Trafigura Pte Ltd" şirkəti ilə İqtisadiyyat Nazirliyi arasında Anlaşma Memorandumu imzalanıb. Sənəddə bərpaolunan və "yaşıl enerji", dekarbonizasiya, alüminium istehsalı kimi istiqamətlərdə əməkdaşlıq məsələləri nəzərdə tutulub.**

İqtisadiyyat naziri Mikayıl Cabbarov və SOCAR prezidenti Rövşən Nəcəfin energetika, xammal və əlvan metal sahələrində fəaliyyət göstərən "Trafigura Pte Ltd" şirkətinin baş icraçı direktoru və sədri Ceremi Veir ilə görüşlərində isə ölkəmizin əlverişli biznes və investisiya mühiti, özəl sektor üçün yaradılan imkanlar qeyd olunub.

İqtisadiyyat naziri çıxışında qlobal çağırışlara uyğun olaraq, təmiz ətraf mühit və "yaşıl enerji" ölkəsinə çevrilmənin respublikamızda əsas prioritetlərdən biri olduğunu diqqətə çatdırıb. O, eyni zamanda, enerjidən səmərəli istifadə olunması və yeni dayanıqlı enerji mənbələrinin yaradılması istiqamətində həyata keçirilən layihələr, onların icra vəziyyəti barədə məlumat verib. M.Cabbarov, həmçinin "Trafigura Pte Ltd" şirkəti ilə əməkdaşlıq əlaqələrinin qurulmasının bərpaolunan enerji, hasilat və alüminium istehsalı sahəsində Sinqapur təcrübəsinin tətbiqi baxımından əhəmiyyətini vurğulayıb.



Qeyd edək ki, Sinqapurun "Trafigura" şirkəti energetika, xammal və əlvan metal ticarəti ilə məşğul olan qlobal miqyaslı şirkətlərdən biridir. İllik dövriyyəsi 300 milyard ABŞ dollarından çox olan şirkət dünyanın bir sıra ölkələrində 60-dan çox ofisə malikdir.

*XQ*

# İllik ÜDM-in həcmi 119, 6 milyard manat proqnozlaşdırılır

***Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanmış 2024-cü il və sonrakı üç il üzrə baza ssenaridə (neftin bir barelinin orta illik ixrac qiyməti 2024-2027-ci illər üçün 60 ABŞ dolları fərz edilməklə) makroiqtisadi proqnoz göstəricilərinə əsasən, 2023-cü ildə ölkədə ÜDM-in real ifadədə 1,9 faiz artaraq 119,6 milyard manat təşkil edəcək.***

Bu barədə Maliyyə Nazirliyinin hazırladığı "2024-cü ilin dövlət və icmal büdcələrinin ilkin göstəricilərinə dair Açıqlama" sənədində bildirilib. Sənəddə qeyri- neft/qaz ÜDM-i real ifadədə 4 faiz artaraq 77,6 milyard manat təşkil edəcəyi proqnozlaşdırılır. 2023-cü ildə isə neft-qaz sektoru üzrə ÜDM-in real ifadədə 0,3% azalacağı gözlənilir.




*XQ*

# “Əsrin müqaviləsi”ndən tarixi Zəfərimizə





**Tovuz Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş “Əsrin müqaviləsi” tarixi zəfərimizə gedən yolun başlanğıcıdır” mövzusunda tədbir keçirilmişdir.**

Nizami adına Mədəniyyət evində təşkil olunan tədbirdən əvvəl Ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunmuş, önünə gül dəstələri düzülmüşdür.

Dövlət himni səsləndirildikdən sonra “Əsrin müqaviləsi”nə və Azərbaycanın neft sənayesinin inkişafına həsr edilmiş sənədli film nümayiş etdirilmişdir.

Tədbiri giriş sözü ilə açan Tovuz RİH başçısı Məmməd Məmmədov demişdir ki, 29 il bundan qabaq, 1994-cü il sentyabr ayının 20-də Heydər Əliyevin böyük uzaqgörənliyi nəticəsində Bakıda Azərbaycan və dünyanın 8 müxtəlif ölkəsini təmsil edən 13 məşhur neft şirkəti arasında “Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının dərinliklərində yerləşən hissəsinin birgə işlənməsi və hasil olunan neftin pay şəkilində bölüşdürülməsi” haqqında saziş – “Əsrin müqaviləsi” imzalandı. Bu il 100 illik yubileyini qeyd etdiyimiz Ümummilli lider Heydər Əliyevin “Əsrin müqaviləsi”-nin bağlanmasında misilsiz xidmətləri vardır.

Xalqın iradəsi, çağırışı və təkidi ilə 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qaydışı Azərbaycanın siyasi və iqtisadi həyatında taleyüklü dəyişikliklərin başlanğıcını qoydu. Dövlətimizi labüd fəlakətdən xilas edən dahi rəhbər Azərbaycanı siyasi və iqtisadi böhrandan çıxarmaq üçün öz ideyalarını həyata keçirməyə başladı. Ulu öndərin böyük uzaqgörənliklə dediyi bu sözlər gerçəkliyə çevrilir: “Əsrin müqaviləsi” ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır. İnanıram ki, XXI əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaqdır”. Hazırda ölkəmiz Ulu öndərin qeyd etdiyi bu xoşbəxt dövrü yaşamaqdadır.

Daha sonra tədbirdə çıxış edən Milli Məclisin deputatı Arzu Nağıyev, 2 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin sektor müdiri Xəqani Qasımov, Azaflı kənd tam orta məktəbin direktoru Adil Əsgərov, İ. Mürşüdov adına Aşağı Quşçu kənd tam orta məktəbin müəllimi Ulduzə Alıyeva milli sərvətlərimizdən müstəqil dövlətimizin və xalqımızın rifahı naminə istifadə olunması, bu məqsədlə xarici investisiyaların cəlb olunması üçün cəsarətli siyasi addımlar atıldığını bildirdilər. Qeyd olundu ki, Azərbaycan ilk dəfə idi ki, altı ölkəni təmsil edən dünyanın məşhur 10 xarici neft şirkəti ilə belə böyük miqyasda saziş imzalayırdı. Bu saziş Xəzər dənizində beynəlxalq əməkdaşlığın əsasını qoydu, xarici sərmayədarların Azərbaycana axınını sürətləndirdi. "Əsrin müqaviləsi" həm də Azərbaycanda yeni neft-qaz kontraktlarının bağlanmasına güclü təkan verdi.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri,***
***Tovuz rayonu***

# 27 yaşlı şəhidin 30 yaşı

**Azərbaycan Hərb Tarixi Muzeyində Vətən müharibəsinin şəhidi əsgər Bilal Xanlar oğlu Qənbərovun anadan olmasının 30-cu ildönümü ilə bağlı “Şərəfli ömrün sonu!” adlı anım mərasimi keçirilib.**



Toplantıda şəhidin ailə üzvləri, döyüş yoldaşları, Vətən müharibəsi qaziləri, həmçinin Müdafiə Nazirliyinin idarə və müəssisələrinin nümayəndələri, orta təhsil müəssisələrinin tələbə və müəllim heyəti iştirak ediblər.

Muzeyin rəisi Əzizağa Qənizadə bildirib ki, torpaqlarımızın azadlığı uğrunda canından, qanından keçən şəhidlərimiz and yerimiz, qürurumuz, fəxrimizdir. Minlərlə azərbaycanlı gənc torpaqlarımızın işğaldan azad olunması uğrunda qəhrəmanlıqla vuruşub, adlarını tarixə yazdırıblar: “Onlardan biri də Bilal Xanlar oğlu Qənbərovdur. O, müstəqillik illərində qurulmuş Azərbaycan Ordusunun ən vətənpərvər döyüşçülərindən idi. Sentyabrın 27-də düşmənin təxribatları nəticəsində başlanan İkinci Qarabağ müharibəsi zamanı Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün Azərbaycan Silahlı Qüvvələri tərəfindən Cəbrayılın, Hadrutun, Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə ön sıralarda vuruşub. Noyabrın 4-də Bilal Qənbərov da Şuşa döyüşləri zamanı 27 yaşında şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılaraq vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq



sərəncamlarına əsasən, Bilal Qənbərov ölümündən sonra “Vətən uğrunda” , “Şuşanın azad olunmasına görə”, “Cəsur döyüşçü” və “Füzulinin azad olunmasına görə” medalları ilə təltif edilib.

Şəhidin ailə üzvləri, döyüş yoldaşları çıxış edərək ürək sözlərini deyib, xatirələrini bölüşüblər.

Mərasimdə Bilal Qənbərova həsr olunmuş “Vətən haqqı” adlı sənədli film nümayiş olunub. Tədbir bədii hissə ilə davam edib.

Yaşasaydı, sentyabrın 29-da Bilal Qənbərov 30 yaşını qeyd edəcəkdi. Şəhidlik zirvəsinə ucalan, əbədi ömür qazanan igid Vətən oğul və qızlarının xatirəsini əziz tutmaq hər birimizin müqəddəs borcudur.

***L.QURBANOVA***
***XQ***

# Qarabağ ölkəmizin ən inkişaf etmiş regionlarından birinə çevriləcək

**(əvvəli 1-ci səhifədə)**

Cari ilin yanvar-iyul aylarında isə ölkədə 70 milyon 372 min manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,7 faiz çox ÜDM istehsal olunub. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 2,2 faiz azalıb, qeyri neft-qaz sektorunda isə 3,4 faiz artıb. Bəs Qarabağın iqtisadi göstəriciləri nə ilə fərqlənib?

Qarabağda 120 min erməninin yaşadığı bildirilsə də, onların sayı 40 min nəfəri keçmir və bu barədə dəqiq siyahı da var. Qeyri-rəsmi statistik məlumata görə, 2022-ci ildə orda ÜDM 288,8 milyard erməni dramı (Ermənistan valyutası) təşkil edib ki, bu da ABŞ dolları ilə (orta illik dramın dollara məzənnəsi ilə) 663 milyon dollara bərabərdir. 2022-ci ildə Qarabağın ÜDM-i 2 il əvvəllə müqayisədə 22,4 faiz, bir il əvvəllə müqayisədə isə 12,7 faiz azaldıqdan sonra real ifadədə 12,2 faiz artıb. Rəqəmlərdən göründüyü kimi, İkinci Qarabağ müharibəsindən sonrakı iqtisadi göstəricilər, müharibədən əvvəlki, 2019-cu ildəki göstəricidən çox uzaqdır.

Həmin dövrün iqtisadi göstəriciləri yüksək olmasa da, son illərdəki göstəricilərdən yaxşı idi. Statistikaya görə, 2019-cu ildə ÜDM 713 milyon dollar olub ki, bu göstəricilər belə, hətta Karib və digər Sakit okean adalarının ÜDM göstəricilərindən də aşağıdır.

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2022-ci ildə Azərbaycanın dollar ekvivalentində ÜDM-i 78,7 milyard, 2023-cü ilin birinci yarısında isə 42,37 milyon dollar təşkil edib. Beləliklə, Qarabağ iqtisadiyyatının tam inteqrasiyası şəraitində Azərbaycanın nominal ÜDM-i cəmi 0,8 faiz artacaq. Burada reallığı tam aydın görmək üçün bir müqayisə aparmaq lazım gələcək. Məsələn, 1965-1987-ci illərdə Azərbaycan SSRİ-nin regionlarında iqtisadi və sosial inkişaf göstəriciləri müqayisə edildiyi zaman aydın olur ki, bu region Azərbaycan SSR sənaye istehsalının 2,3 faizini təmin edirdi. Həmin illərdə DQMV-də sənaye istehsalı ilə məşğul olan 15 yeni təsis istifadəyə verilmişdi. Bundan əlavə adambaşına düşən kənd təsərrüfatı məhsullarına görə də öndə idi. Region Azərbaycan SSR-in 5,1 faiz ərazisini əhatə etsə də, ölkədə istehsal olunan ümumi kənd təsərrüfatı məhsullarının 6 faizini təmin edirdi. Burada xüsusilə üzümçülük və şərabçılıq inkişaf etmişdi. Təbii ki, bu iqtisadi göstəricilərin əldə olunmasında Azərbaycan SSR-in digər rayonları ilə qarşılıqlı əlaqələrinin böyük rolu olmuşdur.



Ümumiyyətlə, bölgə aqrar-sənaye mərkəzinə çevrilmişdi və həyat şəraiti digər regionlarla müqayisədə yüksək idi. Ermənilərə qarşı ölkədə hər hansı ayrı-seçkilikdən və ya diskriminasiyadan söz gedə bilməzdi. Sovet dövründə DQMV-də yaşayış səviyyəsi bütün Azərbaycanın orta yaşayış səviyyəsi ilə müqayisədə daha üstün idi. Bununla belə onlar dəfələrdə imkan yaranan kimi (1945, 1965, 1977 və 1988-ci illərdə) Ermənistana birləşdirilməsi məsələsini ortaya atırdılar.

Beləliklə, ermənilərin yad ölkə torpaqlarını mənimsəmə və orada “dövlət” qurma adəti Azərbaycan torpaqları üzərində davam etsə də, onlar istəklərini doğru-düzgün şəkildə həyata keçirə bilmədilər. Qurduqları “respublika”, əsasən, ianələr hesabına yaşayıb. Müxtəlif illərdə Ermənistan Qarabağın büdcə xərclərinin 50-60 faizini maliyyələşdirib. 2022-ci ildə Ermənistandan verilən “büdcə krediti” 176 milyard dram (404 milyon dollar ekvivalenti) təşkil edib ki, bu da Qarabağ büdcəsi xərclərinin demək olar ki 88 faizini təmin edib.

Xarici yardımlar da az olmayıb. ABŞ “DQR”in əsas sponsorlarından və maddi dəstəkçilərindən biri olub. 1998-ci ildən bəri hər il ABŞ-dan bura önəmli miqdarda xarici yardım ayrılır. Bu yardım humanitar məqsədlər üçün, xüsusilə infrastruktur, kənd təsərrüfatı və tibbi layihələrə xərclənib. Xarici investorlar isə sadəcə bölgənin təbii zənginliklərinin istismarı ilə məşğul olub, insanların həyat şəraitinin yüksəlməsinə hər hansı töhfə verməyib. Ermənilərin sosial vəziyyəti isə hər il pisləşib. Müsbətə doğru heç bir dəyişiklik olmayıb. “Müstəqillik” dövründə əvvəlki illərdə qazanılmış bütün uğurlar itirilib. Bəlkə də sovet dövründəki günlərini çox xatırlayıblar.

Qarabağda iqtisadi aktivlik indeksi də azalıb. 2022-ci ilin dekabrında iqtisadi aktivlik indeksi 21 faiz, 2023-cü ilin ilk aylarında isə orta hesabla 25 faiz (2022-ci ildə 18 faiz artımdan sonra) azalıb. İnflyasiya 8,6 faizə qalxıb. Ötən il ticarət dövriyyəsi 832 milon dollar olub. Bunun 496, 5 milyon dolları idxalın, 335 milyon dolları isə ixracın payına düşüb. Əsas ticarət tərəfdaşı isə Ermənistan idi. Burda yenidən bir nüansa da diqqət yetirmək lazımdır. Əslində isə heç bir dünya dövləti (hətta Ermənistan) tərəfindən rəsmi olaraq tanınmadığı üçün “DQR” xarici dövlətlərlə iqtisadi əlaqələr də qura bilmədi. Burda istehsal olunan məhsullar “Made in Armenia” ştampı ilə ixrac olunurdu.

Regiona xarici yatırımlar olsa da, bunlar qeyri-leqal idi və yatırımların gələcəyini qeyri-müəyyən edirdi. Qarşıdakı illərdə “DQR”də fəaliyyət göstərən xarici şirkətlərin nəinki yatırımları batacaq, həmçinin onlar külli miqdarda ziyan çəkəcəklər.

“DQR”dəki ümumi xarici yatırımların 58,6 faizi Rusiyaya aid olmuş və beləliklə Rusiya burdakı ən böyük investora çevrilmişdir. Bu, xüsusilə Rusiya erməniləri ilə bağlı idi. Qalanları Fransa, ABŞ, Almaniya, Niderland və s. ölkələrə məxsus idi.

Azərbaycan Prezidenti İlham Əliyev 2020-ci ilin yekunlarına dair videoformatda keçirilən müşavirədə qeyd etmişdir ki, Azərbaycanın işğal olunmuş torpaqlarında qeyri-qanuni fəaliyyət ilə məşğul olmuş şirkətlər hüquqi məsuliyyətə cəlb olunacaqlar. Prezident, həmçinin bildirmişdir ki, həmin şirkətlər Azərbaycana vurduqları ziyanı ödəsələr, beynəlxalq məhkəməyə verilməyə də bilərlər. Beləliklə, ehtimal edə bilərik ki, qarşıdakı illərdə “DQR”-də fəaliyyət göstərən xarici şirkətlərin nəinki yatırımları batacaq, həmçinin onlar külli miqdarda ziyan çəkəcəklər.

Bu gün Qarabağ tamamilə yeni reallıqla qarşı-qarşıyadır. Bu yeni reallıq bölgənin müasir sənaye müəssisələrinin və digər sosial-iqtisadi əhəmiyyətli təsislərin qurulması, Azərbaycanın ən inkişaf etmiş regionlarından birinə çevrilməsini nəzərdə tutur. Ermənilər Azərbaycan hakimiyyətini qəbul edərək burada yaradılacaq şəraitdən faydalana biləcəklər. Ermənilər Azərbaycanla müharibəni deyil, iqtisadi əməkdaşlıq etməyin onlara daha faydalı olduğunu anlamalıdırlar. Bunu anlayacaqları gün, həm Qarabağ ermənilərinin, həm də Ermənistanın iqtisadi vəziyyəti və insanlarının həyat şəraiti də yaxşılaşacaqdır.

***Ə.PÜNHAN***
***XQ***

**Füzuli**

# Kəlbəcər də “Yaşıl enerji” zonasına çevrilir

## Rayonda 10 kiçik su elektrik stansiyası qurulur

**İşğaldan azad edilmiş bütün ərazilər kimi, əsrarəngiz təbiəti ilə zəngin olan Kəlbəcər rayonunda da genişmiqyaslı abadlıq-quruculuq işlərinə başlanılıb. Bu müddət ərzində rayonun enerji təminatı ilə bağlı bir sıra işlər görülüb. Artıq bir neçə kiçik su elektrik stansiyaları istifadəyə verilib. Onların arasında “Soyuqbulaq”, “Çıraq-1”, “Çıraq-2” stansiyalarından əlavə, 4,4 meqavatlıq “Kəlbəcər-1”, 6,3 meqavatlıq “Qamışlı” və 3,4 meqavatlıq “Meydan” elektrik stansiyaları da var. Bu onu göstərir ki, Kəlbəcərin zəngin enerji ehtiyatları var. Ölkəmizdə bərpa olunan enerji mənbəyi kimi, ilk növbədə, kiçik su elektrik stansiyalarının tikilməsi və yenidən qurulması prioritet təşkil edir.**



Rayonda istismara verilən ilk enerji istehsalı obyekti olan “Kəlbəcər-1” stansiyası müasir standartlar əsasında qurulub. Lev çayı üzərində inşa olunan stansiya “Yaşıl enerji” zonası konsepsiyasına uyğun olaraq, ekoloji cəhətdən təmiz enerji istehsal edir və Azərbaycanın ümumi enerji sisteminə qoşulub. Rəqəmsal qaydada açılıb-qoşulma, intellektual idarəetmə, operativ monitorinq və təhlil aparılması mümkün olan yeni stansiyanın işinə yalnız Kəlbəcərdən deyil, Bakıdakı Baş İdarəetmə Mərkəzindən də nəzarət və idarə etmək əlçatandır. Stansiyaların idarəetmə sistemi tam avtomatlaşdırılıb, xüsusi proqram təminatı ilə rəqəmsallaşdırılıb ki, bu da istehsal olunan elektrik enerjisinin maya dəyərinin daha da aşağı düşməsinə gətirib çıxarır.

Kəlbəcər rayonunun ərazisindən keçən bol sulu Tərtərçay üzərində isə “Soyuqbulaq” kiçik su elektrik stansiyası yenidən qurulub. Ərazini tərk edən düşmən bu stansiyada bütün avadanlıq və yararlı hissələri aparıb, daşınması mümkün olmayan nə varsa məhv edib. İşğaldan azad edilən ərazilərin “Yaşıl enerji” zonasına çevrilməsi ilə bağlı dövlətimizin başçısının tapşırığına uyğun olaraq, stansiyada Avropa istehsalı olan yaşıl sertifikatlı, 2 müasir ekoturbin, generatorlar, idarəetmə və avtomat panellər quraşdırılıb. Stansiyanın enerjisisteminə inteqrasiyası üçün uzunluğu 6 kilometr olan 6 kV-luq kabel xətti çəkilib və eyni zamanda, optik kabel xətti ilə də əlaqələndirilib. Ərazidə fors-major hallar üçün ehtiyat dizel generatoru da quraşdırılıb.

Daha bir stansiya Tərtərçayın sol qolu olan Meydan çayının üzərində qurulub. 3,4 MVt-lıq kiçik su elektrik stansiyası enerjisistemə inteqrasiya olunmaqla məsafədən idarəetməyə imkan verən mərkəzləşmiş SCADA sisteminə qoşulub. Bununla da stansiyanın idarəetmə sistemi avtomatlaşdırılıb, xüsusi proqram təminatı ilə rəqəmsallaşdırılaraq müasir formaya keçirilib. Eləcə də ərazidə fors-major hallar üçün 45 kVA gücündə ehtiyat dizel generatoru quraşdırılıb. Yenidən qurulan “Meydan” kiçik su elektrik stansiyasında il ərzində 10 milyon kilovat-saat elektrik enerjisi istehsal olunacaq.

Bu il ismara verilən stansiyalardan biri də ermənilərin Kəlbəcəri tərk edərkən dağıtdıqları “Qamışlı” kiçik su elektrik stansiyasıdır. Bu stansiya da daxil olmaqla indiyədək azad edilən ərazilərdə tikilən su elektrik stansiyalarının hər birində derivasiya boruları çayın axını ilə paralel quraşdırılıb. Burada boru ilə axan su da yenidən çaya buraxılır. Bütün yerlərdə, o cümlədən “Qamışlı” stansiyasında da su ehtiyatlarından səmərəli istifadə olunması, daşqınların qarşısının alınması və su itkisinə yol verilməməsi üçün çayın məcrasına uyğun idarəolunan suqəbuledicilər tikilib. Eyni zamanda, təbii mühitin, flora və faunanın qorunması da aidiyyəti dövlət qurumları ilə razılaşdırılmış şəkildə xüsusi diqqətdə saxlanılıb.

İki hidroaqreqatdan ibarət “Qamışlı” stansiyasında 110 kilovoltluq yarımstansiya yaradılıb. Burada enerjisistemə tam inteqrasiya olunmaqla məsafədən idarəetməyə imkan verən mərkəzləşmiş SCADA sistemi qurulub. Stansiyada Avropanın aparıcı şirkətlərinin istehsalı olan müasir hidroturbinlər, generatorlar, idarəetmə, rele mühafizəsi və avtomatika panelləri quraşdırılıb.

“Qamışlı” kiçik su elektrik stansiyasında il ərzində 18,5 milyon kilovat-saat ekoloji cəhətdən təmiz yaşıl hidroenerjinin istehsal edilməsi nəzərdə tutulur.

Xatırladaq ki, 2024-cü ilin birinci rübündə Kəlbəcər rayonunda ümumi gücü 75,5 MVt, illik enerji istehsal potensialı 230 milyon kilovat/saat olan 10 kiçik su elektrik stansiyası mövcud olacaq. Hazırda Kəlbəcər rayonunda 5 yerdə ümumi gücü 48,3 meqavat olan kiçik su elektrik stansiyalarının tikintisi davam edir.

***P.ƏFƏNDİYEV***
***XQ***

Tarixi həqiqət

# Azıx və Tağlar düşərgələri Azərbaycana məxsusdur

## *UNESCO-nun Ümumdünya İrs Komitəsi bu həqiqəti əsas götürməlidir*

**Ötən günlərdə UNESCO-nun Səudiyyə Ərəbistanının Ər-Riyad şəhərində keçirilən Ümumdünya İrs Komitəsinin 45-ci sessiyasında Ermənistan Azərbaycandakı Azıx və Tağlar mağaralarının Dünya İrsi Siyahısına daxil edilməsinə qarşı çıxdı. Azərbaycan Xarici İşlər Nazirliyi müvafiq bəyanatla bu hərəkəti Ermənistanın ölkəmizə qarşı ərazi iddialarını davam etdirməsi adlandırdı.**





Beynəlxalq təşkilatlarda bədnam anti-Azərbaycan fəaliyyətini davam etdirən millətçi və təcavüzkar Ermənistan saxtakarlıqdan çəkinməyərək bu addımı ilə ölkəmizə qarşı daha bir ləyaqətsiz mövqe sərgilədi.

30 illik işğal dövründə Ermənistanın cəhənnəmə döndərdiyi Qarabağda ən qədim tarixi abidələrə üzdəniraq sevgi və canıyananlığının səbəbi məlum idi. Yazılı tarixin o tayındakı yüzminilliklərin, xalq anlayışından uzaq ibtidai cəmiyyət yadigarlarının – Azıx və Tağlar mağaraları kimi ən qədim insan məskənlərinin ermənilərə məxsusluğunu dünyaya sırımaqla düşmən ölkə Qarabağın əzəli sahiblərinin də ermənilər olduğunu sübut etməyə gülünc bir inam bəsləyirdi.

Azərbaycan artıq 3 ildir ki, Qarabağı özünə qaytarıb. Ermənistan rəhbərliyi sözdə Qarabağın Azərbaycana məxsusluğunu qəbul etsə də bu ölkənin millətçi-revanşist ünsürləri müxtəlif yollarla ərazi iddialarını davam etdirir. Bu ölkənin işbaz emissarlarının qeyd edilən “UNESCO həyasızlığı” da bu uğursuz missiyanın növbəti təzahürü oldu. Tarixi həqiqətə elmi-mədəni məntiqlə aydınlıq gətirmək üçün hər iki qədim ibtidai cəmiyyət abidəsinin dünyaca məşhur tədqiqatçısı, AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu daş dövrü arxeologiyası şöbəsinin müdiri, tarix elmləri doktoru, professor Əsədulla Cəfərovla müsahib olduq.

**– Əsədulla müəllim, siz əvvəllər də ermənilərin Qarabağda apardığı arxeoloji ekspansiyanın hüquqazidd və təcavüzkarlıqdan qaynaqlanan cinayət olduğunu müxtəlif səviyyəli çıxışlarınızla dünyaya bəyan etmişdiniz. Qarabağdan rüsvayçılıqla qovulub çıxarılma bu həyasızlığın sonu olmalı idi.**

– Beynəlxalq hüquq, bəşəri əxlaq anlayışının erməni toplumuna dəxli yoxdur. Onlar üçün xam xəyallar, başqasının olana sahiblənmək cəhdi əsasdır. Bu dəyişməz xislətin nəticəsidir ki, bu yaxınlarda erməni “mədəniyyətşünasları” BMT-nin humanitar qurumu olan UNESCO-nun Ümumdünya İrs Komitəsinin iclasında Azərbaycanın təqdimatı ilə Azıx və Tağlar qədim insan düşərgələrinin dünyanın mədəni irs abidələri siyahısına salınmasına qarşı çıxış etmişlər. Bu fikirlərin heç bir hüququ və elmi əsasları yoxdur. Ermənistanın baş naziri özü də beynəlxalq aləmə elan edib ki, Qarabağ Azərbaycana məxsusdur.

Bundan sonra da onların Azıx və Tağlar düşərgələri ilə bağlı düşmən münasibəti təkcə Azərbaycana qarşı deyil, bəşəriyyətin ümumi, ortaq dəyərlərinə etinasızlıqdır. Bu tarixi abidələrin dəyişməz məkanı Azərbaycan olsa da, onların daşıdığı misilsiz dəyər bütün insanlığa məxsusdur. Azıx və Tağlar düşərgələrinin Ümumdünya İrs Siyahısına salınması zərurəti də bununla bağlıdır. Ermənilər yaxşı bilirlər ki, elm aləminə məlum olduğu vaxtdan hər iki abidə Azərbaycan tarixinin tərkibində öyrənilib. Bu mövzunun erməni tarixinə heç bir dəxli yoxdur.

Lakin onlar istəyirlər ki, gələcək təcavüzkar niyyətlərinə əsas yaratmaq üçün Azıx və Tağalar Azərbaycanın tarixi abidələri kimi tanınmasın.

İnanırıq ki, ermənilərin Qarabağda törətdikləri vandallığa göz yuman UNESCO funksionerləri ermənipərəst mövqeyi bir kənara qoyub tarixi-elmi həqiqəti – Azıx və Tağlar paleolit düşərgələrinin Azərbaycana məxsus olmasını təsdiqləyəcək. Bu gün dünyanın istənilən alimi Bakıya gəlib Azıx və Tağlar düşərgələrindən tapılmış maddi-mədəniyyət qalıqları ilə yaxından tanış ola bilər. Hətta bəzi erməni alimləri də 2001-ci ildə çıxış edərək Azıx və Tağlar düşərgələrində Azərbaycan alimlərinin apardıqları tədqiqatların yüksək peşəkarlıqla aparıldığını qeyd etmiş və qanunsuz qazıntılara qarşı çıxmışdılar.

Lakin beyni millətçilik zəhəri ilə pozulmuş bədnam erməni alimləri tariximizi, abidələrimizi saxtalaşdırmağa cəhd göstərirlər. Ona görə də biz bu gün Azıx, Tağlar və digər abidələrimizin tarixinə həsr olunmuş əsərləri dünya xalqlarının dillərində çap edib beynəlxalq ictimaiyyətə çatdırmalıyıq. Bu bizim borcumuzdur.

**– Onda gəlin bu abidələrin tarixindən, onların məhz xalqımıza məxsusluğundan danışaq. Axı bu nadir irsin qanuni sahibləri kimi onu biz aşkar etmişik, öyrənmişik və qorumuşuq.**

– Çoxtəbəqəli Azıx, Tağlar paleolit düşərgələri 1960-cı ilin iyul ayında Azərbaycan SSR Elmlər Akademiyası Tarix İnstitutunun paleolit arxeoloji ekspedisiyasının rəhbəri Məmmədəli Hüseynovun apardığı arxeoloji kəşfiyyat işləri zamanı qeydə alınmışdır. Azıx paleolit düşərgəsi Qarabağın ən mənzərəli və füsunkar guşəsi olan Quruçay vadisində dəniz səviyyəsindən 900 metr yüksəklikdə olub, Füzuli şəhər mərkəzindən 17 kilometr şimal-şərq tərəfdə yerləşir. Tağlar düşərgəsi isə Azıx paleolit düşərgəsindən 3 kilometr aralıda olub, Quruçay vadisinin sol sahilində yerləşir.

Azıx paleolit düşərgəsində arxeoloji tədqiqat işləri 3 mərhələdə aparılmışdır: I mərhələ 1960 –1974, II mərhələ 1975 – 1985, III mərhələ 2001–2005-ci illəri əhatə edib. 1960 – 1974-cü illərdə Azıx paleolit düşərgəsində ancaq Azərbaycan alimləri kompleks arxeoloji tədqiqat işləri aparıblar. Bu zaman düşərgənin çöküntülərində I mərhələ qazıntı zamanı 6 arxeoloji təbəqə qeydə alınaraq tədqiq olunub. Bu dövrdə aparılan tədqiqat işləri zamanı düşərgənin I və II təbəqələrində eneolit, tunc, antik və orta əsrlərə aid maddi-mədəniyyət qalıqları tapılıb. Düşərgənin III təbəqəsində aparılan arxeoloji qazıntılar zamanı isə mustye mədəniyyətinə aid daş alətlər və ovlanmış heyvan sümükləri aşkara çıxarılıb. IV təbəqədə qazıntılar zamanı maddi-mədəniyyət qalıqları tapılmadığına görə “lal təbəqə” adlanır.

Düşərgənin V təbəqəsində aparılan arxeoloji qazıntılar zamanı 300-dən artıq daş məmulatı və 10 minlərlə ovlanmış heyvan sümüklərinin qalıqları aşkara çıxarılıb. Tapılmış maddi-mədəniyyət qalıqlarının aşel mədəniyyəti dövründə hazırlandığı müəyyən edilib. 1968-ci ilin iyununda Azıx paleolit düşərgəsinin V təbəqəsinin IV layında aparılan arxeoloji tədqiqatlar zamanı qədim insana məxsus çənə sümüyü tapılıb. Professor Dəmir Hacıyevin apardığı elmi araşdırmalar zamanı məlum olub ki, çənə ibtidai insana aid olub 350 – 450 min il bundan əvvəl Qarabağ ərazisində məskunlaşmış azıxantrop tipli insanlara məxsusdur.

Düşərgənin VI təbəqəsində aparılan arxeoloji qazıntılar zamanı qədim aşel mədəniyyətinə aid 3 mindən artıq daş məmulatı və 10 minlərlə ovlanmış heyvan sümüklərinin qalıqları aşkara çıxarılıb. 1973 – 1974-cü illərdə Azıx paleolit düşərgəsinin VI təbəqəsindən aşağıda yerləşən çöküntülərdə aparılan arxeoloji qazıntılar nəticəsində daha 4 yeni arxeoloji təbəqə qeydə alınıb. Düşərgənin VII, VIII, IX, X təbəqələrində 300-dən artıq daş məmulatı və 7 ədəd daşlaşmış heyvan sümüklərinin qalıqları aşkara çıxarılıb.

Azıx düşərgəsinin VII, X təbəqələrində tapılmış daş məmulatının elmi tədqiqi zamanı müəyyən edilmişdir ki, həmin tapıntılara oxşarları və analogiyası dünya arxeologiyasında qeydə alınmayıb. Məhz buna görə də aşağı təbəqələrin arxeoloji tapıntılarına “Quruçay arxeoloji mədəniyyəti” adı verilib.

1975 – 1995-ci illərdə Azıxda arxeoloji qazıntıların II mərhələsi başlanıb. Bu mərhələdə düşərgədə Azərbaycan alimləri M.Hüseynov, D.Hacıyev, Ə.Məmmədov, Ə.Cəfərov, N.Şirinov, M.Süleymanov ilə birlikdə SSR Elmlər Akademiyası Coğrafiya İnstitutunun əməkdaşları A.Veliçkonun rəhbərliyi altında kompleks tədqiqatlar aparılıb və mühüm elmi nəticələr əldə edilib.

Tağlar paleolit düşərgəsində 1963 – 1967-ci illərdə M.Hüseynovun rəhbərliyi ilə arxeoloji qazıntılar aparılmış və mustye mədəniyyətinə aid daş məmulatı və heyvan sümüklərinin qalıqları tapılmışdır. 1971-ci ildən başlayaraq Tağlar düşərgəsində mənim rəhbərliyimlə arxeoloji qazıntılar aparıldı və nəticədə mustye mədəniyyətinə aid 7 mindən artıq daş məmulatı və ovlanmış heyvan sümüklərinin qalıqları aşkara çıxarıldı. 1979-cu il SSR Elmlər Akademiyası Arxeologiya İnstitutu Leninqrad bölməsinin Elmi Şurasında “Azərbaycanın mustye mədəniyyət Tağlar mağarasının materialları əsas götürülüb. Tağlarda apardığımız tədqiqatlar zamanı tapılmış maddi-mədəniyyət qalıqları əsasında hələ mustye mədəniyyəti dövründə Tağlarda hazırlanmış əmək alətlərinin Yaxın Şərqin paleolit düşərgələrində yayılması müəyyən edildi.

**– Bu materialların elmi cəhətdən öyrənilməsi hansı nəticələr doğurub?**

– 2001-ci ildən başlayaraq Azıx, Tağlar və digər paleolit düşərgəsindən tapılmış maddi-mədəniyyət qalıqlarının tədqiqi beynəlxalq xarakter alıb. 2001-ci ildə Fransanın Totavel şəhərində keçirilən beynəlxalq konfransda mən Azərbaycan üzrə əlaqələndirici təyin olundum. Həmin proqrama uyğun olaraq 2001–2003-cü illərdə Fransanın Paris, Nis, Totavel şəhərlərində keçirilən konfranslarda Azıx və Tağlar paleolit düşərgəsindən tapılmış maddi-mədəniyyət qalıqları əsasında məruzələrlə çıxış etmişəm. Bu zaman dünya şöhrətli Kondel-Araqo düşərgəsində aparılan arxeoloji qazıntılarda da iştirak etmişəm.

Bu proqrama uyğun olaraq Avropa ölkələrindən 32 görkəmli alim 2002-ci il sentyabrın 7-dən oktyabrın 1-dək Bakıya gələrək Azərbaycanın Azıx, Tağlar, Daşsalahlı, Damcılı, Qazma və digər paleolit düşərgələrindən tapılmış maddi-mədəniyyət qalıqlarının elmi tədqiqi ilə məşğul olublar. Son 40 ildə Azərbaycan alimləri Azıx və Tağlar düşərgəsindən tapılmış maddi-mədəniyyət qalıqlarına aid 7 kitab, 3 monoqrafiya və 200-dən çox elmi məqalələr çap etdiriblər.

1960 – 1986-cı illərdə Azıx və Tağlar paleolit düşərgəsində aparılmış tədqiqatlar zamanı tapılmış maddi-mədəniyyət qalıqları əsasında quruçay, qədim aşel, orta aşel, son aşel, mustye, üst paleolit arxeoloji mədəniyyətləri qeydə alınmış və aparılan kompleks tədqiqatlar zamanı bütün arxeoloji mədəniyyətlərdə varislik ənənələri qeydə alınıb. Hələ sovet dövründə aparılan tədqiqatlar zamanı Azıx, Tağlar düşərgələrinin və Qarabağın Azərbaycana məxsus olması elmi faktlarla təsdiq olunub və Qarabağın əzəli Azərbaycan torpağı olması sübuta yetirilib.

**– Bütün bunlara baxmayaraq Ermənistan işğal dövründə Azıx və Tağlar düşərgələrini “erməniləşdirmək” üçün cinayətkar əməllər törətdi, saxtakarlıqlara rəvac verdi.**

– Bəli, 2001 – 2009-cu illərdə və ondan sonrakı illərdə Azıx və Tağlar düşərgələrində erməni millətçilərinə xidmət edən qüvvələr qanunsuz qazıntılar apardı. Azıx, Tağlar düşərgələrinin tarixini saxtalaşdırmağa cəhd göstərildi. 2003-cü il sentyabrın 29-da Azərbaycan Xarici İşlər Nazirliyi Azıx paleolit düşərgəsində aparılmış qanunsuz qazıntı işləri barədə bəyanat verdi. Qeyd edildi ki, Azərbaycan Respublikasının icazəsi olmadan respublikamızın xüsusən də işğal altında olan ərazilərində əcnəbilərin arxeoloji qazıntı aparması Azərbaycan Respublikasının qanunvericiliyi, habelə beynəlxalq hüquq normalarının kobudcasına pozulmasıdır. Respublikanın baş prokurorluğu Azıx paleolit düşərgəsində aparılmış qeyri-qanuni qazıntılarının iştirakçıları barədə cinayət işi qaldırmış və bu gün də həmin işin istintaqı davam etməkdədir.

Azərbaycan Milli Ordusu, Ali Baş Komandan İlham Əliyevin apardığı 44 günlük müharibə nəticəsində Azıx, Tağlar düşərgələri və digər ərazilərimiz işğaldan azad oldu. 2020-ci ilin noyabrında Azərbaycan Ordusu Azıx və Tağlar düşərgələrində aparılmış qeyri-qanuni qazıntılar zamanı tapılmış materialların müəyyən qismini (paleontoloji tapıntılar) Azıx kəndində tapıb Elmlər Akademiyasının Arxeologiya, Etnoqrafiya İnstitutunun arxeoloji fonduna təhvil verdi.

Həmin tapıntıların tədqiqi zamanı müəyyən olunub ki, erməni cinayətkarlar 2018 – 2019-cu illərdə də Azıx, Tağlar və digər abidələrimizdə qeyri-qanuni qazıntı işləri aparıblar.

Erməni tarixçiləri uzun müddətdir ki, nəinki Azıx, Tağlar, eyni zamanda, Azərbaycanın digər ərazilərinin tarixini saxtalaşdırmaqla məşğuldurlar. Bunlara aid çoxlu misal göstərmək olar. Mən dəfələrlə dövri mətbuatda və əsərlərimdə Qarabağın tarixini saxtalaşdırmağa cəhd edən bəzi erməni alimlərinin fikirlərinin əsasız olduğunu bildirmişəm. Hətta 1990-cı ildə çap olunmuş “Quruçay dərəsində” adlı kitabımda Şaqen Mkrtıçyanın 1988-ci ildə Yerevanda çap etdirdiyi “Dağlıq Qarabağın tarixi və memarlıq abidələri” kitabındakı uydurmalara cavab vermişəm.

Saxtakar müəllif yazırdı ki, guya, Azıx düşərgəsində aşel mədəniyyətinə aid erməni qadınının heykəli tapılıb, hətta onun paltarı erməni qadınlarının paltarına bənzəyir. Belə gülünc fikir söyləməklə Şaqen Mkrtıçyan erməni xalqının tarixini aşel dövründə axtarmağa çalışır. Halbuki Azıx paleolit düşərgəsində qadına bənzər heykəl yoxdur. Orada təbii yolla əmələ gəlmiş stalaqmit və stalaqtit dirəklər mövcuddur ki, o da 2,5 milyon il bundan əvvəl əmələ gəlib. Həmin dövrdə erməni var idimi? O dövrdə pitikantrop və sinantrop tipli insan mövcud olub.

Azıx və Tağlar düşərgələrinə aid çap olunmuş əsərlər bu gün dünyanın müxtəlif ölkələrinin elmi kitabxanalarında vardır. Aparılmış kompleks tədqiqatlar Azərbaycan ərazisində 2,5 milyon il bundan qabaq ibtidai insanların məskunlaşması üçün təbii coğrafi şərait olduğunu sübuta yetirib. Kompleks tədqiqatın nəticələri əsasında Qarabağın əzəli Azərbaycan torpağı olmasını dünyanın mötəbər alimləri təsdiq ediblər. Qoy UNESCO-nun Ümumdünya İrs Komitəsi erməni saxtakarlıqlarını bir kənara qoyub bu həqiqətləri əsas götürsün.

**– Maraqlı açıqlamalara görə təşəkkür edir, sizə bu yöndə fəaliyyətinizdə uğurlar arzulayırıq.**

**Söhbəti apardı: Tahir AYDINOĞLU**
**XQ**

Sosial xəbərlər

### 120 min pensiya, müavinət və təqaüd təyinatı




**Əhaliyə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət sahələri üzrə təqdim olunan elektron xidmətlərə 2023-cü ilin 8 ayında 12,2 milyon müraciət qeydə alınıb. Bu barədə nazirliyin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən aldığımız məlumatda deyilir.**

Bildirilir ki, bu il də e-təyinatlar davam edib, 119,9 min pensiya, müavinət, təqaüd təyinatı e-infrastruktur üzərindən, proaktiv qaydada həyata keçirilib, e-qaydada 194 min fərdi şəxsi hesab açılıb. Nazirliyin fəaliyyət sahələrinə dair elektron arayış xidmətləri vasitəsilə 259 min e-arayış verilib.

Hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin e-sistemlərinin 80-dək qurumun informasiya bazaları ilə inteqrasiyası həyata keçirilir. Həmin qurumlar tərəfindən bu ilin 8 ayında nazirliyin informasiya bazalarına edilən sorğu sayı 203 milyon olub.

### Həssas qruplara 304 min xidmət göstərilib

**Vətən müharibəsindən sonra dövlət başçısının tapşırığı əsasında şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı genişmiqyaslı sosial dəstək paketi həyata keçirilir.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən icra olunan bu paket çərçivəsində postmüharibə dövründə: şəhid ailələri üzvləri və müharibə veteranları olan 103 min şəxsə 115 min aylıq sosial ödəniş təyin olunub: 3 891 şəxsə sığorta ödənişi edilib; 1997-ci il avqustun 2-dək hərbi xidmətdə aldığı xəsarətlə bağlı əlilliyi olan 17 min 234




şəxs üzrə birdəfəlik ödəmə verilib; şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanlara yönələn sosial ödənişlər hər il artırılıb, müharibə veteranlarına aylıq təqaüd təyin edilib.

Eyni zamanda, şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı 5 dəfə genişlənib, onlara 5 min 250 mənzil və fərdi ev, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 324 avtomobil təqdim edilib (Ümumilikdə, ötən dövrdə bu kateqoriyalardan olanlara 14 050 mənzil və fərdi ev, müharibə ilə əlaqədar əlilliyi olanlara 7 500-dən çox avtomobil verilib).

Bundan başqa, şəhid ailələri üzvləri, müharibə iştirakçıları olan 11 min nəfərə 49,5 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib. Müharibə ilə əlaqədar əlilliyi olan 1990 şəxs 43 min 100 reabilitasiya vasitəsi, o cümlədən 439 şəxs 458 ədəd yüksək texnologiyalı müasir protezlə təmin olunub.

Dövlət Məşğulluq Agentliyi tərəfindən şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 19 min 600 şəxsin məşğulluğu təmin edilib, o cümlədən 10 min 100 şəxs özünüməşğulluq proqramına cəlb olunub.

Vahid əlaqələndirmə mərkəzlərində həmin kateqoriyalara aid 93,3 min şəxsə xidmətlər göstərilib və s. Postmüharibə dövründə qeyd olunan sosial dəstək paketi 124 min şəxsi əhatə edərək, onlara dəstək yönümlü 304 min xidmət göstərilib.

### 54,8 min reabilitasiya vasitəsi verilib

**Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi bu ilin 8 ayında əlilliyi olan şəxslərə ötən ilin müvafiq dövrünə nisbətən 28 faiz çox olmaqla 54,8 min reabilitasiya vasitəsi verib.**




Onlardan 2231-i təkərli oturacaq, 291-i mühərrikli təkərli oturacaq, 1988-i aşağı və yuxarı ətraf, habelə döş protezi, 1232-i eşitmə aparatı olub. Həmçinin əlilliyi olan şəxslərə 2183 cüt protez ayaqqabı, 4496 cüt ortopedik ayaqqabı, 50 səsli tonometr, 48 səsli tibbi termometr, 117 korset, 1795 qoltuqaltı və dirsəkaltı ağac,19 hərəkətli qaldırıcı qurğu və s. reabilitasiya vasitələri təqdim edilib.

Yanvar–avqust aylarında 7 min 500 şəxs reabilitasiya vasitəsi ilə təmin edilib. Müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin yüksək texnologiyalı son nəsil protezlərlə təminatı işləri bu il də davam edib.

Ümumilikdə, 44 günlük Vətən müharibəsindən sonra sosial dəstək proqramı çərçivəsində müharibə ilə əlaqədar əlilliyi olan 439 şəxs 458 ədəd yüksək texnologiyalı müasir protezlə təmin edilib, müharibə ilə əlaqədar əlilliyi olan 1 990 şəxsə 43,1 min reabilitasiya vasitəsi verilib.

**Zərifə BƏŞİRQIZI**
**XQ**

Yubiley nəşri

# Ulu öndərin əbədiyaşarlıq salnaməsi

**Xalq şairi, Milli Məclisin deputatı Sabir Rüstəmxanlının yenicə çapdan çıxmış "Ölüm son deyil" kitabında onun ulu öndər Heydər Əliyev haqqında özəl xatirələri toplanıb.**

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli kitaba yazdığı ön sözdə göstərir ki, görkəmli dövlət xadimi Heydər Əliyev bir çox öncül ziyalılarımız kimi, Sabir Rüstəmxanlının da taleyində və yaddaşında xüsusi yeri olan unudulmaz dahi şəxsiyyətdir.

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında vətəndaşlıq poeziyasının əsas simalarından biri olan müəllifin yaradıcılığında ictimai-siyasi motivlər, ümummilli ideallar və yüksək vətəndaşlıq missiyası həmişə ön mövqedə olub. Sabir Rüstəmxanlı ədəbiyyatda milli-azadlıq düşüncəsinin, özgür dövlətçilik məfkurəsinin pərvərişində böyük rolu olan qələm sahibidir. Hörmətli akademikin də yazdığı kimi, bütün bunlar onun yaradıcılığını Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkəmizdə milli-mənəvi özünüdərk və milli istiqlal uğrunda apardığı mübarizə ilə doğmalaşdırır.

Məlum olduğu kimi, Heydər Əliyevin xalqın milli mənlik şüurunu gücləndirmək səyləri, vətənsevər ziyalıları qoruması həm Dövlət Təhlükəsizlik Komitəsində çalışdığı vaxtlar, həm də respublikaya rəhbərlik etdiyi dönəmlərdə bəlli konkret faktlarda əksini tapıb. "Əslində, ulu öndərin XX əsrin 60-cı illərinin axırlarından başlayaraq, 40 ilə yaxın davam edən milli intibah mücadiləsi Azərbaycan ədəbiyyatında görkəmli istiqlalçı şairlərin: Xalq şairləri Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza Ulutürk kimi qüdrətli sənətkarların geniş miqyasda fəaliyyət göstərmələrinə dəstək olmuşdur".

Sabir Rüstəmxanlı yaradıcılığında da milli istiqlal ideyalarının qol-qanad açmasında ümummilli liderin uzaqgörənliklə təməl daşlarını qoyduğu müstəqillik ideyasının xüsusi rolu var.




Artıq bir qərinədir ki, reallaşmış bu təməl ideya yeni kitabdakı yazıların da ümumi ruhunun ana xəttini təşkil edir. Mütaliə boyunca şahidi oluruq ki, Heydər Əliyev Sabir Rüstəmxanlıya tərcümeyi-halının və taleyinin ən müxtəlif məqamlarında güclü dəstək, qayğı göstərib. Ümumi kontekstdə bu, ulu öndərin ədəbiyyata və sənətkarlara münasibətinin mahiyyətini göstərir. Elə bu həqiqət Xalq şairinin ulu öndər haqqında kitab yazmasının məntiqi əsaslarını meydana qoyur.

Müəllif ulu öndəri sovet dövründə ona qismət olmuş görüşlərdən, 1992-ci ildə Naxçıvanda ziyarətlərindən tutmuş, sonrakı təmaslarına qədər onunla görüşlərini xatırlamaqla, Azərbaycan xalqının milli azadlıq və müstəqil dövlətçilik uğrunda mübarizəsində Heydər Əliyevin müstəsna rolunu baş vermiş ictimai-siyasi hadisələrin və iştirakçısı olduğu proseslərin fonunda obyektiv şəkildə təqdim edib. "Heydər Əliyevin həyatı və çıxışları XX yüzil Azərbaycan tarixinin salnaməsidir",– deyən Sabir Rüstəmxanlı canlı xatirələri əsasında dövlət müstəqilliyimizin xilas edilməsi, saxlanılması və daha da möhkəmləndirilməsində Heydər Əliyevin adı ilə birbaşa bağlı olan tarixi məqamları oxuculara çatdırır. Xalq şairi Gəncə qiyamı hadisələrinin silahsız, qansız yatırılması, süni şəkildə Talış–Muğan Respublikası adlandırılmış separatçı qurumun tərksilah edilməsi və digər taleyüklü olaylarda müşahidə etdiklərini qələminin süzgəcindən keçirərək, Heydər Əliyevin xilaskarlıq missiyasına önəmli yönlərdən işıq salır.

Ümummilli lider haqqında çoxlu kitablar yazıldığını qeyd edən Sabir Rüstəmxanlı bildirir ki, bunlara nə isə əlavə etmək çətindir: "Mənim belə bir niyyətim də yoxdur. Heydər Əliyev minlərlə insanla ünsiyyətdə olub, çiyin-çiyinə çalışıb, o insanların yaddaşına köçüb. Bu yaddaş səhifələri açılsa, qeyri-adi bir mənzərə yaranar. Mənim yazdığım minlərlə, milyonlarla insandan yalnız birinin görüb-bildiyidir. Bir damladır. Lakin Günəşi əks etdirən damladır".

Müəyyən mənada həm də avtobioqrafik toplu olan kitabdakı yazıların tam əksəriyyəti – dialoqlar, çıxışlardan və məktublardan nümunələr konkret faktlar, mötəbər mənbələr əsasında gözəl publisistik yöndə yazılmış xatirələrdən ibarətdir. Burada siyasi, ictimai və ədəbi kuluarlarda olmuş görüşlər xronikal tərzdə deyil, məhz xalqın, millətin və dövlətin taleyində müstəsna rol oynayan dahi şəxsiyyətlə bağlı özəl seçiyyələndirmələr kimi sırf obyektiv ziyalılıq aspektindən yazılıb.

Kitabdakı son yazıda görkəmli dövlət xadiminin 100 illiyi münasibətilə Milli Məclisdə keçirilən yığıncaqda qonaq qismində iştirak etmiş xarici ölkə parlamentarilərinin çıxışlarından bəzi örnəklər misal gətirilir və bu da böyük şəxsiyyətə, onun ölməz ruhuna qlobal yöndən işıq salınması baxımından yerinə düşür.

Nəhayət, qeyd edək ki, Xalq şairi Sabir Rüstəmxanlının "Qanun" nəşriyyatında çap edilmiş "Ölüm son deyil" kitabı "Heydər Əliyev İli"nə və ulu öndərin əsrlik yubileyinə sanballı töhfədir.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Üzeyir Hacıbəyli festivalı davam edir

**Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə sentyabrın 18-də başlanmış ənənəvi Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalı bir-birindən maraqlı tədbirlərlə sənətsevərlərin könüllərini oxşayır.**



M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Əməkdar incəsənət xadimi, tanınmış memar və rəssam Elturan Avalovun əsərlərindən ibarət sərginin açılışı da musiqi bayramının yaddaqalan tədbirlərindən olub.

Mədəniyyət nazirinin müavini Murad Hüseynov sənətkarı yeni sərgisi münasibətilə təbrik edərək ona yaradıcılıq uğurları arzulayıb. Bildirib ki, rəssam bu günlərdə 150-dən artıq əsərini nazirliyə təqdim edib.

Elturan Avalovun bu sərgisində Üzeyir Hacıbəylinin musiqili komediyalarına və xalq mahnılarımıza çəkdiyi illüstrasiyalar, qrafik əsərlər nümayiş olunur. Ümumilikdə 50-yə yaxın əsərin yer aldığı sərgi tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Azərbaycan Dövlət Akademik Filarmoniyasında "Kinofilmlərdən musiqi" adlı konsert proqramı da hər kəsə xoş anlar yaşadıb.

Proqram Azərbaycan kinosunun 125, C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının 100 illiklərinə həsr olunub. Layihənin ideya müəllifi tanınmış vokalçı, Əməkdar artist Ramil Qasımovdur.

Konsert Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri və Xalq artisti Ənvər Sadıqovun "Qaytağı" ansamblının iştirakı ilə keçirilib. Əvvəlcə Azərbaycan kinosunun yaranma tarixi və kino musiqimiz haqqında məlumat verilib. Ramil Qasımov Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasından "Əsgərin ariyası"nı və Tofiq Quliyevin "Bəxtiyar" filmi üçün bəstələdiyi "Sevgilim" mahnısını ifa edib. Vokalçı həmçinin Üzeyir bəy dühasından, kino musiqimizin zənginliyindən, Azərbaycan kino musiqisində xüsusi adı olan bəstəkarlarımızdan söz açıb.

Konsert proqramı kino musiqiləri ilə davam edib. "Arşın mal alan", "O olmasın, bu olsun", "Bəxtiyar", "Yenilməz batalyon", "Telefonçu qız", "Möcüzələr adası", "Dədə Qorqud", "Baladadaşın ilk məhəbbəti", "Yuxu", "Romeo mənim qonşumdur", "Görüş", "Əhməd haradadır?" və s. filmlərdən musiqilər təqdim edilib. Xalq artisti Fidan Hacıyeva, Əməkdar artistlər Lalə Məmmədova, İnarə Babayeva, Zamiq Hüseynov, ifaçılar Fatimə Cəfərzadə, Amil Həsənoğlu və digər solistlərin ifasında səslənən mahnılar alqışlarla qarşılanıb.

Qeyd edək ki, Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalı paytaxt Bakının mədəniyyət və ali təhsil ocaqları ilə bərabər, Gəncə, Şuşa vəŞəmkir şəhərlərində də keçirilir. Proqrama salonlarda və açıq havada təşkil olunan konsertlərlə yanaşı, teatr tamaşaları, elmi-praktiki konfranslar, ustad dərsləri və s. tədbirlər daxildir.

Festival sentyabrın 28-də başa çatacaq.

***Ə.DOSTƏLİ***
***XQ***

Azər Turan – 60

# Məfkurə irsimizin yorulmaz tədqiqatçısı

**Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda tənqidçi, publisist, filologiya üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi, "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turanın 60 illik yubileyi qeyd edilib.**



Yubiley mərasimini Azərbaycan Yazıçılar Birliyi sədrinin müavini, Mətbuat Şurasının sədri, şair-publisist Rəşad Məcid açaraq Azər Turanı müstəqilliyimizin yetirdiyi ədəbi simalardan biri, fədakar ədəbiyyatşünas, istiqlal irsimizin yorulmaz araşdırıcısı, çağdaş ədəbi prosesin fəal təşkilatçılarından biri kimi dəyərləndirdi. Aparıcı yubilyarın çoxşaxəli yaradıcılığı haqqında ətraflı məlumat verdi, ədəbiyyatımızda və mədəniyyətimizdə Azər Turanın təşviqedici rolundan danışdı.

Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, Milli Elmlər Akademiyasının Prezidenti, akademik İsa Həbibbəyli, Xalq yazıçıları Çingiz Abdullayev və Kamal Abdulla, AYB Ağsaqqallar Şurasının sədri, Xalq şairi Nəriman Həsənzadə, akademiklər Teymur Kərimli, Muxtar İmanov və Nizami Cəfərov, filologiya elmləri doktoru Elnarə Akimova və başqaları Azər Turanın yaradıcılığının ideya-məfkurəvi və estetik önəmindən söhbət açdılar.

Qeyd edildi ki, akademik Bəkir Nəbiyevin elmi rəhbərliyi ilə "Hüseyn Cavid yaradıcılığının ədəbi-fəlsəfi qaynaqları" mövzusunda dissertasiya müdafiə etmiş Azər Turan "Hüseyn Cavid" və "Qızıl kələmə" mükafatları laureatıdır. Alim türk düşüncə tarixini, türk ədəbiyyatında modernizm cərəyanı və onun təzahür şəkillərini davamlı tədqiq edir. Mahmud Kaşqarlı, Əhməd Yəsəvi, İsmayıl bəy Qaspıralı, Əli bəy Hüseynzadə, Əhməd Ağaoğlu, Cəmaləddin Əfqani, Yusif Akçura, Mehmet Akif Ərsoy, Yahya Kamal, Fuad Köprülü, Nihal Atsız, Rıza Nur, Zəki Vəlidi, Bəkir Çobanzadə, Cənab Şəhabəddin, Əhməd Haşim, Nəcib Fazil, Nazim Hikmət, Orxan Vəli, Edip Cansevər, Cahit Sıtkı, Cəmal Süreya, Çingiz Dağçı, Çingiz Aytmatov və başqaları haqqında silsilə yazıları Azər Turana Azərbaycanda və xarici ölkələrdə geniş elmi rəğbət qazandırıb. Yubilyar 30-a qədər maraqlı kitabın müəllifidir, bir neçə filmin ssenarisini yazıb. Alim-publisist kimi İstanbul, Ankara, Moskva, Tbilisi, Almatı və Daşkənddə keçirilən elmi konfranslarda məruzələrlə çıxış edib. Onun baş redaktorluğu dövründə "Ədəbiyyat" qəzetinin fəaliyyəti əsaslı surətdə canlanıb, nəşrin nüfuzu və ədəbi-mədəni həyata təsiri yüksəlib.

Sonda Azər Turan çıxış edərək bu günün onun həyatında mühüm məqamlardan biri olduğunu qeyd etdi və tədbirə qatılan hər kəsə minnətdarlığını bildirdi.

***Ə.ƏLİYEV***
***XQ***

Milli Kitabxana – 100

# "Türk dünyası ədəbiyyatının tərlanları"

**Azərbaycan Milli Kitabxanasının 100 illik yubileyi ilə əlaqədar silsilə tədbirlər davam edir.**



Bu münasibətlə kitabxanada qazax ədəbiyyatının görkəmli nümayəndəsi, dramaturq, ictimai xadim Kemel Tokayevin 100 illiyinə və XX əsrin Azərbaycan ədəbiyyatının klassiki, görkəmli yazıçı, alim- pedaqoq Mir Cəlal Paşayevin 115 illiyinə həsr olunmuş "Türk dünyası ədəbiyyatının tərlanları" mövzusunda beynəlxalq konfrans işə başlayıb.

Konfransdan öncə Qazax ədəbiyyatının görkəmli yazıçısı Kemel Tokayevin və XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Mir Cəlal Paşayevin yaradıcılığına həsr olunmuş kitab sərgisinin açılışı olub.

Milli Kitabxananın direktoru Kərim Tahirov konfransın plenar iclasını açıq elan edib. Konfransda mədəniyyət naziri Adil Kərimli, Qazaxıstan Respublikasının Prezidentinin müşaviri Malik Otorbayev, Qazaxıstanın Azərbaycandakı səfiri Alim Bayel, Azərbaycan Diplomatik Akademiyasının rektoru Hafiz Paşayev, Azərbaycan Milli Məclisinin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti İsa Həbibbəyli, yüksək səviyyəli şəxslər, ziyalılar və ədəbiyyatsevərlər iştirak edirlər.

***XQ***

# İƏT üzvü olan Ölkələrin Milli Kitabxanalarının Direktorlar Şurasının 6-cı iclası

**Sentyabrın 22-də Azərbaycan Milli Kitabxanasında İslam Əməkdaşlıq Təşkilatına üzvü olan ölkələrin milli kitabxanalarının Direktorlar Şurasının 6-cı iclası keçirilib.**



Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov, Qazaxıstan Milli Kitabxanasının direktoru Bakıtcamal Ospanova, Özbəkistan Milli Kitabxanasının direktoru Umida Teşabayeva, Türkiyə Milli Kitabxanasının baş direktoru Taner Beyoğlu, Pakistan Milli Kitabxanasının direktoru Asif İqbal Xan və Tacikistan Prezidentinin İcra Aparatının "Milli Kitabxana" Dövlət Müəssisəsinin direktoru Jumakhon Xol çıxış edərək gündəlikdəki məsələlərin vacibliyini qeyd edib, onların həyata keçirilməsinin əhəmiyyətli olduğunu vurğulayıblar.

Azərbaycan tərəfinin təklifi ilə UNESCO-ya müraciətin qəbul olunması, İƏT üzvü olan ölkələrin milli kitabxanaları arasında kitab mübadiləsinin təşkili, İƏT üzvü olan ölkələrin milli kitabxanalarının vahid elektron kataloqunun və elektron kitabxanasının təşkil olunması, İƏT üzvü olan ölkələrin milli kitabxanalarının əsas göstəricilərini əks etdirən bir elektron məcmuənin tərtib olunması və onun hər il yenilənməsi, İƏT üzvü olan ölkələrin milli kitabxanalarının qarşılıqlı əlaqələrinin möhkəmləndirilməsi məsələləri ətrafında müzakirələr olub, səsvermə əsasında qərarlar qəbul edilib.

***XQ***

# Qürbətdəki balalara "Ana dili" dərsləri

**Yeni tədris ilindən "Ana dili – Azərbaycan məktəbi" layihəsi məsafədən (onlayn) dərslərə start verib. Bu, Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının təşkilatçılığı ilə xaricdə yaşayan soydaşlarımız üçün ana dilini onlayn öyrənməni təmin edən pilot təlimdir.**



İndiyədək 29 fərqli ölkədən 600-ə yaxın soydaşımız layihədə iştirak üçün müraciət edib. Müraciətlərin təhlili aparıldıqdan sonra, ümumilikdə, 35 qrup olmaqla 6-18 yaş kateqoriyası üzrə 300-dən çox iştirakçı ana dili dərslərinə başlayıb.

Qeyd edək ki qruplar layihə iştirakçılarının yaş, dilbilmə səviyyəsi və saat qurşaqlarını nəzərə almaqla təşkil olunub. Layihənin tədris proqramı ölkəmizin tarixi, ədəbiyyatı, coğrafiyası və mədəniyyətinə dair məlumatların daxil edildiyi mövzular əsasında hazırlanıb. Dərslər həftədə 2 dəfə olmaqla "Microsoft Teams" platforması üzərindən təşkil edilir. Proqram 2 rüb olmaqla 2023-2024-cü tədris ilini əhatə edəcək.

Vaxt və yaş kateqoriyası baxımından dərslərdə iştirak edə bilməyən şəxslər üçün yaxın vaxtlarda layihənin sosial media hesablarında və onlayn öyrənmə platformasına videodərslər yerləşdiriləcək.

***XQ***

BEYNƏLXALQ HƏYAT

# Azərbaycan – regionda sülh və sabitliyin qarantı

(əvvəli 1-ci səhifədə)



Bakının atdığı addımlar regionda davamlı sülhə və sabitliyə xidmət edir. Azərbaycan bu gün bölgədə həm sabitliyin, həm də inkişaf və tərəqqinin lokomotivi rolunda çıxış edir. Bu, qürurverici faktdır.

Xatırladaq ki, 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində Sovet İttifaqının süqutu ərəfəsində böyük bir coğrafi məkanda Qarabağdan başlamaqla milli zəmində bir neçə münaqişə ocağı yaradıldı. Niyyət vaxt udaraq gələcəkdə imperiyanı hansısa yeni formada bərpa etmək idi. Bu arzunu gerçəkləşdirmək istəyənlər bu gün də var.

Azərbaycan xalqı otuz ildən çox Qarabağda separatçı ermənilərin vasitəsilə həyata keçirilən məkrli planlardan əziyyət çəkibdir. 2020-ci ilin payızında xalqımızın əzəli və əbədi torpaqlarında, nəhayət, haqq-ədalət bərpa olundu. Vətən torpaqları azad edildi. Bölgədə yaşayan xalqlar arasında davamlı və ədalətli sülhün tezliklə bərqərar olunacağına ümidlər yarandı.

Növbəti mərhələdə iki qonşu arasında sülh sazişi imzalanmalı idi. Xankəndi və onun ətrafındakı ərazilərdə yaşayan ermənilərdən təxribatçı əməllərdən əl çəkmələri tələb olunurdu. Axı, bütün sivil dünyada olduğu kimi, onlar da vətəndaşı olduqları ölkənin qanunlarına hörmət etməyə borcludurlar.

Azərbaycan dövlətinin bu xoş məramının əvəzində nə baş verdi? Qatı millətçi, revanşist qüvvələr Qarabağdakı separatçıları yenidən silahlandırır, onları xalqımıza qarşı ağır təxribatlar törətməyə sövq edirdilər. Qarabağda Azərbaycanın suveren hüquqlarına təhdidlər törədilirdi.

Əlbəttə, bu, uzun müddət davam edə bilməzdi. Bu il sentyabrın 19-da Azərbaycan Ordusu bölgədə lokal xarakterli antiterror addımları ataraq, cəmi bir sutka ərzində erməni yaraqlılarını ağ bayraq qaldırmağa vadar etdi.

Rəsmi Bakının siyasəti beynəlxalq qanunlara tamamilə uyğundur. Bunu, əlbəttə, sağlam düşüncəli insanlar, ağlı başında olan siyasətçilər yaxşı başa düşürlər. Lakin həqiqəti görmək istəməyən qara qüvvələr də var.

Məsələn, Fransanın xarici işlər naziri Katerin Kolonna iddia edir ki, ölkəmizin silahlı qüvvələri erməni əhalisini qorxudaraq, onlardan ərazidən kütləvi köçüb getmələrini tələb etmişlər. Bu ittiham həqiqəti əks etdirmir.

Azərbaycan dövləti milli mənsubiyyətindən və dini inancından asılı olmayaraq heç bir sivil şəxsə qarşı zor tətbiq etməyib və etməyəcək. Terrorçularla hər bir ölkədə onların öz dilində danışırlar.

Fransa, eləcə də bir çox Qərb dövlətləri bölgədə təsir imkanlarını artırmaq üçün Azərbaycan hökuməti və xalqını dünya ictimaiyyətinin gözündən salmağa çalışırlar. Rəsmi Bakının prinsipial və qətiyyətli siyasəti isə onların bədxah niyyətlərinin qarşısını alır.

Ölkəmizə qara yaxan qüvvələr unudurlar ki, Azərbaycan hazırda tək deyil, xalqımızın ədalətli mövqeyini dəstəkləyən dövlətlər və xalqlar var. Bu günlərdə Türkiyə Prezidenti çox hörmətli Rəcəb Tayyib Ərdoğan BMT-nin yüksək tribunasından bəyan etdi ki, Bakının öz ərazisindən silahlı erməni birləşmələrini çıxarmağa haqqı var və Türkiyə dövləti həmişə olduğu kimi, yenə də Azərbaycanın yanındadır.

Bəli, Azərbaycan sivil, humanist, demokratik ənənələrə sadiq olan sülhsevər dövlətdir. Qarşı tərəflə hər zaman dialoqa və danışıqlara hazırdır. Biz regiona sülh, əmin-amanlıq gətirmək əzmindəyik və buna nail olacağıq.

***Məsaim ABDULLAYEV***
***XQ***

## Ekspert rəyi



**Aydın İBRAHİMOV,**
**BDU-nun Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm kafedrasının müdiri, professor**

– Azərbaycanın Qarabağda atdığı lokal antiterror addımlarından sonra regionda yeni situasiya yaranmış, yenidən sülhə ümidlər artmışdır. Lakin unutmayaq ki, 2020-ci ilin payızında, 44 günlük savaşdan sonra da Qarabağda buna bənzər bir vəziyyət var idi.

Hər şey razılaşdırılmış ssenari üzrə gedirdi. Üçtərəfli Bəyanata uyğun olaraq tezliklə sülh sazişi imzalanmalı və iri kommunikasiyalar açılmalı idi.

Amma Fransa, Almaniya və başqa böyük dövlətlərin təsiri ilə vəziyyət dəyiməyə başladı. Müəyyən destruktiv qüvvələr problemi bu gün də öz maraqları müstəvisində həllinə nail olmağa can atırlar.

Cənubi Qafqazdakı yeni reallıqlar çox şeyi dəyişə bilər. Ermənistan rəhbərliyi üçün mövcud reallığa adekvat, düzgün addımlar atmaq o qədər də asan deyil. Çünki, erməni cəmiyyəti özünün uydurduğu xəstə təxəyyüldən hələ də tamam azad olmayıb. Üstəlik, xaricdə yaşayan ermənilərin yerli-yersiz qınağı və döyüş meydanlarındakı uğursuzluqlar ermənilərin şüuruna mənfi təsir göstərir.

Mənə elə gəlir ki, Ermənistan Azərbaycanla təkbətək qalsa, sülh sazişi daha tez bağlana bilər. Ermənistanda elə qüvvələr var ki, onlar bunu başa düşürlər. Dərk etməyə başlayıblar ki, “Qarabağ yükü” ölkəni uzunmüddətli turbulentliyə, sadə dildə desək, uçuruma aparır.

Yenə deyirəm, Ermənistanı “dostları” onu sakit buraxsalar, İrəvanla Bakı öz aralarında bir çox mübahisəli məsələləri həll edə bilərlər. Ola bilər ki, Ermənistan hakimiyyəti hazırda Qarabağ ətrafındakı problemə daha çox dövlətləri cəlb etməklə, məsələni yenidən dondurulmuş vəzyyətdə saxlamağa cəhd edir. Bu, tamamilə yalnız və səhv yoldur.

Qərb Rusiyanın regiondan sıxışdırıb çıxarmağa çalışır. Lakin bu, xeyli çətindir. Rusiya bunu başa düşür və bu ssenarinin qarşısını almaq üçün əlindən gələn hər şeyi edir. Bu gün Qarabağda Rusiya ilə Qərbin maraqları toqquşur.

Azərbaycan isə böyük güclərin regiona yersiz müdaxiləsini gözləmədən problemin ədalətli həllinə çalışır. Ölkəmiz faktiki olaraq regionda sülh və sabitliyin qarantı rolunda çıxış edir.

Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev görkəmli dövlət xadimi və böyük siyasət adamıdır, özünün şahmat partiyasını olduqca gözəl idarə edir və qələbə çalmağı yaxşı bacarır.

Azərbaycan heç vaxt indiki qədər güclü və qüdrətli olmayıb. Dünyanın hər yerində dostlarımız və soydaşlarımız ölkəmizin uğurlarına sevinirlər. Allah xalqımızı və dövlətimizi qorusun!

# Malta niyə bizə qarşıdır?

**Azərbaycan siyasi müstəqilliyini bərpa etdikdən sonra qarşılaşdığı ədalətsiz Qarabağ probleminin ağırlığına baxmayaraq, xarici siyasətində hər zaman qarşılıqlı hörmətə əsaslanan və bərabərhüquqlu dövlətlərarası münasibətlərin inkişafına yönələn kursa üstünlük verdi. Tarixi düşmənliyi zərərli amil hesab edən rəsmi Bakı dinlərarası və mədəniyyətlərarası dialoqun aparılmasını və davam etdirilməsini sivil xalqın ən doğru seçim yolu hesab etdiyini açıqladı. Amma təəssüf ki, ötən müddət ərzində bəzi ölkələr Azərbaycanın haqlı mövqeyinə tələb olunan münasibəti sərgiləmədi və zaman-zaman açıq-gizli dost olmayan siyasət yürütdü. Belə ölkələrdən biri də Maltadır. BMT divarları arasında son 1 ayda Qarabağla bağlı keçirilən dinləmələrdə ermənipərəst mövqe sərgiləyən ada dövlət...**




Bəs Maltanın anti-Azərbaycan mövqe sərgiləməsinin arxasında nə dayanır? Təbii ki, erməni diasporunun bu işdə birbaşa əli var. Açıq informasiya resurslarından öyrənmək olur ki, Maltada ermənilərin sayı bir neçə min nəfərə çatır, lakin cəmi 300-350 nəfər özünü erməni hesab edir. Əksəriyyəti özlərini maltalı sayırlar. Adadakı erməni diasporunun maraqlarını “Malta Erməni İcması” təmsil edir. İcmanın üzvləri könüllülük əsasında birləşmiş ermənilər və onların ailə üzvləridir. 22 dekabr 2009-cu ildə Valletta şəhərinin mərkəzində Malta ordeninin iqamətgahı ilə üzbəüz (Maltadakı əsas iqamətgah) “erməni xaçkarı”nın təntənəli açılışı olub. Açılış mərasimində Malta parlamentinin üzvləri, Valletta şəhərinin meri və digər yüksək vəzifəli qonaqlar iştirak ediblər. Xaçkarda quraşdırılmış xatirə lövhəsinin üzərindəki yazıda deyilir: “Malta və erməni xalqları arasında dostluq əlaməti olaraq. Ermənistan 1375 və 1915-ci illərin erməni xalqı üçün faciəli günlərində bu adada sığınacaq tapmış ermənilərə göstərdiyi dəstəyə görə Maltaya təşəkkür edir”.

Göründüyü kimi, ermənilər adada fəaldırlar və uydurma nağıllarını Maltada da yaymaqla məşğuldurlar? Bəs ada ölkəni BMT-də Qarabağla bağlı keçirilmiş son dinləmələrdə anti-Azərbaycan mövqe sərgilənməsinin arxasında tək erməni “sevgisi” dayanır? Əslində, maltalılar bizə qarşı belə qeyri-konstruktiv davranış sərgiləmələri onların, ümumiyyətlə, türkə olan mənfi münasibətlərindən qaynaqlanır. Malta 25 il Osmanlı dövləti ilə müharibə aparıb. Buna görə də, adada türkləri sevməyənlər çoxdur. Türkiyənin “Yeni Asır” qəzetinin yazarı Şenol Yazarın bununla bağlı maraqlı qeydləri var: “25 il Osmanlı ilə vuruşublar. Türkləri sevməyənlər çoxdur, hər hansı hadisəyə şərait yaratmamaq üçün qayığımızın bayrağını asmırıq. Biz fanatiklərin hücumundan qorxuruq. Adada Osmanlı düşmənçiliyi haqqında kitablar paylayan kilsə var. Kitabın sonunda yazılıb: Onları AB-yə buraxmayın. Kilsənin girişində Osmanlılarla döyüşərək həlak olanların sümüklərinin sərgiləndiyi muzey var. Kilsənin keşişi və müqavimət göstərənlər Osmanlıların kilsəyə girəcəyini anlayınca sursat anbarını partladıb intihar ediblər”. Başqalarında təəssürat oyatmaq üçün bilinən fənddir. Amma həmin insanların türklər tərəfindən qətlə yetirildiyi hələ də isbatlanmayıb.

Maltadakı türklərlə əlaqəli ən əhəmiyyətli hadisə 1565-ci ildə baş vermiş Malta mühasirəsidir. Həmin tarixdə türk donanması 40 minlik ordu ilə Maltaya yaxınlaşmış və adanı mühasirəyə almışdı. Mühasirə altı ay çəkmişdi, cəngavərlərin yarıdan çoxu və maltalıların əksəriyyəti mühasirədən sağ çıxa bilməmişdi. Sentyabr ayına qədər davam edən döyüşlərdən uğur əldə olunmadığına görə Qızıləhmədli Mustafa Paşa 1565-ci il sentyabrın 11-də mühasirəni dayandırmaq və geriyə qayıtmaq qərarını vermişdi. Maraqlıdır ki, Maltada yerli sakinlər əcdadlarının mühasirədən sağ çıxdıqları günü “barbarlar” üzərində bayram kimi hələ də qeyd edirlər. Yəni, bu ada sakinlərinin hələ də türklərlə bağlı stereotipləri var və bu önyarğı müxtəlif səviyyələrdə özünü göstərir. Elə BMT-də Malta nümayəndələrinin Ermənistana göstərdikləri dəstəyin kökündə məhz bu tarixi travmanın da payı var, bu gün nə qədər qəribə səslənsə də...

***Səbuhi MƏMMƏDOV***
***XQ***

Ağırlıqqaldırma

# Dadaş Dadaşbəylinin möhtəşəm qayıdışı

**Azərbaycan ağırlıqqaldırma tarixinə ötən illərin ən böyük uğurunu yazan Dadaş Dadaşbəyli...Hələ yeniyetməlik yaşlarından güclü potensialı ilə fərqlənən, qazandığı qələbələrlə diqqəti özünə cəlb edən bu idmançı karyerasının parladığı bir vaxtda – 18 yaşdan ştanqadan uzun müddət kənar qalmağa məhkum edildi. Uzun illər ancaq xəyallarında güc meydanında mübarizə apardı, ruhən bağlandığı idman növü onu bir dəqiqə olsun belə tərk etmədi. İnad və əzmkarlığı sayəsində uzun fasilədən sonra dünya çempionatında Azərbaycana medal qazandırdı. Legionerlərimiz – 2011-ci ildə Valentin Xristov, 2015-ci ildə Boyanka Kostova, azərbaycanlı olaraq isə sonuncu dəfə 18 il bundan əvvəl – 2005-ci ildə Nizami Paşayev dünya çempionatının mükafatına sahib olmuşdu.**




**Dadaş Dadaşbəyli ilə müsahibəm elə ağırlıqqaldırma idman növünə olan sevgisindən başladı:**

– Birinci sinfə gedirdim. Sinif yoldaşlarım və məhəllə dostlarımla birgə futbol oyunundan sonra qərara aldıq ki, idmanla məşğul olaq. O zaman Qobustanda təkcə ağırlıqqaldırma idman növü üzrə zal var idi. Zala girdik. Sonradan şəxsi məşqçim olan Şəmsi Səfərli mənə yaxınlaşaraq qolumu, ayaqlarımı elə diqqətlə nəzərdən keçirdi ki... O anlar uşaqlıq yaddaşıma həmişəlik həkk olundu. O zamandan zaldan ayrıla bilmədim.

**– Adətən, uşaqlar döyüş növlərinə meyil edirlər...**

– Bəli. Mənimlə zalda məşğul olanlar artıq peşiman olmuşdular. Ağırlıqqaldırmanın maraqsız olduğunu deyirdilər. İnad edirdilər ki, onlarla başqa idman növü tapıb məşğul olaq. Mən isə təəccüb edirdim ki, onlar bu idman növünü niyə sevmirlər. Deyirdilər balacaboy qalacaqsan. Triko və digər idman geyimlərini göstərib həvəsləndirirdilər. Mən isə hər gün zala tələsirdim. Məşqim qurtaranda isə evə getmək istəmirdim.

**– Kiçikyaşlı uşaqlar bu idman növündə zədə almaları ciddi fəsadlara səbəb ola bilər...**

– Əlbəttə, çox ciddi zədələr ola bilər. Bəzən ailələr buna görə kiçikyaşlı uşaqları ağır idman növlərinə buraxmırlar. Hər şey məşqçidən asılıdır. Bu idman növündə özümü tapmağımın elə bir səbəbi də ilk məşqçimdir.

**– Bu ciddi məşğuliyyətə evdə münasibət necə idi? Ailədə idmanla məşğul olan varmı?**

– Qardaşım da bir zamanlar mənimlə məşq edib, amma yarıda buraxıb. Hərdən söhbətarası “Mən məşğul olsaydım, daha yaxşı nəticələr qazanacaqdım”, – deyir.

Atam mənim bu növlə məşğul olmağımı istəmirdi. Anam əvvəldən məni dəstəkləyirdi və stimul verirdi.

**– Ən böyük motivasiyanı nə vaxt almısınız?**

– 2012-ci ildə ilk dəfə Avropa çempionatında iştirak edirdim. Nizami Paşayev məşqçimiz Asif Məmmədova kömək edir, həm də yarışı izləyirdi. O vaxt mən 9-cu oldum, komanda yoldaşım Valeh Baxşalızadə qalib adını qazandı. Nizami Paşayev məni nəzərdən keçirib Asif Məmmədova dedi: Dadaş çox güclü idmançı olacaq. Bu mənim üçün çox böyük motivasiya oldu. Özümdə yenilməz güc hiss etdim. Nizami Paşayev kimi dünya şöhrətli bir idmançının məni yüksək qiymətləndirməsi öz təsirini göstərdi. Növbəti ildə 17 yaşadək yeniyetmələr arasında Avropa ikincisi oldum. 2015-ci ildə Avropa çempionu oldum. Eyni zamanda Avropanın ən güclü idmançısı adına layiq görüldüm.

**– Karyeranın ən parlaq dövründə diskvalifikasiya xəbərini necə qarşıladınız?**

– Faciə kimi... Cəmi 18 yaşım var idi. 1 il sanki şokda idim, heç nə ilə məşğul olmadım. 4 il idmandan kənar qalmalıydım. Hamı bədbin proqnoz verirdi ki, uzun müddətdən sonra idmana qayıtmağın xeyri olmayacaq. Nizami Paşayev həmin müddət ərzində mənə çox böyük dəstək verdi. Onun sayəsində özümə inam yarandı. O, mənə təkcə məşqçi yox, əsl valideyn sevgisi göstərirdi. Bəzən onun evində qalıb məşqləri davam etdirirdim. Çətin də olsa məşqlərlə formamı saxladım.

**– İdmana dönüşünüzü necə xatırlayırsınız?**

– Möhtəşəm oldu. Düzdür, diskvalifikasiyanın başa çatmasına sayılı aylar qalanda dizimdən ağır əməliyyat keçirdim. Həkimlər uzun müddət məşq etməyə icazə verməsələr də, özümü toplayıb Moskvada 2021-ci ildə keçirilən Avropa çempionatına hazırlaşdım. Qitə yarışında birdən qaldırmada (117 kq) qalib, təkanla qaldırmada (202 kq) 7-ci oldum. İki hərəkətin cəmində bürünc medal qazandım. Ən yaxşı formada ikən – 2022-ci il Avropa çempionatında ağırlıq qaldırdığım zaman qolum dirsəkdən sındı. Bir aydan sonra isə İslam Həmrəyliyi Oyunları idi və qərara aldım ki, əməliyyatdan əvvəl yarışda iştirak edim. Ştanq üçün o qədər darıxmışdım ki... “Konya-2021”də gümüş medala layiq görüldüm. Yarışdan sonra isə əməliyyat olundum.

**– Əməliyyatdan az müddət sonra MDB Oyunlarında qalib oldunuz...**

– İlk dəfə əməliyyatım uğursuz keçdi. Hiss edirdim ki, qolum dirsəkdən yaxşı açılmır. Almaniyada ikinci əməliyyatdan bir müddət sonra məşqlərə başladım.




Əslində, çox çətin idi. Qolum qipsdə, tikişlər belə açılmamışdı. Məşqçim Asif Məmmədovun da gecəsi-gündüzü yox idi. Onun düzgün taktikası sayəsində hazırlıq uğurla başa çatdı. Bəzən ağırlığı qaldırdığım zaman, özü saxlayırdı ki, oturub-qalxma hərəkətlərini yerinə yetirim. Arena üçün çox darıxmışdım. Builki yarışların heç birisini buraxmaq istəmirdim. MDB Oyunlarında qalib adını qazanmağım çətin məşqlərin bəhrəsi idi. Düşünürdüm ki, bu il dünya çempionatında yaxşı nəticə göstərmək üçün yarışlarda iştirak etməliyəm.

**– Dünya çempionatının ən güclüləri arasında yer alacağınıza əmin idinizmi?**

– Əslində, zədə səbəbindən yarışa istədiyim kimi hazırlaşa bilməmişdim. Reabilitasiya olsa da, adaptasiya tam deyildi. Amma özümə çox inanırdım. Özbək, İran, bolqar və İraq idmançıları yarışın favoritləri idilər. Hamı onlardan danışır, qələbələri barədə müzakirələr aparırdılar. Birdən qaldırmada əldə etdiyim nəticədən sonra yarışda ab-hava dəyişdi. Hiss edirdim ki, hamı mənə diqqət göstərir. Bu, mənə əlavə motivasiya verirdi. Təkanla qaldırma hərəkətində də uğurla çıxış etdim.

**– Gələcəkdə əsas hədəfiniz yəqin ki, Paris Olimpiadasıdır?**

– Əlbəttə. Bunun üçün əvvəlcə Olimpiya xarakterli turnirlərə yaxşı hazırlaşmalıyam. Çox güclü rəqiblərlə mübarizə aparmalıyam. Düşünürəm ki, bu çətin mübarizəyə hazıram.

***Leyla QURBANOVA***
***XQ***

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC

öz gəmiləri üçün naviqasiya avadanlıqlarının satın alınması məqsədilə

AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 28 sentyabr 2023-cü il saat 17.00-dəkdir.

Əlaqə telefonu- (012) 404-37-00, daxili:1016.

Ünvan- AZ1003, Bakı şəhəri, M.Useynov küçəsi 2.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 206 (30322) 23 sentyabr 2023-cü il, şənbə

Təbiət

# Yenə payız gəldi...

**Bu gün şimal yarımkürəsində astronomik payız başlayır. Payız fəsli Azərbaycana 23 sentyabr saat 10:49-da daxil olacaq. Bu barədə Nəsrəddin Tusi Adına Şamaxı Astrofizika Rəsədxanasından məlumat verilib.**



Bu zaman Günəş ekliptika üzrə hərəkət edərək şimal yarımkürəsindən cənub yarımkürəsinə keçəcək və həmin andan şimal yarımkürəsində payız fəsli, cənub yarımkürəsində isə yaz fəsli başlayacaq. Həmin gün bütün coğrafi enliklərdə Günəş şüaları Yer səthinə perpendikulyar düşəcək və gündüzlə gecənin uzunluğu bərabərləşərək 12 saat olacaq.

Qeyd edək ki, şimal yarımkürəsində payız fəsli dekabrın 22-nə qədər davam edəcək. Dekabrın 22-si saat 07:27-də qış fəsli payızı əvəz edəcək.

**XQ**

İdman xəbərləri

## "Böyük dəbilqə"də 1 qızıl, 1 gümüş medal

**Azərbaycan cüdoçusu Yaşar Nəcəfov (66 kq) Bakıda keçirilən Böyük Dəbilqə turnirinin qalibi olub.**




İdmançımız final görüşündə parlaq qələbə qazanıb. O, həlledici görüşdə yaponiyalı Takeşi Takeokaya cəmi 12 saniyəyə "ippon"la qalib gəlib. Qadın cüdoçumuz Leyla Əliyeva isə qızıl medal görüşündə italiyalı Skutto Assuntaya uduzaraq ikinci yerlə kifayətlənib.

## İki güləşçimiz dünya çempionu olub

**Azərbaycanın yunan-Roma güləşçiləri Rafiq Hüseynov (82 kq) və Eldəniz Əzizli (55 kq) Serbiyanın paytaxtı Belqradda keçirilən dünya çempionatında böyük uğur qazanıblar.**



Finalda iranlı rəqibi Əlirza Mohmadipianini məğlub edən R.Hüseynov karyerasında ikinci dəfə dünya çempionu tituluna yiyələnib. E.Əzizli isə həlledici mərhələdə gürcüstanlı Nuqzari Tsurtsumiaya 13:4 hesabı ilə qalib gələrək üçqat dünya çempionu adına layiq görülüb. Komandamızın digər üzvü Sənan Süleymanov (77 kq) isə Qırğızıstan təmsilçisi Akjol Mahmudova uduzaraq gümüş medalla kifayətlənib.

## Avropanın təcrübəli mütəxəssisi "Neftçi"də

**Avropanın təcrübəli, tanınmış futbol funksionerlərindən biri, İsveç milli komandasının idman direktoru Yens Andersson "Neftçi" ilə müqavilə bağlayıb.**



Klubdan bildirilib ki, funksioner klubun idman direktoru vəzifəsinə təyin olunub. 50 yaşlı mütəxəssis buna qədər ölkəsinin "AİK Solna" (2010-2013, 2014, 2018-2020), Xorvatiyanın "Hayduk Split" (2013), Danimarkanın "Aarhus" (2014-2016) klublarında idman direktoru olaraq çalışıb.

Təcrübəli mütəxəssis 2022-ci ildən İsveç millisində idman direktoru kimi fəaliyyət göstərib. Son müddət ərzində İsveçin bütün yaş qrupu üzrə milli komandalarında, həmçinin uğurlu çıxış edən qadınlardan ibarət milli komandada keçirilən islahatlarda Yens Andersson böyük pay sahibidir.

***Leyla SABİRQIZI***
**XQ**

Texnologiya yenilikləri

## "Youtube"da videoredaktə

**"Youtube" tərtibatçıları "Youtube Create" adlı yeni tətbiqi təqdim ediblər. Yeni tətbiq videoları birbaşa smartfonda redaktə etmək imkanını verir. "Youtube Create" istifadəçiləri daha çox "Youtube Shorts" videolarının yaradılmasına sövq etmək üçün nəzərdə tutulub.**




Məlumdur ki, "Youtube"da video hazırlamaq "TikTok"da video hazırlamaqdan daha qəlizdir. "Youtube" servisinin videoların redaktə olunması üçün nəzərdə tutulmuş ayrıca tətbiqi istifadəyə verməsi öz növbəsində "TikTok"un buna bənzər CapCut adlı tətbiqi istifadəyə verməsi strategiyasına bənzəyir.

Xatırladaq ki, "CapCut" öz növbəsində təkcə "TikTok" üçün deyil, həmçinin digər platformalar üçün videoların hazırlanmasında yardımçı olur. "Youtube Create" tətbiqinə gəldikdə isə o, videoların kəsilməsi, onlara altyazıların, səsləndirmənin, müxtəlif effektlər ilə filtrlərin əlavə edilməsi imkanlarını verir.

**XQ**

## Qulaqlıq layla çalır

**"Xiaomi" şirkəti istifadəçiləri daha tez və yaxşı yuxuya getməsinə kömək edəcək yeni qadcet hazırlayıb. Qulaqlıqlı bu ağıllı maska "Meet" adlandırılıb.**



Məlumata görə, cihaz artıq sifariş üçün hazırdır. "Meet" yuxu maskasıdır. Ancaq o, həm də müasir texnologiyadan - xarici səsləri manea törədən müasir qulaqlıqlardan istifadə edir.

Bu qulaqlıqlar rahatlaşdırıcı musiqi ifa edə bilir. Səs səviyyəsi həm əllə, həm də avtomatik olaraq tənzimlənir. İstifadəçi müəyyən yuxu mərhələsinə çatdıqda musiqi tamamilə sönür.

Müxtəlif funksiyaları konfiqurasiya etmək və yuxu ssenarilərini seçmək mümkündür. Maska smartfona qoşula bilər. Belə maskanın sahibi müəyyən müddət ərzində yüksək keyfiyyətli və sağlam istirahətdən zövq almaq üçün istədiyi yuxu rejimini seçə bilər.

***AYTƏN***
**XQ**

Maraq dünyamız

## Afroditanın məbədi…

**Misir və Fransadan olan beynəlxalq arxeoloqlar qrupu İsgəndəriyyə yaxınlığında, suyun altında qədim yunan gözəllik, sevgi və məhsuldarlıq ilahəsi Afroditaya məxsus məbəd tapıblar. Bu barədə ölkənin Turizm və Qədim Əsərlər Nazirliyi xəbər yayıb.**



Bildirilir ki, eramızdan əvvəl V əsrə aid olan məbəd Əbu Kir körfəzində batmış qədim Heraklion şəhərində sualtı qazıntılar zamanı aşkar edilib. Məbədin içərisində Yunanıstandan gətirilmiş tunc və keramika əşyaları da var.

Qeyd edək ki, eramızdan əvvəl VIII əsrdə inşa edilən Heraklion beş əsr sonra İsgəndəriyyə tikilənə qədər qədim Misirin ən böyük ticarət mərkəzi və liman şəhəri olub. Şəhər, təxminən 1200 il əvvəl su altında qalıb. Heraklion arxeoloqlar tərəfindən kəşf edildiyi gündən sualtı muzey hesab edilir.

***S. FİDAN***
**XQ**

## "Şirvan Yol Tikinti-3" ASC səhmdarlarının nəzərinə!

6 noyabr 2023-cü il saat 15.00-da "Şirvan Yol Tikinti-3" ASC səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələ:**

**1.** "Şirvan Yol Tikinti-3" ASC-nin ləğv edilməsinin müzakirəsi.

İclasda bütün səhmdarların iştirakı vacibdir.

Əlaqə telefonu–050-222-30-05.

Ünvan–Şirvan şəhəri, M.Füzuli küçəsi 19.

Maqazin

## Azərbaycanlı modelyer "ulduzlar" aləmində

***Dünyaca məşhur müğənni-aktrisa Rita Ora azərbaycanlı modelyer Rüfət İsmayılın kolleksiyasına müraciət edib.***




32 yaşlı britaniyalı ifaçı bir neçə gün əvvəl "Watch What Happens Live" proqramına həmyerlimizin hazırladığı libasla qatılıb. Bu barədə modelyer özünün "İnstagram" səhifəsində məlumat verərək müğənninin həmin libasda fotolarını paylaşıb.

Qeyd edək ki, Rüfət İsmayıl "Affair" brendinin yaradıcısıdır. Onun moda nümayişləri Milan, Florensiya, Tehran və digər şəhərlərdə baş tutub. R.İsmayıl hazırladığı geyimlərə görə "Türkiyənin ən yaxşı dizayneri" adına layiq görülüb.

Həmyerlimizin hazırladığı geyimləri Beyons, Cennifer Lopez, Avril Lavin və digər dünya ulduzları da geyinirlər.

***F. SALMAN***
**XQ**

Sağlamlıq

## Çuğundur, kələm, pomidor fəsli

**Payızda hər insanın gündəlik rasionuna bu 3 tərəvəz mütləq daxil edilməlidir: çuğundur, kələm, pomidor (tomat). Dietoloqların əksəriyyəti çuğunduru payız neməti adlandırırlar.**



Pəhriz həkimi Tatyana Meşeryakova deyib ki, soyuq aylarda həftədə ən azı 500 qram çuğundur müntəzəm yeyilməlidir.

O, bildirib ki, çuğunduru təzə şəkildə və ya azca qaynadıb yemək də olar. Çuğundurun iri yarpaqları da yeyilir, istəyən istifadə edə bilər. Bu tərəvəz dəmir, kalium, yod, vitamin və antioksidant mənbəyidir.

Çuğundur salatı və ya şirəsi təzyiqi olanlara bir dərman kimidir, həmçinin həzmi yaxşılaşdırır, qan dövranını artırır, qaraciyəri təmizləyir.

Payızda kələm, turp, yer alması kimi tərəvəzlərdən salatlar, şorbalar yemək lazımdır. Onlar immun sistemi gücləndirir. Təzə tərəvəzlərdən istifadə edərkən hazırlanan salatlara mayonez əlavə etmək məsləhət görülmür.

***Z.HÜSEYNLİ***
**XQ**

## Hava dəyişkən buludlu...



**Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, sentyabrın 23-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-şərq küləyi əsəcək.**

Havanın temperaturu gecə 16-19° isti, gündüz 22-27° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 767 mm civə sütunu olacaq. Nisbi rütubət 55-65 faiz olacaq.

Dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Axşama doğru tədricən kəsiləcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 16-20° isti, gündüz 23-28° isti, dağlarda gecə 4-9° isti, gündüz 12-17° isti olacaq.

**XQ**

Qəza

## Mikroavtobus kanala düşüb

**Salyanda yol qəzası baş verib, mikroavtobus yoldan çıxaraq kanala düşüb. Qəzada bir nəfər ölüb.**



Yol qəzası bu gün (dünən-müəllif) səhər saatlarında Salyan rayonunun Xalac kəndi ərazisində baş verib. Adıçəkilən kənd sakini Qurban Gözəlov idarə etdiyi "Ford" markalı mikroavtobusla hərəkətdə olarkən idarəetməni itirib və mikroavtobus yoldan çıxaraq su kanalına aşıb.

Hadisə nəticəsində mikroavtobusda olan sərnişin - Xalac kənd sakini Bəyanə Eyyubova ölüb, sürücü isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Faktla bağlı araşdırma aparılır.

**XQ**

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 5028
SİFARİŞ 2401
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır
00:00